RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 95 (8688) CÜMƏ AXŞAMI, 6 may 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycanın özü qədər əbədi




### Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi, general-polkovnik Ramil USUBOV:

### “Müzəffər Ali Baş Komandanın yaratdığı yeni reallıq Qafqazda etibarlı təhlükəsizlik, dayanıqlı inkişaf və səmərəli əməkdaşlıq sistemini formalaşdırır”

**Yeni reallıq yalnız Prezident İlham Əliyevin 30 illik Qarabağ savaşını, tarixi iki əsrə gedib çıxan münaqişəni Azərbaycanın Zəfəri ilə bitirməsiylə məhdudlaşmır. Əsl qələbə, əsl reallıq Müzəffər Ali Baş Komandanın sərkərdəlik qüdrəti ilə yanaşı, yüksək siyasi və diplomatik məharəti nəticəsində əldə olunan yeni imkanlar, yaradılan yeni təhlükəsizlik mühiti, Azərbaycanın müqəddəratını uzun illərboyu təmin edəcək yeni iqtisadi-siyasi vasitələr, mənbələrdir.**

Əsrlərboyu Azərbaycanın maraqlarına zidd davam edən münaqişəni dövlət başçımız elə qeyri-adi dahiliklə yekunlaşdırdı ki, bundan sonrakı dövrdə Qafqazda artıq sülh, sabitlik, inkişaf bərqərar olacaq. Möhtərəm Prezidentimizin yaratdığı yeni reallıq daim yeni töhfələr verəcək, gələcək nəsillərimiz üçün dövlətçiliyin gücünü təmin edən əsas faktora çevriləcəkdir.

Bugünkü tarixi Zəfər əbədiyaşar liderimiz Heydər Əliyevin hələ yarım əsr öncədən başlayaraq qurub-yaratdığı möhkəm təmələ əsaslanan strateji planların yeni təntənəsi, məntiqi nəticəsidir.

Möhtərəm Prezidentimiz üçün Şuşanın küçələri, məhəllələri, Vaqifin, Natəvanın və digər görkəmli şəxslərin məqbərələri, abidələri adi tarixi məkanlar deyil. O bunları 70-80-ci illərdə Ulu Öndərlə birgə səfərlərində görüb, çoxunun açılışında iştirak edib, hər biri ilə bağlı təəssüratı var. Son aylarda qısa müddət ərzində Şuşaya iki dəfə səfər etməsi, buradakı quruculuq işləri ilə xırda detalına qədər maraqlanması və prosesi özü ilə yanaşı, həm də möhtərəm Mehriban xanım Əliyevanın şəxsi nəzarətinə verməsi təsadüfi deyil.

Necə ki bu gün Müzəffər Ali Baş Komandan onilliklərdən sonra Qarabağı Azərbaycanın suveren hüquqları çərçivəsinə qaytardı, eləcə də Heydər Əliyev 70-80-ci illərdə artıq itirilməkdə olan Dağlıq Qarabağı Azərbaycana qaytarmışdı.

Cənab İlham Əliyevin “Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm” sözlərinin tam mənası ilə əmələ çevrildiyini onun ötən 18 ildə həyata keçirdiyi möhtəşəm dövləti fəaliyyətin, xüsusilə də Vətən savaşının timsalında hər kəs görür. Prezidentimizin “Qarabağı Azərbaycanın cənnətinə çevirəcəyik” qərarının da qısa müddətdə reallaşacağına inanırıq.

Xalqımız əmindir ki, tezliklə Qarabağda həyat yenidən canlanacaq, vaxtilə Heydər Əliyevin gülüstana çevirdiyi, qurub-yaratdığı Qarabağa möhtərəm dövlət rəhbərimiz yeni həyat bəxş edəcək, onu yenidən inkişafa, rifaha qovuşduracaq. Regionda sabitliyin, əmin-amanlığın təmini, iqtisadi potensialın artması isə eyni zamanda məhz Ali Baş Komandanın yaratdığı yeni reallıqlardan irəli gələn təhlükəsizlik amilnə çevriləcəkdir.

Savaşın hər anında xalqımızın böyük şücaəti, əsgər və zabitlərimizin qəhrəmanlığı, şəhidlərimizin müqəddəs qanı əks olunub. Cənab İlham Əliyevin böyük liderliyinin, misilsiz dövləti fəaliyyətinin nəticəsi olan bu Qələbə eyni zamanda Ulu Öndərin işıqlı ideyalarının təntənəsi və şah əsəri olan tarixin ən qüdrətli Azərbaycanının, xalqımızın parlaq nailiyyəti, əsrlər sonra qazanılan, əsrlərboyu yaşayacaq tarixi reallıqdır.

Bax: səh. 4

## Heydər Əliyevdən İlham Əliyevə...

### ...Nizami Gəncəvi ədəbi irsi

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevi xarakterizə edən xüsusiyyətlər sırasında mükəmməl dövlətçilik idealı və səriştəsi, böyük siyasi uzaqgörənlik, xalqa və vətənə dərindən bağlılıq, heyrətamiz dərəcədə yaddaş, geniş tarixi dünyagörüşü, möhkəm iradə və qətiyyət, tarixi əhəmiyyətə malik qərarlar qəbul etmək və həmin qərarların yüksək səviyyədə icrasını təmin etmək kimi dünya liderlərinə xas olan keyfiyyətlərlə yanaşı, həm də bu mütəfəkkir dövlət xadiminin ədəbiyyat və incəsənətə dərindən bələd olması, həmin faktordan yerli-yerində bacarıqla istifadə etməsi də xüsusi yer tutur.

Obrazlı şəkildə belə demək olar ki, dünya liderləri arasında Heydər Əliyev qədər ədəbiyyat və incəsənətə dərindən bələd olan, bu amildən dövlət idarəçiliyində və siyasi-ideoloji proseslərdə yaradıcı şəkildə istifadə etməyi bacaran digər dövlət xadimi göstərmək çətindir. Heydər Əliyev dünyada geniş və sistemli ədəbiyyat biliyinə malik olan nadir dövlət xadimidir. Ulu Öndərin siyasi dünyagörüşünün formalaşmasında da ədəbiyyat faktoru mühüm yer tutmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyevin aşağıdakı fikirləri onun taleyində və dünyagörüşündə ədəbiyyat amilinin nə qədər mühüm əhəmiyyət kəsb etdiyini əyani surətdə nümayiş etdirir: “Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm... Mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur”.

Ulu Öndər Heydər Əliyev geniş mənada dünya ədəbiyyatı və mədəniyyətinə dərindən bələd olmuş, dünya ədəbiyyatı klassikləri haqqında orijinal mühakimələr yürütmüş, onlara obyektiv elmi-siyasi qiymət verməyi bacarmışdır. Məruzələrindən və çıxışlarından öyrənirik ki, o, dünyanın demək olar ki, əksər xalqlarının ədəbiyyatından tanınmış ədəbiyyat xadimlərinin irsi ilə yaxından tanış olmuşdur.

Ardı 5-ci səh.

## Azərbaycanla Gürcüstanın birgə layihələri regionun siyasi, iqtisadi, nəqliyyat və energetika xəritəsini dəyişdirib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də ölkəmizdə səfərdə olan Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini qəbul edib. AZƏRTAC xəbər verir ki, Gürcüstanın Baş nazirini salamlayan Prezident İlham ƏLİYEV dedi:**

- Cənab Baş nazir, Azərbaycana xoş gəlmisiniz. Sizi görməyə çox şadam. Əminəm ki, səfər çox uğurlu olacaq və bizim qardaşlıq münasibətlərimizi gücləndirəcək. Xalqlarımız arasında münasibətlər uzun tarixə əsaslanır, əsrlərboyu davam edən yaxşı qonşuluq və dostluq tarixinə əsaslanır. Hesab edirəm ki, bu, böyük dinamikanı nümayiş etdirən və faktiki olaraq bir çox sahələri əhatə edən cari münasibətlərimizin inkişafı üçün çox yaxşı zəmindir. Çox şadam ki, bizi ziyarət edirsiniz. Sizə möhkəm cansağlığı arzulayıram. Bilirəm ki, bu yaxınlarda koronavirusa yoluxmuşdunuz. Çox şadam ki, tamamilə sağalmısınız. Bu, sizin Azərbaycana səfərinizin bir az təxirə salınmasının səbəbi idi.

Bizim enerji və nəqliyyat layihələri kimi birgə layihələrin icrası üzrə yaxşı tariximiz var. Bu layihələr regionun siyasi, iqtisadi, nəqliyyat və energetika xəritəsini dəyişmişdir. Ölkələrimiz arasında güclü tərəfdaşlıq olmasaydı, bu layihələrin icrası mümkün olmazdı.

Ardı 2-ci səh.





## Dəmir iradə ilə Zəngəzura doğru...

### İlham Əliyevin qətiyyətli siyasəti bu dəhlizi tezliklə reallığa çevirəcək

**İstənilən xalq və onun yaratdığı dövlət siyasi, iqtisadi və digər cəhətlərdən nə qədər möhkəm, qüdrətli olarsa, onun həyata keçirdiyi siyasətin müstəqillik elementləri də o dərəcədə güclü olar.**

Bu mənada İlham Əliyevin son 17 ildə həyata keçirdiyi tam müstəqil siyasət nəticəsində Azərbaycanın əhəmiyyətli dərəcədə gücləndiyi dünyada heç kimdə şübhə doğurmur. İkinci Qarabağ müharibəsindəki şanlı Zəfər isə, ilk növbədə, ölkənin hərbi qüdrətinin hansı səviyyədə olduğunu göstərdi. İndi Azərbaycan müharibədən sonra yaranmış yeni reallıqlara uyğun addım atmaqla bir daha dünyaya gücünü, qüdrətini, nəyə qadir olduğunu nümayiş etdirir.

#### Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa olunacaq

Bu gün Qarabağda böyük tikinti bumu yaşanır. İlham Əliyevin yeni inkişaf konsepsiyası əsasında həyata keçirilən proseslər çox sürətlə davam edir.

Məğlub Ermənistan hərdən bəzi prosesləri ləngitmək istəməsi fonunda təxribatlara da əl atır. Amma Prezident İlham Əliyev düşünülmüş siyasəti və hesablanmış addımlarla prosesi davam etdirir. Təxribat törədənlərə isə hələ ki xəbərdarlıq etməklə kifayətlənir. Artıq Ermənistandakı revanşist qüvvələrə də bəllidir ki, İlham Əliyev qarşısına qoyduğu məqsədə çatmaq üçün prinsipial, qətiyyətli addımlar atır. Dövlət başçısı lazım gələndə sözünü deyir və onun icrasını da reallaşdırır.

Ötən ilin 10 noyabrında İlham Əliyevin şərtlərinə uyğun kapitulyasiya sənədinə qol çəkmək məcburiyyətində qalan Ermənistan Bəyanatın 9-cu bəndinin icra prosesi ilə bağlı hərdən sərsəm fikirlər səsləndirir. Həmin bənddə göstərilir ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir.

Ardı 8-ci səh.

## AÇG üçün doqquzuncu platforma tikilir

### Pandemiya dövründə layihə üzrə işlər vəziyyətə uyğunlaşdırılmaqla fasiləsiz aparılır

**1994-cü ilin sentyabr ayında “Azəri-Çıraq-Günəşli”nin (AÇG) tammiqyaslı işlənməsi müqaviləsi imzalanarkən tərəfdaşlar bu yataqların təxmini ehtiyatlarının 511 milyon ton olduğunu bildirmişdilər.**

İndi mütəxəssislər burada sərvətin daha çox - ən azı 1 milyard ton olduğu fikrini söyləyirlər.

Ardı 9-cu səh.



## Ermənistan müxalifəti seçkiyə parçalanmış halda gedir

**Növbədənkənar parlament seçkiləri yaxınlaşdıqca Ermənistanda siyasi qüvvələrlə bağlı daha maraqlı mənzərənin formalaşması müşahidə edilir. Belə görünür ki, budəfəki seçkilərə erməni müxalifəti parçalanmış halda qatılmalı olacaq. Hətta bir vaxtlar vahid qüvvə təsiri bağışlayan Sarkisyan-Koçaryan koalisiyası getdikcə daha çox parçalanır.**

Artıq məlumat verildiyi kimi, keçmiş hərbi xuntanın əsas təmsilçiləri olan Robert Koçaryan və Serj Sarkisyan seçkilərə fərqli qüvvələrlə, biri-birinə rəqib kimi qatılırlar. Belə bir vaxtda klanın daha bir üzvü olan sabiq müdafiə naziri Sergey Ohanyan Koçaryanı dəstəklədiyini bildirib. Bu da Sarkisyanın tərəfdarlarının sərt etirazına səbəb olub. Onlar Ohanyanı Sarkisyana xəyanətdə ittiham edirlər.

Ermənistanın “Qraparak” nəşri yazır ki, baş verənlər keçmiş hərbi xunta daxilində qarşıdurmalar mərhələsinin başlandığını təsdiq edir. Qeyd edilir ki, indiki halda koalisiyanın və digər müxalif qüvvələrin parçalanması Nikol Paşinyan iqtidari üçün müstəsna əhəmiyyət kəsb edir: “Ermənistanın ilk üç prezidentinin kütlə qarşısındakı çıxışı müxalifətin parçalandığını göstərir. Sabiq prezidentlərdən birincisi bugünkü gündəmdən, ikincisi əsasən gələcəkdən, üçüncüsü keçmişdən danışıb. Ortaya çıxan mənzərə qarışıqdır, lakin gerçəyi əks etdirir. Birinci prezident keçmiş mənəvi övladı Nikolu düz yola qaytarmağa çalışır. İkincisi Paşinyanın məcburiyyəti ilə siyasətə qayıtdığını və onu 20 iyunda məğlub edəcəyini təkrarlayır”.

Ardı 10-cu səh.





# Azərbaycanla Gürcüstanın birgə layihələri regionun siyasi, iqtisadi, nəqliyyat və energetika xəritəsini dəyişdirib

*Əvvəli 1-ci səh.*

Ötən ilin sonuncu günü "Cənub qaz dəhlizi" layihəsinin icrasının sonuncu günü idi. Bu layihə təkcə Cənubi Qafqaz regionunda yox, daha geniş Avrasiya regionunda ümumi inkişaf, sabitlik, proqnozlaşdırma, əməkdaşlıq üçün mühüm əhəmiyyət kəsb edir. Bir daha qeyd edirəm, bizim əməkdaşlığımız olmasaydı, bu, mümkün olmazdı. Buna görə bu vacib layihənin icrasına davamlı dəstək göstərdiyinə görə Gürcüstan hökumətinə dərindən minnətdaram. Bizim birlikdə start verdiyimiz bütün digər təşəbbüslərin də yaxşı uğur hekayəsi var. Əminəm ki, gələcəkdə də belə olacaq. Mən indicə bəzi məlumatlara baxdım və gördüm ki, Azərbaycan Gürcüstan iqtisadiyyatında ən böyük investorlardan biri olmaqda davam edir. Bu da həmçinin çox müsbət və əlverişli investisiya mühitinin yaradılmasında sizin hökumətinizin həyata keçirdiyi islahatların yaxşı göstəricisidir. Bilirəm ki, daha da çox Azərbaycan şirkəti sizin ölkənizdə çalışmaq istəyir və əminəm ki, bu, baş verəcək. Bu gün biz, əlbəttə ki, nail olduqlarımızı nəzərdən keçirəcəyik və gələcək addımlarımızı planlaşdıracağıq. Sizə ən xoş arzularımı çatdırıram. Bir daha xoş gəlmisiniz.

Baş nazir **İrakli QARİBAŞVİLİ** dedi:

- Cənab Prezident, məni qəbul etdiyinizə görə təşəkkür edirəm. Sizinlə yenidən Bakıda görüşmək böyük məmnuniyyət və şərəfdir. Qeyd etdiyiniz kimi, biz səfərimizi mənim koronavirusa yoluxmağım səbəbindən təxirə salmaq məcburiyyətində qaldıq. Lakin şadam ki, bu gün Bakıdayıq. Siz qeyd etdiniz ki, bizim mükəmməl münasibətlərimiz var və münasibətlərimiz əsrlərboyu davam edir. Mən Sizin atanızın vaxtilə Tbilisidə dediyi sözləri təkrar etmək istəyirəm - tale belə müəyyənləşdirib və bəxtimiz gətirib ki, biz qonşuyuq, gürcü və Azərbaycan xalqları qonşudurlar. Bu, bizim taleyimizdir. Biz bir-birimizə çox bağlıyıq və qarşılıqlı əlaqədəyik. Qeyd etdiyiniz kimi, biz birlikdə bəzi çox mühüm əhəmiyyət kəsb edən tarixi layihələri icra etmişik. Ona görə də biz münasibətlərimizi və qardaşlığımızı gücləndirəcək daha çox layihələrin birgə icrasını davam etdirməkdə tamamilə qətiyyətli və həvəsliyik. Bir daha mənim başçılıq etdiyim nümayəndə heyətini burada, Bakıda qəbul etdiyiniz üçün Sizə minnətdarlığımı bildirmək istəyirəm. Mən fürsətdən istifadə edərək Sizin üçün münasib vaxtda bizi Tbilisidə ziyarət etməkdən ötrü Sizi səfərə dəvət etmək istərdim. Çox sağ olun.

❖ ❖ ❖

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili işçi nahar etdilər.

# Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət

Ölkəmizdə səfərdə olan Gürcüstanın Baş naziri İrakli Qaribaşvili mayın 5-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.



AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə gül dəstələri düzülüb.

# Şəhidlərin xatirəsinə ehtiram

**Azərbaycanda səfərdə olan Gürcüstanın Baş naziri İrakli Qaribaşvili mayın 5-də Şəhidlər xiyabanını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, Baş nazir İrakli Qaribaşvili ölkəmizin azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

# Baş nazir Əli ƏSƏDOV: "Azərbaycan və gürcü xalqları tarixboyu dostluq, əmin-amanlıq şəraitində yaşayıblar"



Azərbaycan və gürcü xalqları tarixboyu dostluq, əmin-amanlıq şəraitində yaşayıblar. Bu gün isə münasibətlərimiz strateji tərəfdaşlığa çevrilib.

AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə mayın 5-də keçirilən görüşdə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov deyib.

Baş nazir Əli Əsədov bildirib ki, Azərbaycanın və Gürcüstanın birgə fəaliyyət göstərdikləri meqalayihələr regionun və Avropanın enerji təhlükəsizliyinə böyük töhfə verir. "Cənub qaz dəhlizi" və TAP layihələri çərçivəsində əməkdaşlığımızı yüksək qiymətləndirən Əli Əsədov qeyd edib ki, Azərbaycan Gürcüstan ilə əlaqələrə böyük önəm verir. "Bu gün siyasi, iqtisadi, ticari, mədəni və bir çox digər sahələrdə əlaqələrimiz inkişaf edir. İnanırıq ki, bu münasibətlər bundan sonra da inkişaf edəcək. Bir sıra sahələrdə əlaqələrin daha da genişlənməsi üçün böyük potensial var", - deyə Baş nazir Əli Əsədov əlavə edib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Azərbaycana səfərindən böyük şərəf duyduğunu qeyd edərək deyib: "Azərbaycan ilə sıx əlaqələrimiz var. Bu gün Prezident İlham Əliyev ilə tarixi layihələr barədə danışdıq. Bu layihələr əlaqələrimizin inkişafına böyük töhfə verir. Bizim bəxtimiz gətirib ki, Azərbaycan kimi qonşumuz var".

# Azərbaycan və Gürcüstan parlamentlər səviyyəsində də uğurla əməkdaşlıq edir

Mayın 5-də Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Azərbaycan ilə Gürcüstanın qonşu və dost ölkələr olduğunu deyən Milli Məclisin sədri bu dostluğun çoxəsrlik tarixə malik olduğunu söyləyib. Xalqlarımız əsrlərboyu bir-birinə dəstək olub. Azərbaycanda çoxlu sayda gürcülər, Gürcüstanda isə azərbaycanlılar yaşayırlar. Onlar cəmiyyətlərimizin ayrılmaz hissəsidir və ölkələrimiz arasında körpü rolu oynayırlar. Bu gün ölkələrimiz arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri mövcuddur. Azərbaycan və Gürcüstan arasında imzalanmış sənədlər müxtəlif sahələrdə əməkdaşlığımız üçün möhkəm hüquqi baza yaradır. Gürcüstan Azərbaycanın həyata keçirdiyi beynəlxalq layihələrin fəal iştirakçısıdır. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kimi neft və qaz kəmərləri buna parlaq misaldır.

Sahibə Qafarova vurğulayıb ki, ölkələrimiz parlamentlər səviyyəsində də təqdirəlayiq əməkdaşlıq edir. Hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qrupları fəaliyyət göstərir. Əməkdaşlığımız ikitərəfli və çoxtərəfli əsasdadır və nümayəndə heyətlərimiz beynəlxalq parlament qurumlarında uğurlu əməkdaşlıq edirlər. Görüşdə Milli Məclisin sədri Azərbaycanın apardığı 44 günlük Vətən müharibəsi zamanı ölkəmizə göstərdiyi dəstəyə görə öz adından və Milli Məclisin deputatları adından Gürcüstan hökumətinə minnətdarlığını ifadə edib. Bildirilib ki, "Dağlıq Qarabağ münaqişəsi" artıq tarixə qovuşub. Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu münaqişəni özü həll edib. Bununla həm də BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini həyata keçirib. Artıq ölkəmiz azad olunmuş əraziləri bərpa edir, yenidən qurur. Lakin Ermənistan yenə də öz təcavüzkar siyasətindən əl çəkmir. Minalanmış ərazilərin xəritələrini təqdim etmir. Bu isə çoxlu sayda hərbçilərin və mülki şəxslərin həlak olmasına səbəb olur. Bununla Ermənistan bərpa işlərinə və məcburi köçkünlərin geri qayıtması prosesinə mane olmağa çalışır. Ermənistanın bu davranışı bölgənin inkişafı üçün böyük təhlükədir.

Səmimi görüş üçün minnətdarlığını bildirən Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ölkəmizə səfəri çərçivəsində aparılan danışıqlardan məmnun qaldığını söyləyib. Qonaq bildirib ki, o, Azərbaycanı özünə doğma ölkə hesab edir. "Gürcüstan Azərbaycanın dostudur və gələcəkdə də dost olaraq qalacaq", - deyən İrakli Qaribaşvili ölkəsinin Azərbaycanla əlaqələri daha da dərinləşdirmək niyyətində olduğunu dilə gətirib.

Bildirilib ki, parlamentlər səviyyəsində münasibətlərimizin daha da inkişafı xalqlarımızın ümumi mənafelərinə xidmət edir. Bu baxımdan deputatların qarşılıqlı səfərləri və mütəmadi görüşləri çox əhəmiyyətlidir.

Tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsinin aparıldığı görüşdə Milli Məclis sədrinin müavini Fəzail İbrahimli, Gürcüstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Arzu Nağıyev, parlament Aparatının rəhbəri Səfa Mirzəyev, hər iki ölkənin səfirləri Faiq Quliyev, Zurab Pataradze və digər rəsmi şəxslər iştirak ediblər.

# Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma və yolasalma

**Gürcüstanın Baş naziri İrakli Qaribaşvili mayın 5-də Azərbaycan Respublikasına səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Gürcüstanın Baş nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini hava limanında Azərbaycanın Baş nazirinin müavini Əli Əhmədov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər qarşıladılar.

❖ ❖ ❖

Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin Azərbaycan Respublikasına səfəri mayın 5-də başa çatıb.

# Azərbaycan ilə Gürcüstan arasında əməkdaşlığın inkişafı məsələləri müzakirə edilib

Mayın 5-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Gürcüstanın xarici işlər naziri David Zalkaliani ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin ölkəmizə səfəri çərçivəsində baş tutan görüşdə nazirlər əvvəlcə təkbətək, sonra isə nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə müzakirələr aparıblar.

Həmkarını səmimiyyətlə salamlayan nazir Ceyhun Bayramov mövcud səfərin iki ölkə arasında siyasi dialoqun davam etdirilməsi baxımından əlverişli imkan yaratdığını bildirib. Ölkələrimiz arasında mövcud olan möhkəm tərəfdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb.



Nazir David Zalkaliani qonaqpərvərliyə görə təşəkkürünü ifadə edib. Gürcüstanın Baş naziri ilə Azərbaycan Respublikası Prezidenti arasında olduqca məhsuldar görüşün keçirildiyini qeyd edən nazir Zalkaliani ölkələrimiz arasında mövcud olan strateji tərəfdaşlıq və əməkdaşlıq münasibətlərinin gələcəkdə dərinləşdirilməsinin əhəmiyyətini bildirib. O, Gürcüstanın Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə dəstəyini qətiyyətlə vurğulayıb, öz növbəsində ölkəmizin də Gürcüstanın ərazi bütövlüyünə verdiyi dəstəyi xüsusilə qeyd edib.

Ceyhun Bayramov 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranan yeni reallıqlar, mövcud əməkdaşlıq imkanları, dövlətlər arasında münasibətlərin normallaşdırılması üçün yaranan nadir vəziyyət, habelə üçtərəfli Bəyanatın icrası ilə bağlı məsələlər, Ermənistanın razılaşmanın həyata keçirilməsinə maneə törədən davranışı və revanşist bəyanatları, bu xüsusda Azərbaycanın mövqeyi barədə həmkarını məlumatlandırıb.

Nazirlər mövcud yeni reallıqlar fövqündə qarşılıqlı fəaliyyətin uyğunlaşdırılmasının önəmini qeyd ediblər. Tərəflər həmçinin ikitərəfli gündəliyə daxil olan məsələlər, o cümlədən iqtisadi, humanitar, mədəniyyət, turizm və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üzrə fikir mübadiləsi aparıblar.

Görüşdə nazirlər həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Naxçıvanda aqrar sahədə təqdim olunan yeni layihələrin böyük əhəmiyyəti var



Mayın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Asiya İnkişaf Bankının Azərbaycandakı Daimi Nümayəndəliyinin ölkə üzrə yeni direktoru xanım Kandis Makdeyqan ilə görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin sədri qonağı yeni vəzifəsinə təyin olunması münasibətilə təbrik edib, Asiya İnkişaf Bankı ilə muxtar respublika arasındakı əməkdaşlığı diqqətə çatdırıb. Ali Məclisin sədri Asiya İnkişaf Bankının vitse-prezidenti Vençay Janqın muxtar respublikaya səfərini xatırladıb. Muxtar respublikada aqrar sahədə görülən işlərdən bəhs edən Ali Məclisin sədri təqdim olunan yeni layihələrin bu baxımdan əhəmiyyətini qeyd edib.

Ali Məclisin sədri qonağın Naxçıvana səfərindən məmnunluğunu bildirib.

Asiya İnkişaf Bankının ölkə üzrə direktoru xanım Kandis Makdeyqan Ali Məclisin sədrinə səmimi qəbula görə minnətdarlıq edib. Naxçıvan Muxtar Respublikasına ilk səfərinin layihələrlə tanışlıq məqsədi daşıdığını qeyd edən qonaq əməkdaşlığın geniş perspektivləri olduğunu vurğulayıb.

# Maliyyə naziri Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 54-cü illik toplantısında iştirak edib

Mayın 5-də videokonfrans formatında Asiya İnkişaf Bankının (AİB) Rəhbərlər Şurasının 54-cü illik toplantısı keçirilib.

"Dayanıqlı və yaşıl iqtisadiyyatın bərpası üçün əməkdaşlıq" devizi ilə keçirilən iclasda üzv ölkələrdən nazirlər, mərkəzi bank rəhbərləri, yüksəkvəzifəli dövlət və hökumət rəsmiləri iştirak ediblər. Maliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclasda Azərbaycanı maliyyə naziri, AİB-in Rəhbərlər Şurasının üzvü Samir Şərifov təmsil edib. İllik toplantıda Rəhbərlər Şurasının hazırkı sədri Gürcüstanın maliyyə naziri Laşa Xutsişvili və AİB-in prezidenti Masatsuqu Asakava çıxış ediblər.

İclasın gündəliyinə AİB-in 2020-ci il üzrə illik hesabatının müzakirəsi, maliyyə hesabatlılığına və müstəqil auditorların rəylərinə daxili nəzarət üzrə İdarə Heyətinin hesabatı, 2021-ci il üçün büdcənin təsdiqi, xalis gəlirlərin müəyyən olunması, bankın tətbiq etdiyi qaydaların və tənzimləyici normaların nəzərdən keçirilməsi, 2022-ci ildə keçiriləcək Rəhbərlər Şurasının 55-ci illik toplantısının tarixi və yerinin müəyyənləşdirilməsi və digər məsələlər daxil edilib.

Asiya və Sakit Okean hövzəsi ölkələrinin üzləşdiyi problemlər və yeni çağırışlar, o cümlədən dayanıqlı gələcək üçün əməkdaşlığın gücləndirilməsi, qlobal iqlim dəyişikliklərinə qarşı tutarlı tədbirlərin görülməsi, COVID-19 xəstəliyinə qarşı vaksinasiya sahəsində əldə edilmiş ilkin irəliləyişlərlə dəstəklənən iqtisadi artımın qorunması, o cümlədən postpandemiya dövründə iqtisadiyyatların bərpası zamanı yaranacaq çağırışların dəstəklənməsi, vergi sahəsində üzv ölkələr arasında əməkdaşlığın gücləndirilməsi məqsədilə Asiya və Sakit Okean vergi qovşağının açılması illik toplantıda diqqət mərkəzində olub.

Xatırladaq ki, AİB-in Rəhbərlər Şurasının 54-cü illik toplantısı mayın 3-5-də Tbilisi şəhərində keçirilməli idi. Lakin illik toplantının COVID-19 pandemiyası ilə əlaqədar videokonfrans formatında keçirilməsinə dair qərar qəbul edilib. Asiya və Sakit Okean Regionunda rifah, inklüzivlik, çeviklik və dayanıqlığın əldə edilməsini dəstəkləyən AİB 1966-cı ildə yaradılıb və baş qərargahı Filippinin paytaxtı Manila şəhərində yerləşir. Bankın 49-u regionda olmaqla, 68 ölkə üzvü var. Azərbaycan AİB-ə 1999-cu il dekabrın 22-də üzv qəbul olunub. Azərbaycan Respublikası bankın Rəhbərlər Şurasının 2015-ci ildə keçirilən 48-ci illik toplantısına evsahibliyi edib.

# "Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 10 avqust tarixli 437 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 10 avqust tarixli 437 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 645; 2012, № 2, maddə 102; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 6, maddə 644, № 9, maddə 1027; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2017, № 8, maddə 1521) 1-ci hissəsi ilə təsdiq edilmiş Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın həmsədri**

Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

Azərbaycan Respublikası energetika nazirinin müavini

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti

Azərbaycan Respublikasının Avstriya Respublikasında fövqəladə və səlahiyyətli səfiri."

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Avstriya Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 may 2021-ci il*

# "Azərbaycan Respublikası hökuməti və İraq Respublikası hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 20 may tarixli 1514 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası hökuməti və İraq Respublikası hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 20 may tarixli 1514 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 419; 2014, № 6, maddə 644, № 9, maddə 1027; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2017, № 8, maddə 1521; 2019, № 5, maddə 877) 1-ci hissəsi ilə təsdiq edilmiş Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın həmsədri**

Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini

Azərbaycan Respublikası təhsil nazirinin müavini

Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini

Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini

Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının vitse-prezidenti."

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə İraq Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 may 2021-ci il*

# Fikrət Qoca



Azərbaycan ədəbi ictimaiyyətinə ağır itki üz vermişdir. Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Azərbaycan Yazıçılar Birliyinin birinci katibi, Dövlət mükafatı laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Xalq şairi Fikrət Qoca (Fikrət Göyüş oğlu Qocayev) 2021-ci il mayın 5-də ömrünün 86-cı ilində vəfat etmişdir.

Fikrət Qoca 1935-ci il avqustun 25-də Ağdaş rayonunun Kotanarx kəndində anadan olmuşdur. O, Ağdaş şəhərində orta məktəbi bitirmiş, 1953-1957-ci illərdə Bakı Dəmir Yolu texnikumunda oxumuş və 1957-1959-cu illərdə Bakı şəhərində tikinti idarəsində işləmişdir.

Ədəbi yaradıcılığa gənc yaşlarından meyil göstərən Fikrət Qoca 1959-1964-cü illərdə Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunda təhsil almış, Bakıya qayıtdıqdan sonra 1964-1965-ci illərdə Azərbaycan Dövlət Radio və Televiziya Verilişləri Komitəsində redaktor, 1967-1970-ci illərdə "Azərbaycan gəncləri" qəzeti redaksiyasında ədəbi işçi, 1970-1975-ci illərdə Azərbaycan Yazıçılar İttifaqında məsul katib, 1978-1987-ci illərdə "Azərbaycan" jurnalında şöbə müdiri və 1987-2004-cü illərdə "Qobustan" incəsənət toplusunun baş redaktoru vəzifələrində çalışmışdır. O, 1998-ci ildən Azərbaycan Yazıçılar Birliyinin katibi, 2004-cü ildən birinci katibi olmuşdur.

Fikrət Qoca Azərbaycan ədəbi mühitinə yeni ab-hava gətirən sənətkarlardandır. Şair dərin ictimai məzmunlu yaradıcılığı ilə müasir poeziyamızın mövzu dairəsinə, poetik forma və ifadə tərzinə özünəməxsus çalarlar qazandırmış, mühüm hadisələr və cəmiyyətdəki mənəvi-ictimai proseslər fonunda insanın daxili aləminin dolğun təsvirinə nail olmuşdur. Mənəvi ucalığa və mənalı yaşamağa səsləyən, insan və zaman haqqında lirik-fəlsəfi ümumiləşdirmələrlə zəngin əsərləri Fikrət Qocanı geniş oxucu kütləsinə sevdirmişdir. Şairin bədii tərcümələri sayəsində Azərbaycan oxucusu dünya poeziyasının dəyərli nümunələri ilə yaxından tanış olmaq imkanı əldə etmişdir. Fikrət Qocanın sözlərinə bəstələnmiş mahnılar tanınmış müğənnilərin repertuarında geniş yer tutur.

Fikrət Qoca istiqlal ideyalarının tərənnümünü həmişə diqqət mərkəzində saxlamışdır. Onun xalqımızın azadlıq mübarizəsindən bəhs edən əsərlərinin gənc nəslə vətənpərvərlik ruhunun aşılanmasında əhəmiyyətli rolu vardır.

Fikrət Qocanın uzunmüddətli səmərəli yaradıcılıq fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, "Əməkdar incəsənət xadimi" və "Xalq şairi" fəxri adlarını almış, Azərbaycan Respublikasının ali dövlət təltiflərindən olan "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenlərinə, Dövlət mükafatına və "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"na layiq görülmüşdür.

Görkəmli şair, qayğıkeş və səmimi insan Fikrət Qocanın xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV, Mehriban ƏLİYEVA, Əli ƏSƏDOV, Sahibə QAFAROVA, Samir NURİYEV, Eldar ƏZİZOV, Fərəh ƏLİYEVA, Anar KƏRİMOV, Anar RZAYEV, Çingiz ABDULLAYEV, Nəriman HƏSƏNZADƏ, Elçin ƏFƏNDİYEV, Sabir RÜSTƏMXANLI, Rəşad MƏCİD***

# Uşaqların, yeniyetmələrin yetişdirilməsində müəllimlərin fəallığı təqdirəlayiqdir

Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev və deputat Şahin Seyidzadə mayın 5-də Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının üzvü olan bir qrup gənc müəllimlə görüşüblər.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə parlament sədrinin müavini Adil Əliyev müasir Azərbaycanda gənclər siyasətinin Ulu Öndər Heydər Əliyevin adı ilə birbaşa bağlı olmasını, Ümummilli Liderin gənclər siyasətinə böyük önəm verməsini diqqətə çatdırıb. Gənclərin layiqli və sağlam vətəndaş olaraq yetişdirilməsinin dövlət siyasətimizin əsas tərkib hissəsi olduğu vurğulanıb. Adil Əliyev bildirib ki, ölkəmizdə gənc nəslin milli-mənəvi dəyərlərimizə uyğun tərbiyə alması, habelə onların təhsilli, müasir elm və biliklərə yiyələnən, əmək bazarının tələblərinə cavab verən yüksək ixtisaslı kadrlar kimi yetişdirilməsi öhdəliyi isə müəllimlərin üzərinə düşür. Xüsusilə də uşaqların, yeniyetmələrin yetişdirilməsində müəllimlərin fəallığı təqdirəlayiqdir.

Milli Məclis sədrinin müavini qeyd edib ki, Ulu Öndər tərəfindən əsası qoyulmuş gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən çox böyük uğurla davam etdirilməsi nəticəsində hər il ölkəmizin gəncləri istər yerli, istərsə də dünyanın nüfuzlu universitetlərinə qəbul olunaraq hər birimizi qürurlandırırlar.

Adil Əliyev Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun 30 ilə yaxın əsarət altında olan torpaqlarımızı düşmən işğalından azad etməsindən danışaraq bu Qələbənin qazanılmasında Azərbaycan gəncliyinin xüsusi rolunu qeyd edib. Bildirib ki, gənclərimiz həm döyüş meydanında, həm də ölkəmizin haqq səsinin dünyaya çatdırılmasında müstəsna rol oynayıblar.

Görüşdə çıxış edən deputat Şahin Seyidzadə ölkəmizdə gənclər siyasətinin hər zaman prioritet istiqamətlərdən biri olmasını vurğulayaraq, gənclərimizin həm ölkə daxilində, həm də xarici ölkələrdə qazandıqları uğurlardan danışıb. Deputat bu sahəyə göstərilən diqqətin nəticəsi olaraq gənclərimizin həm təhsil, həm də idman olimpiadalarında qazandıqları uğurları, ölkəmizi layiqincə təmsil etmələrini bildirib. A.Əliyev Azərbaycan gəncliyinin bundan sonra da öz üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələcəyinə əminliyini ifadə edib.

Görüşdə Gənc Müəllimlər Assosiasiyasının üzvləri səmimi görüşə görə təşəkkürlərini bildirərək, bu görüşü həm də təmsil etdikləri müəllimlər ailəsinə göstərilən diqqətin nümunəsi kimi dəyərləndiriblər. Söhbət zamanı gənc nəslin vətənpərvər ruhda tərbiyə edilməsində hər bir müəllimin səfərbər olmasının vacibliyi vurğulanıb.

Görüşün sonunda iştirakçıların bir qisminə göstərdikləri xidmətlərə görə Milli Məclisin Gənclər və idman komitəsinin fəxri fərmanı təqdim edilib.

# Dünya prokurorlarının 29-cu illik konfransı və ümumi yığıncağının Bakıda keçirilməsinə dair ilkin razılıq əldə olunub

**Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, prokurorluq orqanlarının xarici ölkələrin prokurorluq orqanları və nüfuzlu beynəlxalq təşkilatları ilə səmərəli əməkdaşlığı davam etdirilir.**



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mayın 4-5-də Niderlandın Haaqa şəhərində Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) İcraiyyə Komitəsinin videokonfrans formatında 51-ci iclası keçirilib.

Tədbirdə ölkəmizi Azərbaycan Respublikasının baş prokuroru, assosiasiyanın vitse-prezidenti Kamran Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib.

İclasda assosiasiyanın İcraiyyə Komitəsinə yeni üzvlərin qəbulu ilə yanaşı, dünya prokurorlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair bir sıra təşkilati məsələ və sənədlər müzakirə edilib, o cümlədən prokurorluq orqanları əməkdaşlarının transmilli cinayətkarlığa qarşı mübarizə sahəsində müvafiq bilik və təcrübələrinin artırılması məqsədilə qurumlararası əməkdaş mübadiləsini nəzərdə tutan proqramın gələcək imkanları nəzərdən keçirilib.

İclasda çıxış edən Baş prokuror Kamran Əliyev 2024-cü ilin sentyabrında BPA-nın 29-cu illik konfransı və ümumi yığıncağının Bakıda keçirilməsinə dair ilkin təklif irəli sürüb.

Təkliflə bağlı geniş təqdimatla çıxış edən baş prokuror dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə, o cümlədən paytaxt Bakıda həyata keçirilən dayanıqlı sosial-iqtisadi tədbirlər nəticəsində infrastrukturun ən yüksək standartlar səviyyəsinə çatdırılması, nəticədə Azərbaycanın son illər bir çox mötəbər beynəlxalq tədbirə yüksəksəviyyəli evsahibliyi etməsi və bu sahədə qazandığı zəngin təcrübə barədə məlumat verib.

Qurumun rəhbər şəxsləri məsələ ilə əlaqədar çıxışlarında Azərbaycanın assosiasiyanın işinə verdiyi önəmli töhfələri və onun fəaliyyətində göstərdiyi təşəbbüskarlıq və mühüm dəstəyi xüsusi vurğulayıblar. İclasda BPA-nın 29-cu illik konfransı və ümumi yığıncağının Azərbaycanda keçirilməsi barədə qərar yekdilliklə qəbul edilib.

Assosiasiyanın İcraiyyə Komitəsinin iclasında digər təşkilati məsələlər də müzakirə olunub.

# Türkiyədən Azərbaycana yeni mühəndis texnika və avadanlığının növbəti hissəsi gətirilib

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Ordusunun maddi-texniki təminatının yaxşılaşdırılması, işğaldan azad olunan ərazilərdə minalardan təmizləmə işlərinin sürətləndirilməsi və təhlükəsizlik tədbirlərinin gücləndirilməsi istiqamətində görülən işlər davam etdirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həyata keçirilən fəaliyyətlər çərçivəsində Türkiyədən alınan ən müasir mühəndis texnika və avadanlığının növbəti hissəsi Azərbaycana gətirilib.

Azərbaycan Ordusunun işğaldan azad edilmiş ərazilərdə dislokasiya olunan mühəndis-istehkam bölmələrinin sərəncamına veriləcək texnika və avadanlıqdan yolların, yaşayış məntəqələrinin, əkinə yararlı sahələrin və digər ərazilərin minalardan, partlamamış döyüş sursatlarından təmizlənməsi işlərində istifadə ediləcək.

# "Heydər Əliyev və qüdrətli Azərbaycan" mövzusunda videokonfrans keçirilib

**Ulu Öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibətilə mayın 5-də "Heydər Əliyev və qüdrətli Azərbaycan" mövzusunda videokonfrans keçirilib.**

Milli Məclisin Regional məsələlər komitəsi ilə Azərbaycan Şəhər, Qəsəbə və Kənd Bələdiyyələrinin Milli Assosiasiyalarının birgə təşkil etdikləri tədbirdə deputatlarla yanaşı, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin və Bələdiyyə İşçiləri Həmkarlar Komitəsinin təmsilçiləri, həmçinin 70-ə yaxın şəhər, qəsəbə və kənd bələdiyyəsinin rəhbərləri iştirak ediblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, videokonfransın açılışında Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov Heydər Əliyev dühasının Azərbaycan xalqı, Azərbaycan dövləti və dövlətçiliyi, həmçinin bütün türk dünyası, müsəlman dünyası üçün gördüyü möhtəşəm işlərdən bəhs edib. Müasir Azərbaycan dövlətinin qurucusu olan Ümummilli Liderin xalqımızı və ölkəmizi dünya miqyasında tanıtdığını bildirib. Vurğulayıb ki, həyatını xalqına həsr edən Ulu Öndərin zəngin tarixə malik ictimai-siyasi, dövlətçilik fəaliyyəti xalqa və dövlətə xidmətin ən ali nümunəsi, ən parlaq təzahürüdür. O, diqqətə çatdırıb ki, bunlar barədə nə qədər kitablar yazılmış olsa da, hələ çox tədqiqat əsərləri hazırlanacaq.

Komitə sədri iftixarla qeyd edib ki, Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarını işğaldan azad etmiş qalib Azərbaycanda, qədim Şuşada qeyd olunacaq. 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər Heydər Əliyev siyasətinin təntənəsi, Ulu Öndərin layiqli davamçısı olan Azərbaycan Prezidentinin qüdrətinin təcəssümüdür.

Sonra tədbirdə Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyasının sədri, Bakının Nərimanov bələdiyyəsinin sədri Təmraz Tağıyev çıxış edərək XX əsrin 90-cı illərində ağır duruma düşmüş Azərbaycan dövlətçiliyinin xilasında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətlərindən, Yeni Azərbaycan Partiyasının yaranmasından söz açıb.

Videokonfransda Regional məsələlər komitəsinin üzvlərindən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev öz məruzəsində əsas diqqəti "Heydər Əliyev və Azərbaycanda dövlət quruculuğu" məsələsinə yönəldib. Ulu Öndərin ölkəmizdə hakimiyyətə gəldiyi ilk gündən etibarən Azərbaycanda iqtisadiyyatın və təhsilin inkişafına, hərbi kadrların yetişdirilməsinə və ölkənin müdafiə qüdrətinin artırılmasına, yeni iş yerlərinin yaradılmasına və digər mühüm sahələrə xüsusi diqqət yetirdiyini vurğulayıb.

Məruzəsində Ulu Öndərin gənclər siyasətindən söz açan Regional məsələlər komitəsinin üzvü Səbinə Xasayeva bildirib ki, Prezident İlham Əliyevin ətrafında sıx birləşən, milli düşüncəyə və yüksək intellektual səviyyəyə malik olan müasir Azərbaycan gəncliyi əsası Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin yetirməsidir.

Tədbirdə Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi Rəhman Məmmədov və Azərbaycan Kənd Bələdiyyələrinin Milli Assosiasiyasının sədri Əli Mehdiyev ölkəmizdə yerli özünüidarəetmə sisteminin yaradılmasında Ümummilli Liderin rolundan və bələdiyyələrin inkişafına göstərilən dövlət qayğısından bəhs ediblər.

Videokonfransda çıxış edən Şirvan bələdiyyəsinin Gənclər və idman komissiyasının sədri, Vətən müharibəsinin qazisi Cəlal Əzizzadə Ulu Öndərin milli ordu quruculuğundakı uzaqgörən siyasətinə toxunub, Qəbələ rayonunun Vəndam bələdiyyəsinin sədri Asif Həşimov Heydər Əliyevin regionların inkişafına göstərdiyi diqqəti önə çəkib.

Tədbirdə aparılan müzakirələrdə Ulu Öndərlə bağlı xatirələr yada salınıb. Azərbaycan tarixində silinməz iz qoyan Heydər Əliyevin azərbaycançılıq ideyası, sosial ədalət siyasəti, neft strategiyası, qüdrətli Azərbaycan dövlətinin qurulmasında müstəsna xidmətləri minnətdarlıqla qeyd olunub.

Bununla da "Heydər Əliyev və qüdrətli Azərbaycan" mövzusunda keçirilən videokonfrans başa çatıb.

# Milli Məclisin komitə iclasında 12 məsələyə baxılıb

**Mayın 5-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, gündəlikdəki məsələləri şərh edən komitə sədri Tahir Mirkişili sahibkarlıq subyektlərinin inkişaf etdirilməsinin, prosedurların daha da şəffaflaşmasının Azərbaycanın iqtisadi qanunvericiliyində görülən işlərin əsas hədəflərindən olduğunu bildirib. Qeyd edib ki, "Dövlət satınalmaları haqqında" qanunda nəzərdə tutulan çoxsaylı dəyişikliklər də həmin məqsədə xidmət edir. Tahir Mirkişili dövlət satınalmaları ilə bağlı kifayət qədər müsbət və əhatəli yeni qanunun hazırlanma prosesində olduğunu açıqlayıb və onun qəbuluna qədər mövcud qanuna irəli sürülən dəyişiklərin hazırda aktual olan, xüsusən də sahibkarlıq subyektlərini narahat edən bir çox məsələləri tənzimləyəcəyini deyib.

İclasda Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi vəzifəsini icra edən Sahib Məmmədov bildirib ki, "Dövlət satınalmaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi Azərbaycan Prezidentinin dövlət satınalmalarında şəffaflığın və səmərəliliyinin təmin edilməsinə dair tapşırıqlarının icrası, bu sahədə ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinin daha da yaxşılaşdırılması məqsədilə hazırlanıb. O, qanun layihəsində nəzərdə tutulan elektron satınalmanın əhatə dairəsinin genişləndirilməsi, dövlət satınalmalarında sahibkarların iştirakı üçün geniş imkanların yaradılması, prosedurların və şikayət mexanizminin təkmilləşdirilməsi, məsuliyyət tədbirlərinin müəyyən edilməsi kimi məsələlər barədə məlumat verib.

Müzakirədə çıxış edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli, deputatlar Vüqar Bayramov, Rüfət Quliyev, Aydın Hüseynov, Mahir Abbaszadə, İqbal Məmmədov, Məşhur Məmmədov, Elnur Allahverdiyev dövlət satınalmalarında şəffaflığın, sağlam rəqabətin və səmərəliliyin artırılması, sui-istifadə hallarının aradan qaldırılması, ictimai nəzarətin gücləndirilməsi ilə bağlı fikirlərini səsləndiriblər, təkliflərini bildiriblər.

Komitədə "Dövlət satınalmaları haqqında" qanunda dəyişiklik edilməsi və bu dəyişikliklərdən irəli gələrək, həm də İnzibati Xətalar Məcəlləsində dəyişiklik olunması haqqında qanun layihələri birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilib.

Sonra iclasda Mülki Məcəllədə və "Sığorta fəaliyyəti haqqında", "Tibbi sığorta haqqında" qanunlarda, Torpaq Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, həmçinin "Antiinhisar fəaliyyəti haqqında", "Enerji resurslarından istifadə haqqında", "Yerin təki haqqında", "Qaz təchizatı haqqında", "Energetika haqqında", "Lisenziyalar və icazələr haqqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrinə baxılıb.

Deputatlara məlumat verilib ki, Vergi Məcəlləsində, "Lisenziyalar və icazələr haqqında" və "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi Azərbaycan Prezidentinin Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"nin icrası, eləcə də sığorta fəaliyyətini tənzimləməsi və ona nəzarət mexanizminin təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

İclasda "Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə"nin və "Dənizçinin şəxsiyyət sənədinin spesifikasiyası, təsviri və nümunəsi"nin təsdiq olunması barədə" Azərbaycan Respublikasının 2008-ci il 1 fevral tarixli Qanununda dəyişiklik edilməsi haqqında qanun layihəsi və uyğunlaşdırma xarakteri daşıyan "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi, həmçinin "Ələt azad iqtisadi zonası haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda Milli Məclisin müzakirəsinə tövsiyə edilib.

Sonra komitədə Milli Məclis tərəfindən hazırlanan, mahiyyətcə bir-birinə yaxın olan Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında və "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Daşınmaz əmlakın dövlət reyestri haqında" və "İpoteka haqqında" qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihələri nəzərdən keçirilib, Əmək Məcəlləsində və Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə baxılıb.

İclasda deputatlar Məzahir Əfəndiyev, Anar Məmmədov, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Dövlət satınalmaları şöbəsinin müdiri Əhməd Həsənov və digər rəsmi şəxslər iştirak ediblər. Fikir mübadiləsini İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili yekunlaşdırıb.

Komitədə baxılan 12 məsələnin hamısı parlamentin plenar iclasında müzakirəyə tövsiyə olunub.

1923 *Azərbaycanın özü qədər əbədi* 2021

# Prezident İlham Əliyevin qazandığı möhtəşəm Zəfər Ulu Öndərin Qarabağ strategiyasının tam qələbəsidir

## Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi, general-polkovnik Ramil USUBOV:

## “Müzəffər Ali Baş Komandanın yaratdığı yeni reallıq Qafqazda etibarlı təhlükəsizlik, dayanıqlı inkişaf və səmərəli əməkdaşlıq sistemini formalaşdırır”

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 98-ci ildönümü tariximizin ən əlamətdar salnaməsinin yazıldığı möhtəşəm dövrə təsadüf edir. Bu il vətəndaşlarımız Ulu Öndərin xatirəsini böyük Zəfərin təəssüratı altında minnətdarlıqla anır və qələbəni həm də Heydər Əliyevin müqəddəs vəsiyyətinin həyata keçməsi kimi qəbul edirlər.

Həmsöhbətimiz **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi, general-polkovnik Ramil USUBOV** da tarixi Zəfəri Ulu Öndərin ideyalarının təntənəsi və Prezident İlham Əliyevin qüdrətli Sərkərdəlik məharətinin real nəticəsi kimi qiymətləndirir.



**- Ramil müəllim, Ulu Öndərin doğum gününü xalqımız böyük Zəfərin təəssüratları altında keçirir. Bu tarixi Qələbəni də ictimaiyyət elə birbaşa Heydər Əliyevə, onun ideyalarına bağlayır…**

- Əslində, bu prosesə ən doğru qiyməti, rəyi məhz tarixi Zəfərin müəllifi olan Müzəffər Ali Baş Komandamız cənab İlham Əliyev verib. Onun dediyi kimi, Vətən savaşında əldə edilən qələbə Ulu Öndər Heydər Əliyevin ideyalarının tam həyata keçməsinin məntiqi nəticəsidir.

Qarabağın tək coğrafi deyil, həm də mənəvi-siyasi yüksəkliyi olan, Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşanın azad olunmasını xalqa bəyan edərkən də möhtərəm dövlət başçısı bu qələbəni Ümummilli Liderin vəsiyyətinin həyata keçməsi kimi dəyərləndirdi. Həm də qələbə müjdəsini Mehriban xanım Əliyeva ilə birgə Ulu Öndərin məzarını ziyarət edərək bütün dünyaya çatdırdı. Cənab İlham Əliyevin Sərkərdəliyi ilə qazanılan Böyük Zəfər həqiqətən də Heydər Əliyev ideallarının təntənəsi, daha bir taleyüklü arzusunun gerçəkləşməsidir.

Tarixi Zəfər onu öyrənən, tədqiq edən mərkəzlərdə tam miqyası, mahiyyəti ilə hələ ki, müfəssəl öyrənilməyib, araşdırılmayıb. Bugünkü ictimai dəyərləndirmələr, hərbi, siyasi, elmi qiymətləndirmələr tam əhatəli, yetərli deyil.

Yəni yeni reallıq yalnız Prezident İlham Əliyevin 30 illik Qarabağ savaşını, tarixi iki əsrə gedib çıxan münaqişəni Azərbaycanın Zəfəri ilə bitirməsiylə məhdudlaşmır. Əsl qələbə, əsl reallıq Müzəffər Ali Baş Komandanın sərkərdəlik qüdrəti ilə yanaşı, yüksək siyasi və diplomatik məharəti nəticəsində əldə olunan yeni imkanlar, yaradılan yeni təhlükəsizlik mühiti, Azərbaycanın müqəddəratını uzun illər boyu təmin edəcək yeni iqtisadi-siyasi vasitələr, mənbələrdir.

Əsrlərboyu Azərbaycanın maraqlarına zidd davam edən münaqişəni dövlət başçımız elə qeyri-adi dahiliklə yekunlaşdırdı ki, bundan sonrakı dövrdə Qafqazda artıq sülh, sabitlik, inkişaf bərqərar olacaq. Möhtərəm Prezidentimizin yaratdığı yeni reallıq daim yeni töhfələr verəcək, gələcək nəsillərimiz üçün dövlətçiliyin gücünü təmin edən əsas faktora çevriləcəkdir.

Bugünkü tarixi Zəfər əbədiyaşar liderimiz Heydər Əliyevin hələ yarım əsr öncədən başlayaraq qurub-yaratdığı möhkəm təmələ əsaslanan strateji planların yeni təntənəsi, məntiqi nəticəsidir.

Bu barədə vətəndaşlarımızın, əsasən, məlumatı var. Mən, sadəcə, ən mühüm məqamlara toxunacağam. Məsələn, bu günlərdə ölkə Prezidentinin müvafiq sərəncamı ilə 50 illik yubileyi qeyd olunan Cəmşid Naxçıvanski adına liseyin yaradılması ilə Ulu Öndər azərbaycanlıların hərbi sahədə ixtisaslaşmasını sistemləşdirdi.

Çar dövründən sovetlərədək yetərincə azərbaycanlı generallar, sərkərdələr olmuşdur. Ancaq istisnasız olaraq, onların hər biri məhz öz imkanları, səyləri ilə Azərbaycandan kənarda hərbi məktəblərə daxil olmuş, öz fədakarlıqları sayəsində peşəkarlaşmışdılar. O vaxtadək dövlət səviyyəsində azərbaycanlıları sistemli şəkildə hərbi sahəyə yönəldən imkan yox idi. Bu imkanı məhz Ulu Öndər böyük vətənpərvərliyi, həm də misilsiz strateji düşüncəsi ilə formalaşdırdı.

Sonradan digər hərbi məktəblər yaradılmaqla yanaşı, Heydər Əliyev azərbaycanlı gənclərin ittifaqın ən nüfuzlu hərbi akademiyalarında təyyarəçilikdən xəritəçəkməyə, qərargah idarəçiliyindən hərbi kəşfiyyata, tankçılıqdan artilleriyaya və digər hərbi istiqamətlərə qədər ən peşəkar səviyyədə ixtisaslaşmasını təmin etdi və məhz onlar-yeni nəsil azərbaycanlı hərbçilər müstəqillik dövründə Silahlı Qüvvələrimizin əsas özəyini təşkil etdilər, Birinci Qarabağ savaşı ilə yanaşı, Vətən müharibəsində də böyük şücaət göstərdilər.

Ulu Öndərin 70-ci illərdə həyata keçirməyə başladığı yeni Qarabağ siyasəti, Qarabağ strategiyası onun titanik fəaliyyətinin başlıca istiqamətlərindən biri idi.

**- Həmin dövrdə Qarabağda yaşayan və daxili işlər orqanlarında çalışan şəxs kimi Qarabağ strategiyasının əsas özəlliklərini necə izah edə bilərsiniz?**

- Bu, Ulu Öndərin Dağlıq Qarabağda Azərbaycanın milli maraqları naminə apardığı xilaskarlıq missiyası idi. Heydər Əliyevin Qarabağ strategiyasının əsl məğzini elə ilk dövrlərdən bütün Qarabağ sakinləri - azərbaycanlılarla yanaşı, ermənilər də aydın gördü.

Bir haşiyəyə çıxmaq istərdim. Ulu Öndər o vaxtadək çalışdığı dövlət orqanlarında Qarabağ münaqişəsinin əsl tarixi mahiyyətini öyrənmişdi. Ancaq ən əsası Heydər Əliyev Qarabağ mövzusunun süni şəkildə alovlanmasının əsas meyarı olan erməni millətçiliyinin kökünü və potensialını, onların xislətini ölkədə hamıdan yaxşı bilirdi. Şübhəsiz ki, burada onun hələ uşaqkən yaşadığı hadisələr də xüsusi rol oynamışdı.

Hələ DTK-da rəhbər vəzifələrdə çalışarkən o bölgədə daha da güclənən erməni şovinizminə, millətçi meyillərə qarşı mübarizə aparırdı. Ancaq ölkə rəhbəri olarkən bu prosesi daha düzgün strateji hədəflər və dəqiq taktiki həmlələrlə həyata keçirməyə başladı. Moskvadakı havadarlarının dəstəyinə baxmayaraq, vilayətin şovinist ünsürləri, o cümlədən rəhbər heyət adminstrativ postlardan kənarlaşdırıldı, Azərbaycanın mütləq siyasi-inzibati iradəsi ilə hesablaşan erməni kadrlar irəli çəkildi. Bununla bərabər, bölgənin dövlət qurumlarında, hüquq mühafizə və təhlükəsizlik orqanlarında azərbaycanlıların təmsil olunması xeyli artdı. Dağlıq Qarabağ tam olaraq respublikanın mərkəzi hakimiyyətinin təsir dairəsinə qaytarıldı. Vilayətdə yaşayanların demoqrafik tərkibində azərbaycanlıların artımı dinamik hal aldı, bölgənin sosial-iqtisadi inkişafı, abadlıq-quruculuq prosesi intensivləşdi, mühüm sosial infrastrukturlar yaradıldı və davamlı təkmilləşdirildi. Xankəndini respublikanın paytaxtı ilə birləşdirən dəmir yolu xəttini çəkdirməklə Heydər Əliyev Dağlıq Qarabağın Azərbaycanın digər regionları ilə bağlılığını yaratdı və onu daim möhkəmləndirdi.

**- Prezident İlham Əliyev də Şuşaya son səfərlərində Ulu Öndərin Qarabağda yaratdığı milli mühit, qoruduğu mənəvi irs barədə həssaslıqla danışdı. Bu sahədə hansı işlər görülürdü?**

- Bəli, çünki proseslər onun gözləri qarşısında cərəyan edib, əksər hadisələrin canlı şahidi olub. Artıq gənc yaşlarında Ulu Öndərin Qarabağa, o cümlədən Şuşaya səfərlərini müşayiət edib, Qarabağ strategiyasından ən xırda elementlərinə qədər xəbərdardır. Möhtərəm Prezidentimiz üçün Şuşanın küçələri, məhəllələri, Vaqifin, Natəvanın və digər görkəmli şəxslərin məqbərələri, abidələri adi tarixi məkanlar deyil. O, bunları 70-80-ci illərdə Ulu Öndərlə birgə səfərlərində görüb, çoxunun açılışında iştirak edib, hər biri ilə bağlı təəssüratı var. Son aylarda qısa müddət ərzində Şuşaya iki dəfə səfər etməsi, buradakı quruculuq işləri ilə xırda detalına qədər maraqlanması və prosesi özü ilə yanaşı, həm də möhtərəm Mehriban xanım Əliyevanın şəxsi nəzarətinə verməsi təsadüfi deyil.

Sualınıza gəlincə, 50 il öncə də bütün Qarabağda milli-mənəvi dəyərlərin qorunması və daha geniş təbliği üçün Ulu Öndər xüsusi səy göstərirdi. Yeni mədəniyyət ocaqları ilə yanaşı, çoxsaylı məktəblər açılırdı. Azərbaycanlı müəllim kadrları ehtiyacını ödəmək üçün Xankəndidə yaradılan Pedaqoji İnstitut həm də Qarabağın milli ziyalı mühitinin yeni nəslinin formalaşdırılmasına təkan verdi.

Şuşada kurort kompleksinin inkişaf etdirilməsi və azərbaycanlı əhalinin kompakt yaşadığı bu şəhərin bölgənin mədəni, siyasi mərkəzinə çevrilməsi prosesi məhz Ulu Öndərimizin xeyir-duası ilə həyata keçirilirdi. Onun bölgəyə hər səfəri vətəndaşlarda böyük sevinc və qeyri-adi coşqu ilə qarşılanırdı.

Necə ki bu gün Müzəffər Ali Baş Komandan onilliklərdən sonra Qarabağı Azərbaycanın suveren hüquqları çərçivəsinə qaytardı, eləcə də Heydər Əliyev 70-80-ci illərdə artıq itirilməkdə olan Dağlıq Qarabağı Azərbaycana qaytarmışdı.

**- Heydər Əliyevin birinci hakimiyyəti dövründə Qarabağın iqtisadi, sosial, mədəni mənzərəsinin müsbətə doğru dəyişdiyini faktlarla söylədiniz. İndi isə Qarabağ ərazisində heç nə qalmayıb. Prezidentin təbirincə desək, sanki buradan vəhşi bir qəbilə keçib. Sizcə, bölgənin dirçəlişi, quruculuğu necə həyata keçəcək?**

- Birmənalı olaraq, ən yüksək səviyyədə. Əgər Qarabağın dirçəlişini möhtərəm Prezidentimiz özünün fəaliyyət prioriteti elan edərək, prosesi birbaşa nəzarətinə götürübsə, əvvəlki işlərdə olduğu kimi, burada da ən uğurlu nəticələr əldə olunacaq.

Cənab İlham Əliyevin “Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm” sözlərinin tam mənası ilə əmələ çevrildiyini onun ötən 18 ildə həyata keçirdiyi möhtəşəm dövləti fəaliyyətin, xüsusilə də Vətən savaşının timsalında hər kəs görür. Prezidentimizin “Qarabağı Azərbaycanın cənnətinə çevirəcəyik” qərarının da qısa müddətdə reallaşacağına inanırıq.

Ali Baş Komandanın Qarabağ bölgəsinə davamlı səfərləri bu prosesdə mühüm yer tutur. Möhtərəm Prezident indiyədək Şuşa, Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın, Xocavənd rayonlarına dəfələrlə səfərlər edib. Azad edilmiş ərazilərin vəziyyəti ilə tanış olub, eyni zamanda yaradılmaqda olan infrastrukturların təməlini qoyub.

Bu səfərlərin real nəticələri var. İndi azad edilmiş bölgələrdəki hər bir şəhər və rayon üzrə layihələndirmə işləri gedir. Mühüm sahələr üzrə infrastruktur quruculuğuna, su, elektrik, qaz xətlərinin, yolların tikintisinə başlanılıb. Hava limanlarının və dəmir yolu xəttinin inşası davam edir, ərazilərin minalardan təmizlənilməsi işləri intensiv aparılır. Şuşaya doğru çəkilən “Zəfər” yolunda artıq ciddi irəliləyişlər var.

Bütün bu işlərin mərkəzləşdirilmiş şəkildə koordinasiya edilməsi və ərazidə xüsusi idarəçilik modelinin yaradılması sayəsində prosesin şəffaf və səmərəli həyata keçirilməsi təmin olunacaq. Bu bölgənin yenidən qurulması, iqtisadi potensialının bərpası Qarabağı yüksək rifaha malik regiona çevirəcək və Azərbaycanın iqtisadi inkişafına əsaslı töhfələrlə nəticələnəcək.

Xalqımız əmindir ki, tezliklə Qarabağda həyat yenidən canlanacaq, vaxtilə Heydər Əliyevin gülüstana çevirdiyi, qurub-yaratdığı Qarabağa möhtərəm dövlət rəhbərimiz yeni həyat bəxş edəcək, onu yenidən inkişafa, rifaha qovuşduracaq. Regionda sabitliyin, əmin-amanlığın təmini, iqtisadi potensialın artması isə, eyni zamanda məhz Ali Baş Komandanın yaratdığı yeni reallıqlardan irəli gələn təhlükəsizlik amilinə çevriləcəkdir.

**- Həqiqətən də, biz indi azad edilmiş bölgələrdən danışarkən, daha çox sosial-iqtisadi mövzulardan bəhs edirik. Ancaq onu da nəzərə alırıq ki, savaşda məğlub olan dövlətdə hərbi revanş ritorikası hələ azalmayıb. Təhlükəsizliyimizə indi hansısa təhdid varmı?**

- Əslində, sizin toxunduğunuz məsələni - məğlub Ermənistanın siyasi dairələrinin, həm hakimiyyət, həm də müxalifəti təmsil edən keçmiş hərbi xunta təmsilçilərinin qisas yönümlü bəyanatlarını o qədər də ciddiyə almıram. Bu, sadəcə, cəfəngiyyatdır, növbəti əhəmiyyətsiz sərsəmləmədir, populizmdir. Müharibə müzəffər Ali Baş Komandanımızın sarsılmaz qüdrəti, Silahlı Qüvvələrimizin şücayəti və qəhrəmanlığı sayəsində düşmən üzərində tam qələbə ilə başa çatıb. Bütün dünya da möhtərəm Prezidentimizin yaratdığı yeni hərbi, siyasi, coğrafi reallığı qəbul edir, onunla hesablaşır. Qatı millətçi siyasi qüvvələrin primitiv revanşist bəyanatları isə daha çox daxili auiditoriyaya ünvanlanıb. Artıq erməni xalqının əksəriyyəti belə bu absurd rəylərə inanmır. Savaşın ən real nəticələrindən, ibrət dərslərindən biri də budur.

Ali Baş Komandan bu günlərdə verdiyi müsahibəsində də xüsusi vurğuladı ki, Azərbaycan tarixi missiyasını uğurla icra edərək dünyanın ən qəddar faşizmi olan erməni faşizmini məhv edib. Əgər bu dövlət və havadarları yenidən erməni faşizminin baş qaldırmasına cəhd etsələr, dərhal məhv ediləcəklər. Prezident İlham Əliyevin bu məsələyə açıqladığı konkret münasibət belədir ki, ümumiyyətlə, Ermənistanın bir daha təhdidə çevrilməməsi üçün hərbi və siyasi resurslarını bərpa etməsinə qətiyyən imkan verilməyəcək.

Təhlükəsizliyə təhdiddən danışırıqsa, bir məsələni də unutmayaq. İstisnasız olaraq, bütün dövlətlər və xalqlar hansısa təhdiddən sığortalanmayıb, o cümlədən də Azərbaycan. Yəni qlobal terrorizmin hər gün daha da genişləndiyi, yeni münaqişə ocaqlarının davamlı artması, müharibə qurbanlarının sayının yüksəlməsi fonunda bütün dünya üçün real və böyük təhdidlər var.

Azərbaycan dövlətinin də fəaliyyətində üstünlük verdiyi başlıca istiqamətlərdən biri məhz bu təhdidlərə qarşı birgə mübarizənin təşkilidir. Elə Vətən savaşının da əsl mahiyyəti Azərbaycanla yanaşı, bütün Qafqazı təhdid edən, Avrasiya məkanının sağlam və sabit inkişafına mane olan işğalçı aqressiv separatizmi, terrorizmi məhv etmək idi.

**- Deməli, Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan tarixi Zəfər yalnız Azərbaycan miqyasında deyil, daha qlobal platformada əlahiddə əhəmiyyət daşıyır…**

- Bəli, Azərbaycan dövləti, onun Prezidenti - Ali Baş Komandanı bütün dünyanı təhdid edən bəlanı məhv etdi.

Yeri gəlmişkən, bir məqama toxunum. Azərbaycan daim qlobal təhlükəsizliyə təhdid yaradan səbəblərə qarşı mübarizənin ön cərgəsində olub. Ulu Öndər Heydər Əliyev ABŞ-da baş verən və dünya siyasi tarixində böyük dəyişikliklərə səbəb olan 11 sentyabr hadisələrindən dərhal sonra bu terrora sərt reaksiya verən və beynəlxalq terrorizmə qarşı birgə mübarizənin vacibliyini təklif edən ilk liderlərdən idi. Ümummilli Lider Azərbaycanın bu prosesdə xüsusi öncüllüyünü, müxtəlif münaqişə ocaqlarında sülhyaratma missiyalarında iştirakını təmin etdi və ölkəmizin mövqeyinin səmimiliyini dəfələrlə göstərdi. Cənab İlham Əliyev böyük diplomatik məharəti sayəsində 2000-ci illərin əvvəllərində AŞ PA-da Qarabağ bölgəsini nəzarətsiz zona, beynəlxalq qaçaqmalçılıq məkanı kimi tanıtdıran qətnamələri, həmçinin Azərbaycan Prezidenti kimi beynəlxalq təşkilatlarda erməni işğalçılığını ifşa edən sənədləri qəbul etdirməklə bütün dünyanın diqqətini qlobal terrorizmin tərkib hissəsi olan erməni işğalına yönəltdi.

Həm Ulu Öndər, həm də cənab İlham Əliyev onilliklər boyu bütün dünyaya bəyan etdilər ki, ayrı-ayrılıqda terrorizm, işğalçılıq faktı yoxdur və onların hamısı nəticə etibarilə bir-birilərinə vəhdətlə bağlı olur. Başqa sözlə, “məni təhdid edəni məhv etməliyik, sənə təhlükə yaradan gözləyə də bilər” məntiqi ilə problemi həll etmək mümkün deyil.

Vətən müharibəsi yalnız Müzəffər Ali Baş Komandanın dünya hərb tarixinə düşən və 5-ci nəsil yeni savaş modelini yaratmadı, həm də beynəlxalq təhlükəsizliyə təhdid yaradan total səbəblərə, təhdidlərə qarşı ən effektiv və sarsıdıcı zərbə vurmağın mükəmməl örnəyini formalaşdırdı.

**- Ramil müəllim, 10 noyabr Bəyanatının müddəalarının reallaşmasında hansısa gərginlik yoxdur ki?**

- Bütün proses nəyi, necə və nə vaxt edəcəyini dəqiq bilən Prezidentin nəzarəti altındadır. Demək, narahatçılığa əsas yoxdur.

Bəyanatın imzalanmasından artıq 6 ay ötür. Bütün prosesin mükəmməl getdiyini demək hələ tezdir. Prezidentimizin azad edilmiş ərazilərdəki davamlı təhlükəsizliyin təmini ilə bağlı müəyyənləşdirdiyi fəaliyyət strategiyasının icrasına məsul olan müvafiq dövlət strukturları uğurla işləyir. Sərhədlərin demarkasiyası və delimitasiyası yekunlaşır. Azərbaycan ərazidə dünyanın ən mükəmməl nümunələrindən olan hərbi infrastrukturunu, obyektlərini yaradır.

Azərbaycan, Rusiya, Türkiyə prezidentləri arasında bu məsələ ilə bağlı mövcud olan operativ və səmərəli əməkdaşlıq formatı Ağdamdakı monitorinq mərkəzinin fəaliyyətində də davam edir. Lakin görüləcək işlər çoxdur.

Vətəndaşlarımız, eləcə də bu vəziyyətə həssaslıqla yanaşan xarici ölkə ictimaiyyəti də tam əmin olsunlar ki, cənab İlham Əliyevin dəmir yumruğu, qətiyyəti bu prosesdə də özünü göstərir. Azərbaycanın milli maraqlarının bir zərrəsi də nə güzəştə gedilir, nə də gözardına qoyulur.

10 noyabr Bəyanatının 9 müddəası var. Azərbaycan imzasına, üzərinə götürdüyü bütün öhdəliklərə sadiqdir. Cənab Prezidentin daim toxunduğu bir məqam var-bu gün Azərbaycan Qafqazda sülhün təşəbbüskarı, təminatçısıdır. Biz öz ərazimizdə erməni millətindən olan vətəndaşlarımızın təhlükəsiz yaşayışını təmin etməyə hazır olduğumuz kimi, regionun maraqları naminə Ermənistan əhalisinin də rifahına töhfə verməyə hazırıq. Prezident İlham Əliyevin unikal liderlik keyfiyyətlərindən biri də məhz budur.

**- Sizcə, bu təşəbbüslər reallaşa biləcəkmi?**

- Nəzərə alın ki, mən azərbaycanlılarla ermənilərin kompakt yaşadığı Qarabağ bölgəsindənəm. Uzun illər burada daxili işlər orqanlarında məsul vəzifələrdə çalışdığımdan ermənilərin xarakterini, psixologiyasını, milli xüsusiyyətlərini öz təcrübəmdən bilirəm. Əlbəttə ki, heç vaxt bütün xalqı ittiham etmək düzgün və sağlam yanaşma deyil. Ancaq mən bir tarixi prosesi də unuda bilmirəm. Ötən əsrin 70-ci illərinədək Qarabağda erməni şovinizmi kəskin hal alanda bu xalqın mütləq əksəriyyəti məlum təsirə meyillənirdi. Ancaq indi doğum günü ərəfəsində xatirəsini böyük ehtiramla yad etdiyimiz Heydər Əliyevin Qarabağda yürütdüyü siyasətə bir müddətdən sonra elə ermənilər özləri dəstək olmağa başladılar. Ulu Öndərin apardığı köklü islahatlar yerli erməni əhalisinin əksəriyyəti tərəfindən rəğbətlə qarşılanırdı. Sadə ermənilər anlayırdılar ki, Azərbaycan rəhbərliyi ona başqaları kimi boş vədlər yox, real iş, çörək, sakit və təhlükəsiz həyat, firavan yaşayış verir.

1988-ci ildən erməni şovinistləri tərəfindən alovlandırılan separatizmdən erməni xalqı az zərər görmədi. Vətən müharibəsi nəticəsində isə o, əsrlərboyu inandırıldıgı boş xülyaların birdəfəlik dəfn olunduğuna əmin olmağa başladı. 30 ildən artıq davam edən müharibə erməni xalqına səfalət, kasıblıq, müstəqil dövlətçiliyi qazanmadan onu itirib “forposta” çevrilmək taleyi nəsib edib. Ən əsası, Ermənistan Qafqazın ən səmərəli nəqliyyat-tranzit dəhlizə çevrilmə şansını, büdcəsinə daxil olacaq milyardlarla dollar vəsaiti, iqtisadiyyatının güclənmə imkanını itirib və dalana dirənib.

Erməni xalqı anlayır ki, bu gün üzdə olan bütün qüvvələr, istər iqtidar, istərsə də müxalifət onun məğlubiyyətinin, səfalətinin, bütün sahələrdə baş qaldıran böhranın səbəbkarlarıdır və heç biri ona normal gələcək vəd etmir.

Cənab İlham Əliyevin isə erməni xalqına vəd etdiyi gələcək ən etibarlı seçimdir. Artıq erməni cəmiyyətində Azərbaycanın mövqeyilə, şərtləri ilə hesablaşmağa yönəlmiş çağırışlar artmaqdadır. Bu mövzuda danışmaq, müzakirə açmaq daha xəyanət hesab edilmir. Hesab edirəm ki, zaman keçdikcə erməni xalqı da Prezident İlham Əliyevin Qafqazda bərqərar etdiyi yeni sabitlik, inkişaf və təhlükəsizlik sisteminə daxil olacaq. Zəngəzur dəhlizi timsalında digər real imkanlardan bəhrələnməklə, nəhayət ki, normal dövlət, sağlam cəmiyyət quruculuğuna başlayacaq.

**- Ramil müəllim, Ulu Öndər Heydər Əliyev ideyalarının təntənəsi olan Zəfərin nəticəsi kimi möhtərəm Prezidentimizin yaratdığı yeni reallıqlardan da bəhs etdiniz. Bu reallıqların perspektivi necə olacaq?**

- Öncə bir məsələyə diqqət ayırmaq istərdim. Ulu Öndər üçün Qarabağ münaqişəsi bir nömrəli problem idi. Fəaliyyətinin əsas hissəsi məhz bu problemin həllinə yönəlmişdi. Təsadüfi deyil ki, münaqişənin həllini də möhtərəm Prezidentimizə ən mühüm vəsiyyəti kimi həvalə etmişdi.

Cənab İlham Əliyev ilk dəfə Prezident kimi and içərək vəzifəsinin səlahiyyətlərinə başladığı andan münaqişənin həllinə start verdi. Həm siyasi-diplomatik vasitələrlə, həm hüquqi əsaslarla, həm də Silahlı Qüvvələrimizi möhkəmləndirməklə. Nəticəsi də 44 günlük Vətən savaşı və bütün sahələr üzrə yeni reallıqlar oldu.

Savaşın hər anında xalqımızın böyük şücaəti, əsgər və zabitlərimizin qəhrəmanlığı, şəhidlərimizin müqəddəs qanı əks olunub. Cənab İlham Əliyevin böyük liderliyinin, misilsiz dövləti fəaliyyətinin nəticəsi olan bu Qələbə, eyni zamanda Ulu Öndərin işıqlı ideyalarının təntənəsi və şah əsəri olan tarixin ən qüdrətli Azərbaycanının, xalqımızın parlaq nailiyyəti, əsrlər sonra qazanılan, əsrlərboyu yaşayacaq tarixi reallıqdır.

Nə qədər ki Azərbaycanda Heydər Əliyev möhtəşəm siyasi kursu uğurla davam etdirilir, nə qədər ki cənab İlham Əliyev Azərbaycanı yeni və daha böyük hədəflərə doğru qətiyyətlə aparır, demək, xalqımız və dövlətimiz daha böyük zəfərlərə imza atacaqdır.

*Müsahibəni apardı:*
**İxtiyar HÜSEYNLİ,**
*“Azərbaycan”*

1923 *Azərbaycanın özü qədər əbədi* 2021

# Heydər Əliyevdən İlham Əliyevə...

## ...Nizami Gəncəvi ədəbi irsi



*Əvvəli 1-ci səh.*

Müxtəlif vaxtlarda dünya ədəbiyyatı klassiklərindən Dante, Şekspir, Puşkin, Balzak, Lev Tolstoy, Dostoyevski, Maksim Qorki və başqa bədii dühaların əsərlərindən məqamına görə gətirdiyi sitatlar Heydər Əliyevin ədəbiyyatı nə qədər yaxşı mütaliə etdiyini və ondan hansı səviyyədə yerli-yerində istifadə etmək bacarığını nümayiş etdirir. Azərbaycanda 1975-ci ilin oktyabr ayında keçirilmiş sovet ədəbiyyatı günlərindəki tarixi nitqində ayrı-ayrı müttəfiq respublikaların ədəbiyyatlarının ən tanınmış ədəbi şəxsiyyətlərinin adlarını çəkməsi də Ulu Öndərin ədəbiyyata dərindən bələd olmasının ən bariz təzahürüdür: "Taras Şevçenkonun və Şota Rustavelinin, Nizaminin və Yanka Kupalanın, Əlişir Nəvainin, Rudəkinin və Abayın, Məhdimqulunun və Yanis Raynisin, Dmitri Kantemirin və Toktoqul Satılqanovun, Kristofonas Donklaytusin və Eduard Viddesnin, Süleyman Stalskinin, Dmitri Qulianın və başqa sənətkarların təravətini itirməyən əsərləri dünyanın və həqiqətin... dərk dühasına xidmət edirdi".

Heydər Əliyev Azərbaycan ədəbiyyatına həyat, müdriklik və mübarizə məktəbi kimi baxmış, ədəbiyyat və incəsənət əsərlərimizdə xalq həyatının bütün dərinliklərinə və genişliyinə qədər əks olunmasına xüsusi diqqət yetirməyi zəruri saymışdır. Dahi şəxsiyyət bu fikirdə idi ki, "Azərbaycan ədəbiyyatı həmişə öz xalqının həyatının ön sıralarında irəliləmişdir. Bu ədəbiyyat xalqımızın qəhrəmanlıq tarixini əbədiləşdirib bizə çatdırmış, bizim qarşımızda bütün əzəməti ilə açmışdır".

Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan ədəbiyyatı klassiklərinin: Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Üzeyir bəy Hacıbəyli, Səməd Vurğun, Rəsul Rza, Mirzə İbrahimov, Nəriman Nərimanov, Süleyman Rəhimov, Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk və başqalarının xidmətlərini yüksək qiymətləndirmiş, onların ölkəmizdə və dünyada tanıdılması sahəsində dövlət səviyyəsində böyük tədbirlər həyata keçirmişdir.

Ulu Öndər Heydər Əliyevin ədəbiyyat siyasətində böyük Azərbaycan şairi Nizami Gəncəvinin həyatı və yaradıcılığının tədqiq və təbliğ olunması, dünya miqyasında tanıdılması məsələləri geniş yer tutmuşdur. Əvvəla, Heydər Əliyev siyasi fəaliyyətinin bütün mərhələlərində Nizami Gəncəvinin adının, ədəbi irsinin, ideallarının tədqiqi və təbliği işini diqqət mərkəzində saxlamışdır. O, Azərbaycana rəhbərliyinin hər iki dövründə və Siyasi Büronun üzvü kimi SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışarkən Nizami Gəncəvinin həyatı və yaradıcılığının dəyərləndirilməsi və təbliğ olunması məsələləri ilə ardıcıl şəkildə məşğul olmuşdur.

Belə ki, Azərbaycan Respublikasına birinci rəhbərliyi dövründə 6 yanvar 1979-cu il tarixdə "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" dövlət səviyyəsində xüsusi bir qərarı imzalaması dahi sənətkarın zəngin yaradıcılığının ölkədə və dünyada tanıdılmasında və irsinin sistemli şəkildə tədqiq edilməsində mühüm rol oynamışdır. 1981-ci ildə Nizami Gəncəvinin anadan olmasının 840 illik yubileyinin geniş miqyasda və yüksək səviyyədə təntənə ilə qeyd olunması keçmiş Sovet İttifaqına görkəmli ədəbi şəxsiyyətlərin yubileylərinin keçirilməsi üçün müəyyən edilmiş qaydaların sədlərini aşmış, ədəbiyyatın inkişafında Nizami Gəncəvi kimi böyük xidmətləri olmuş dahi sənətkarlara fərqli yanaşma ənənəsinin əsasını qoymuşdur. Belə ki, Nizami Gəncəviyə qədər SSRİ miqyasında böyük sənətkarların yalnız yuvarlaq rəqəmlərlə ifadə olunan yubileylərinin keçirilməsi ənənəsi mövcud idi. Sovet İttifaqında görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü ilə keçirilmiş Nizami Gəncəvinin 840 illik yubileyi yuvarlaq olmayan rəqəmlərlə ifadə olunan birinci və axırıncı rəsmi yubiley tədbiri olmuşdur. O zaman Sovet İttifaqı miqyasında və onun hüdudlarından kənarda da görkəmli dövlət xadimi kimi qəbul olunan Heydər Əliyev özünün xüsusi nüfuzundan və dəmir məntiqindən istifadə edərək Nizami Gəncəvinin 840 illik yubileyini keçirməyə nail ola bilmişdir. Sonralar məlum olmuşdur ki, Heydər Əliyev sovet dövlətinin yubiley keçirmək ənənəsini qıran bu addımın qarşısını almaq istəyən yuxarı rəsmi təbəqələrin yaratdıqları baryerləri də ağıllı yanaşmalar ilə aşıb keçmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyev 12 ildən sonra, 1993-cü ildə Nizami Gəncəvinin anadan olmasının 840 illik yubileyinin keçirilməsinin ibrətamiz tarixçəsini aşağıdakı kimi ictimaiyyətin diqqətinə çatdırmışdır: "Nizami Gəncəvinin 840 illiyini böyük bir yubiley kimi qeyd edəndə bizə çox yerdə irad tutdular ki, 840 il yuvarlaq tarix deyil. Ancaq biz sübut etdik ki, Nizami Gəncəvi elə bir şəxsiyyətdir ki, tarixdə, dünya mədəniyyətində elə bir iz qoyub getmişdir ki, onun yubileyi hər il keçirilə bilər".

Görkəmli dövlət xadimi Heydər Əliyev dahi Azərbaycan şairi Nizami Gəncəvinin 840 illik yubileyinin Azərbaycan miqyasında böyük təntənə ilə qeyd olunmasını təmin etməklə bərabər, Sovet İttifaqının paytaxtı Moskvada, ikinci mərkəzi sayılan Peterburqda, hətta Yuqoslaviyada da keçirilməsinə nail olmuşdur. Beləliklə, ilk və son dəfə SSRİ-nin sabit yubiley keçirmək ənənəsi dağıdılmış, Nizami Gəncəvi ilə bağlı Azərbaycanda, Sovet İttifaqında və Avropa ölkələrində növbədənkənar şəkildə əhəmiyyətli addımlar atılmışdır. Qeyd etmək lazımdır ki, Heydər Əliyev sovet rəhbərliyində də yuvarlaq, ənənəvi olmayan qeyri-adi dövlətçilik istedadına malik nadir dövlət xadimi idi. Bu, dahi siyasi şəxsiyyətin həyat və mübarizə yollarında bu cür hamar standart olmayan tarixlər, məsuliyyətli sınaqlar az olmamışdır. Heydər Əliyev böyük addımlarla irəliləyən Azərbaycanın timsalında dövlətin və cəmiyyətin yuvarlaq olmayan, özünəməxsus qeyri-standart üsullar və vasitələrlə irəli aparılmasının mümkünlüyünü isbat etmiş qüdrətli dövlət xadimidir.

Ulu Öndər Heydər Əliyev dövlətçilik fəaliyyətinin Siyasi Büro - SSRİ Nazirlər Soveti sədrinin birinci müavini mərhələsində də Sovet İttifaqının taleyüklü problemləri ilə məşğul olmasına baxmayaraq, önəm verdiyi çoxcəhətli Azərbaycan məsələləri içərisində Nizami Gəncəvi mövzusu da xüsusi yer almışdır. O, SSRİ-nin əsas rəhbərlərindən biri kimi artıq daha aydın surətdə görmək imkanına malik idi ki, ayrı-ayrı görkəmli şair və yazıçılar, o cümlədən də Nizami Gəncəvi nə üçün keçmiş Sovet ittifaqında və onun təsir dairəsində olan digər dünya ölkəsində layiq olduqları yeri tuta bilmirlər. Ona bəlli olmuşdu ki, Nizami Gəncəvi "Xəmsə"sinin rus dilində mükəmməl tərcümələrinin və nəşrlərinin olmaması, xüsusən, dahi şairin ölməz əsərlərinin nəfis Moskva nəşrləri vasitəsilə Rusiyada və rusdilli beynəlxalq məkanda Çində, Şərqi Avropa ölkələrində yayılmaması onun dünya miqyasında layiq olduğu yeri tutmasına və haqq etdiyi şöhrəti qazanmasına mane olur. Ona görə də SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Siyasi Büronun üzvü Heydər Əliyevin dahi Azərbaycan şairi Nizami Gəncəvinin ədəbi irsinin Moskvada yüksək poliqrafik səviyyədə kitab halında nəşri məsələsi ilə xüsusi məşğul olması bu böyük dühanın böyük Azərbaycan sevdasının və Nizami Gəncəvi irsinin dünya ədəbiyyatı miqyasına çıxarmaq arzusunun ifadəsi idi. Çox sonralar Ulu Öndər Kremldən istefa verərək Azərbaycana qayıtdıqdan sonra Moskvada yaşayıb-çalışdığı dövrdə dahi şairin əsərlərinin rus dilində nəşr olunması ilə əlaqədar baş vermiş hadisələri aşağıdakı kimi yada salmışdır: "Azərbaycanda 1948-ci ildən sonra dahi şairimizin əsərləri lazımi səviyyədə çap olunmamışdır. Nizami Gəncəvinin əsərlərinin Moskvada, rus dilində çap olunması barəsində qərar qəbul edilmişdi. Lakin sonra öyrəndik ki, "Xudojestvennaya literatura" nəşriyyatında bu əsərlər çap olunmamışdır. Böyük bir nailiyyət kimi yox, sadəcə olaraq xalqımıza xidmət kimi deyə bilərəm ki, Moskvada işlədiyim dövrdə Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan əsərlərin rus dilində ayrı-ayrılıqda nəşr olunmasına nəzarət etdim... Nizaminin əsərlərini böyük çətinliklə Moskvada nəşr etdirdik. Sonra mən Bakıya gələrkən Nizami muzeyinə getdim və gördüm ki, şairin beş əsərinin hamısı orada nümayiş etdirilir".

Oxuculara məlumat üçün bildirmək istəyirik ki, görkəmli dövlət xadimi Heydər Əliyevin haqqında bəhs etdiyi Nizami Gəncəvinin əsərlərinin 5 cildlik nəşri böyük Azərbaycan şairinin Rusiyada çap olunmuş birinci çoxcildlik kitabı idi. Müxtəlif vaxtlarda lirikası və poemaları ayrı-ayrılıqda və fərqli nəşriyyatlarda kitab halında çap olunsa da, Nizami Gəncəvinin əsərlərinin tam külliyyatı çoxcildlik nəşr səviyyəsində ilk dəfə Ulu Öndərin haqqında söz açdığı 1985-1986-cı illərdə Moskvanın "Xudojestvennaya literatura" nəşriyyatında hər biri ayrı kitab kimi çap edilmiş kitablar dəsti olmuşdur. Aydınlıq üçün deyək ki, Nizami Gəncəvinin 800 illik yubileyi ərəfəsində, 1946-cı ildə şairin əsərləri "Beş poema" adı ilə akademik Y.Bertels və V.Qoltsevanın tərtibi, P.Antokolski, V.Derjavin, Y.Keyxaruzun tərcüməsində Moskvada dövlət nəşriyyatında müəyyən ixtisarla 642 səhifəlik kitab halında çap olunmuşdur. Heydər Əliyevin nəzarəti ilə 1985-1986-cı illlərdə çap olunan nəşrdə isə redaksiya heyətində Mirzə İbrahimov, Məmməd Cəfər Cəfərov və Rüstəm Əliyevin olduğu 5 kitabdan ibarət olan unikal kitablardan ibarətdir. Çap edildiyi vaxtdan 30 il keçməsinə baxmayaraq, indi də həmin çoxcildlik nəşr Nizami Gəncəvinin rus dilində çap olunmuş ən yaxşı külliyyatı olaraq qalır. Doğrudur, Heydər Əliyev Nizami Gəncəvinin əsərlərinin rus dilində daha mükəmməl tərcümələrinin olmasını arzu etmişdir ki, bu vacib işin və eyni zamanda böyük sənətkarın əsərlərinin ingilis dilində də tam külliyyatının hazırlanıb çap edilməsi indiki nəsillərin borcu və vəzifəsidir. Nizami Gəncəvinin dünya ədəbiyyatında yerini və mövqeyini daha da möhkəmlətmək üçün onun ölməz əsərləninin ən azı ingilis və rus dillərində mükəmməl tərcümələrinin yüksək poliqrafik səviyyədə nəşr edilməsinə nail olunmasına ehtiyac vardır.

Ulu Öndər Heydər Əliyev tərəfindən XX əsrin səksəninci illərində Moskvada rus dilində nəşr etdirdiyi "Xəmsə" indi də böyük Azərbaycan şairi Nizami Gəncəvini dünyaya təqdim edən ən mühüm nəşr olaraq qalmaqdadır.

Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyevin məruzələri, nitqləri və çıxışlarında Nizami Gəncəvinin zəngin işindən yaradıcılıqla istifadə etməyin əsl nümunəsini göstərmişdir. Ulu Öndərin hələ 1 noyabr 1969-cu ildə Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyində dövlət rəhbəri kimi ana dilində etdiyi ilk rəsmi məruzəsində xalqımızın böyük elm və ədəbiyyat xadimləri sırasında "mütəfəkkir şair Nizami Gəncəvinin" də adını xüsusi olaraq çəkməsi müasir tarixi şəraitdə də bu böyük söz və fikir korifeyinin nümunəsində yeni nəsillərin hazırlanıb yetişdirilməsini diqqət mərkəzinə çəkməsi demək idi. Bundan başqa, Heydər Əliyev 16 avqust 1972-ci il tarixində Moskvada nəşr olunan "Literaturnaya qazeta" da çap etdirdiyi SSRİ-də və dünya ölkələrində böyük əks-səda doğurmuş "Qoy ədalət zəfər çalsın!" adlı müsahibəsində də Nizami Gəncəvi irsindən bir neçə istiqamətdə yaradıcı şəkildə istifadə etmişdir. İlk növbədə Ulu Öndər XX əsrin yetmişinci illərində sovet cəmiyyətində ədalət məsələlərindən inamla danışmağının mahiyyətində məhz Azərbaycan xalqının bu sahədəki çoxəsrlik köklü ənənələrinə, o cümlədən Nizami Gəncəvinin ədalət konsepsiyasına istinad etdiyini nəzərə çarpdırmışdır. İkincisi, Ulu Öndər ədalət məsələsinə münasibətdə məntiqi mənada sovet yazıçılarının Nizami Gəncəvi irsindən yenidən və yaradıcı şəkildə istifadə etmələrini əhəmiyyətli saymışdır. Üçüncüsü və ən əsası isə Heydər Əliyev sovet ideologiyasını faktiki olaraq ciddi şəkildə təftiş edən məşhur "Qoy ədalət zəfər çalsın!" müsahibəsini Nizami Gəncəvinin əsərlərindən gətirdiyi seçilmiş ibrətamiz şeir parçaları ilə tamamlamaqla hazırkı şəraitdə də sovet dövlətinin əsas ideoloqlarının bu zəngin irsdən öyrənib nəticə çıxarması zərurətinə diqqəti yönəltmişdir. Həqiqətin "Qoy ədalət zəfər çalsın!" müsahibəsində ictimai ədalət məsələlərini siyasi-ideoloji proseslərlə əlaqəli şəkildə təqdim etməklə Heydər Əliyev bu sahədə dövləti daha da irəli aparmaq üçün müdrik qərarlar qəbul etməsi baxımından Nizami Gəncəvi irsindən öyrənməyin faydalı və əhəmiyyətli olduğunu nəzərə çarpdırmışdır. Bu cəhətdən Heydər Əliyevin öz müsahibəsində Nizami Gəncəvidən nümunə gətirdiyi bədii parçalar ictimai quruluşun xarakterindən asılı olmayaraq bütün dövrlər və zamanlar üçün əhəmiyyətli və aktual ola biləcək aşağıdakı hikmətli misralardan ibarət idi:

*Təmkinli ol, lovğalığı, sərvəti*
*At, yanıb tonqalda qoy külə dönsün!*
*Əgər istəyirsən ürəyin gülə,*
*Qoyma pis niyyətlər fikrinə gələ!*
*Nalayiq əməllər görsən harada,*
*Odlu nəfəsinlə yandır, məhv elə.*

Görkəmli dövlət xadimi Heydər Əliyevin dahi Azərbaycan şairi Nizami Gəncəvinin həyatı və yaradıcılığı ilə bağlı olan təşəbbüsü ilə 6 yanvar 1979-cu ildə "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, tədqiqini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" dövlət səviyyəsində qəbul edilmiş mühüm tarixi əhəmiyyətə malik olan qərar qüdrətli söz ustadına dünya elm, ədəbiyyat və ictimai fikrini əsaslı dəyişməsində xüsusi rol oynamışdır. Hesab edirik ki, bu qərar Nizami Gəncəvinin həyatı və yaradıcılığının tədqiqi və təbliğ olunmasına, əsərlərinin tərcümə və nəşr edilməsinə dair böyük dövlət proqramıdır. Bu, tarixi qərarı dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin həyatı və yaradıcılığı haqqında Heydər Əliyev proqramı da adlandırmaq olar.

Nizami Gəncəvinin 1947-ci ildə keçirilmiş 800 illik yubileyindən keçən 32 il ərzində böyük mütəfəkkir sənətkarın həyatı və yaradıcılığının tədqiq edilib öyrənilməsi, əsərlərinin tərcümə və nəşr edilməsi sahəsində böyük boşluq yaranmışdır. Azərbaycan elmi və ictimai fikrində yaranmış həmin boşluqdan istifadə edən digər ölkələrdə Nizami Gəncəviyə sahib çıxmaq, onun doğum yeri və nəsil şəcərəsinin yanlış istiqamətlərdə yozulmasında təbliğat işi genişləndirilmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında"kı qərarı, ilk növbədə, böyük sənətkarın Azərbaycan xalqına məxsus olmasının dövlət səviyyəsində bəyan edilməsi ilə Nizamiyə sahib çıxmaq arzusunda olanlara əsaslı bir cavab idi. İkincisi, Nizami Gəncəvi deklorasiyası şairin əsərlərinin fars dilindən yenidən, orijinala daha uyğun şəkildə sətri tərcümələrinin edilməsini qarşıya məsul bir vəzifə kimi qoymuşdur. Bu vacib məsələnin uğurlu şəkildə yerinə yetirilməsi üçün ölkəmizin ən tanınmış şərqşünasları: Mübariz Əlizadə, Rüstəm Əliyev, Həmid Məmmədzadə, Xəlil Yusifov, Zümrüd Quluzadə, Vaqif Aslanov və Qəzənfər Əliyevin orijinaldan Azərbaycan dilinə etdikləri sətri tərcümələr həm Nizami Gəncəvi haqqında daha dəqiq və əsaslı araşdırmalar aparmaq istəyən tədqiqatçılar, həm də şairin əsərlərinin yenidən bədii tərcümələrinin hazırlaması baxımından böyük əhəmiyyətə malik olmuşdur. Məlum dövlət qərarının işığında Nizami "Xəmsə"sinə daxil olan poemaların sətri tərcümələri kitab halında çap olunmuşdur. Həmin sətri tərcümələr əsasında Xalq şairi Xəlil Rza Ulutürk tərəfindən Nizami Gəncəvinin "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "İsgəndərnamə" poemalarının yeni poetik tərcümələri meydana qoyulmuşdur.

Nizami Gəncəvinin ədəbi irsinin tədqiqi sahəsində də yeni mərhələ bu dövrdən etibarən formalaşmağa başlamışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda 1981-ci ildə "Nizamişünaslıq" şöbəsinin yaradılması böyük sənətkarın həyatı və yaradıcılığının daha sistemli şəkildə öyrənilməsinə geniş meydan açmışdır. Görkəmli şərqşünas alim, filologiya elmləri doktoru, professor Rüstəm Əliyevin rəhbərlik etdiyi "Nizamişünaslıq" şöbəsi ölkə miqyasında Nizami tədqiqatlarının və tərcüməçilərinin əsas mərkəzinə çevrilmişdir. Nəticədə XX əsrin səksəninci illərində Azərbaycan Nizamişünaslığı özünün əsl inkişaf dövrünü yaşamışdır. Ölkəmizin tanınmış elm adamlarından Məmməd Cəfər Cəfərovun "Nizaminin fikir dünyası" (1982), Xəlil Yusifovun "Şərqdə intibah və Nizami Gəncəvi" (1982), Rüstəm Əliyevin "Nizami (Azərbaycan, rus və ingilis dillərində biblioqrafik məlumat (1983) və "Ölməz məhəbbət dastanı" (1984), Xəlil Hüseynovun "Nizaminin "Sirlər xəzinəsi" (1983), Çingiz Sasaninin "Nizaminin "Leyli və Məcnun" poeması (1985), Mehdi Kazımovun "Nizaminin "Yeddi gözəl" poeması və XIV-XV əsrlər farsdilli ədəbiyyatında nəzirə ənənəsi" (1987), Cahangir Qəhrəmanov və Kamil Allahyarovun "Nizami Gəncəvi əsərlərinin əlyazmaları dünya kitab xəzinələrində" (1987) kitabları, habelə dövrün yeni nəsil nizamişünasları Azadə Rüstəmova və Nüşabə Araslının ciddi tədqiqatları Nizamişünaslıq elminin bu mərhələsinin qiymətli elmi töhfələridir. Göründüyü kimi, Heydər Əliyevin Nizami Gəncəvi haqqındakı qərarından sonra qısa bir müddətdə Azərbaycanı da nizamişünaslıq elmi hərəkat şəklini almışdır.

XX əsrin yetmiş-səksəninci illərində görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi sayəsində, müdrik siyasətinin işığında Nizami Gəncəvinin adının əbədiləşdirilməsi istiqamətində də böyük işlər görülmüşdür. O zamanlar bolşeviklər tərəfindən Kirovabad adlandırılan şəhərdə Yeni Gəncə adlı mikrorayonun salınması bu şəhərin qədim adının unutdurulmaması və yenidən qaytarılması ideyasının gündəmə gətirilməsi baxımından zamanına görə kifayət qədər cəsarətli və uzaqgörən addım idi. Bakı metrosunun dayanacaqlarından birinə Nizami Gəncəvinin adının verilməsi və Xalq rəssamı Mikayıl Abdullayevin rəsmləri əsasında Nizami ornamentləri ilə bəzədilməsi dahi şairin doğma xalqı ilə qaynayıb-qarışmasını təmin etmək üçün düşünülmüş mühüm hadisədir. Nəhayət, 1982-ci ildə "Nizami" filminin çəkilməsi (musiqisi Qara Qarayev, ssenari müəllifləri İsa Hüseynov və Eldar Quliyev, rejissoru Eldar Quliyev) və dünyada məşhur olan böyük müğənni Müslüm Maqomayevin baş rolda oynaması da Heydər Əliyev epoxasının Nizami proqramının möhürlərindən biridir. Beləliklə, Nizami Gəncəvinin həyatı və yaradıcılığının öyrənilməsi, əsərlərinin tərcümə və nəşr olunması, ideallarının təbliği baxımından Ulu Öndər Heydər Əliyev böyük bir dövlət proqramını hazırlayıb həyata keçirmişdir. Nizami Gəncəvini Sovet İttifaqı miqyasında tanıtmaq və Azərbaycanda əsaslı şəkildə öyrədib təbliğ etmək, şairin adını əbədiləşdirmək kimi mühüm vəzifələrin uğurla həyata keçirilməsi Heydər Əliyev dövrünü Nizamişünaslığın xüsusi mərhələsi səviyyəsinə qaldırmışdır.

XXI əsrdə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin həyatının və ədəbi irsinin öyrənilməsi və təbliği istiqamətində yeni vəzifələr meydana çıxmışdır. Artıq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni tarixi mərhələdə Nizami Gəncəvinin dünyada Azərbaycan şairi kimi tanıdılması, həyat və sənət yolunun müstəqillik işığında yenidən və əsaslı şəkildə tədqiq və təbliğ olunması sahəsində genişmiqyaslı tədbirlər ardıcıl olaraq həyata keçirilməkdədir. Nizami Gəncəvinin tədqiqi və təbliğinin Heydər Əliyev epoxasındakı Sovet İttifaqı masştabı yeni dövrün reallıqlarına uyğun olaraq İlham Əliyev erasının beynəlxalq miqyası səviyyəsinə qaldırmışdır. Məhz Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasətin nəticəsində Nizami Gəncəvi ilə əlaqədar yeni bir era formalaşmışdır. Nizami Gəncəvinin adı və ədəbi irsi ilə bağlı son on illiklərdə həyata keçirilmiş bir çox tədbirlər Azərbaycanı müstəqillik tarixinin əlamətdar hadisələrinə çevrilmişdir.

Azərbaycanda böyük şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 870 illiyinin dövlət səviyyəsində qeyd edilməsi sənətkara bəslənilən ümumxalq məhəbbətinin əsl təntənəsi olmuşdur. Nizami Gəncəvini dünyada Azərbaycan şairi və mütəfəkkiri kimi tanıtmaq məqsədilə xarici ölkələrdə dahi sənətkarın heykəllərinin ucaldılması sözün əsl mənasında böyük ədəbi-tarixi hadisədir. Rusiyanın Moskva və Sankt-Peterburq şəhərlərində, Çin Xalq Respublikasının paytaxtı Pekində, İtaliyanın başkəndi Romada Nizami Gəncəviyə qoyulmuş heykəllər onu və mənsub olduğu xalqı dünyaya təqdim edən əhəmiyyətli memarlıq abidələridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə Nizami Gəncəvi medalının təsis edilməsi və həmin medalın azərbaycanşünaslıq sahəsində mühüm araşdırmalar aparan, ölkəmizlə əlaqələrin möhkəmləndirilməsinə xidmət edən tanınmış şəxslərə verilməsi dahi şairi dünyada tanıtmaq üçün dövlət əhəmiyyətli addımdır.

Mühüm ictimai-siyasi və elmi-mədəni tədbirlərin həyata keçməsinə meydan açan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi isə dünyanın tanınmış dövlət xadimləri və elm adamları ilə birlikdə böyük sənətkarın adını, irsini tanıtmaq və ideallarını qlobal miqyasda təbliğ etmək üçün təsis edilmiş ideal platformadır. Böyük Britaniyanın Oksford Universitetində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətə başlaması ölkəmizin alimləri ilə yanaşı, tanınmış dünya şərqşünaslarının da araşdırma və təbliğat proseslərinə cəlb edilməsinə şərait yaradır. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Nizamişünaslıq şöbəsinin otuz ildən sonra yenidən bərpa edilməsi, AMEA-nın Gəncə Bölməsinin tərkibində Nizami Gəncəvi Elmi Mərkəzinin yaradılması və fəaliyyətlərinin təşkili Nizamişünaslıq tədqiqatlarının ölkəmizin dövlətçilik maraqları, habelə azərbaycançılıq ideyaları ilə üzvü surətdə əlaqədə tədqiq edilməsinə xidmət göstərir. Bütün bunlar sözün əsl mənasında Nizami Gəncəvi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adı və fəaliyyəti ilə bağlı olan yeni mərhələnin tarixə çevrilmiş silinməz səhifələridir. Bunlar Prezident İlham Əliyevin rəhbərlik etdiyi və istiqamət verdiyi Nizami Gəncəvi Dövlət Proqramının müstəqillik dərsləri və əsərləridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsi haqqındakı 5 yanvar 2021-ci il tarixli sərəncamı ölkəmizdə və dünyada Nizami Gəncəvinin tərcümeyi-halının və zəngin ədəbi irsinin tədqiqi və təbliği işini daha yüksək səviyyəyə qaldırmaq üçün geniş perspektivlər açır. Prezident İlham Əliyevin imzaladığı mühüm tarixi əhəmiyyətə malik olan dövlət sərəncamında irəli sürüldüyü kimi, "bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifələr açmış, ...xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş... ...qüdrətli söz və fikir ustadının daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi" tədqiq və təbliğ edilməsi aid olduğu dövlət qurumlarının, elm, təhsil, ədəbiyyat və mədəniyyət adamlarının qarşısına daha mühüm vəzifələr qoyur. Prezident sərəncamının imzalandığı vaxtdan keçən müddət ərzində müxtəlif dövlət qurumlarının həyata keçirdikləri tədbirlər Nizami Gəncəvini xalqımıza və dünyaya yenidən tanıtmağa xidmət göstərir. Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda 2 cildlik "Nizami Gəncəvi ensiklopediyası"nın, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda dahi şairin ölməz "Xəmsə"sinin akademik nəşrinin hazırlanması istiqamətində başlanmış işlər "Nizami Gəncəvi ili" miqyasında gerçəkləşdiriləcək əhəmiyyətli elmi tədbirlərdir. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutunun birgə hazırladıqları "Qafqaz Renessansı: Nizami Gəncəvi və Şota Rustaveli" elmi layihəsi Nizamişünaslığı müasir dövrün çağırışları ilə zənginləşdirən sanballı tədqiqat işidir.

*Nizami Gəncəvinin nəsil şəcərəsi, Nizami Gəncəvi yaradıcılığında türkçülük və azərbaycançılıq, Nizami Gəncəvi və Azərbaycan Renessansı və sair kimi problemlər "Nizami Gəncəvi ili"nin elmi dövriyyəyə daxil etdiyi yeni mövzulardır. Azərbaycanın elm, ədəbiyyat və mədəniyyət xadimləri Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsini layiqli şəkildə təmin etmək üçün bütün qüvvə və bacarıqlarını sərf edəcəklər.*

**İsa HƏBİBBƏYLİ,**
***AMEA-nın vitse-prezidenti,***
***Milli Məclisin deputatı,***
***akademik***

**Müstəqilliyimizin ilk illərində kənar qüvvələrin və təcavüzkar güclərin bütün həmlələrinə baxmayaraq, gənc dövlətimiz ayaq üstə dura bildi. 1993-cü ildə xalqın istək və tələbi ilə Ulu Öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə gəlməsi Azərbaycanı ziddiyyətlər burulğanından xilas etdi. Bu qayıdışla ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun şəkildə müstəqil dövlət quruculuğu prosesi başlandı.**



# Heydər Əliyev milli sahibkarlıq strategiyasının banisidir

Dünyada gedən siyasi proseslərə peşəkar təsir imkanları olan Heydər Əliyev Azərbaycanda zamanla səsləşən yeni iqtisadi strategiyanın əsasını qoydu. Ölkədə qarşıdurmadan sülhə, böhrandan tərəqqiyə, ətalətdən dinamik fəaliyyətə istiqamətlənən kurs götürüldü.

Heydər Əliyev şəxsiyyətinin xalqımızın həyatında, müstəqil dövlətçilik tariximizdə misilsiz yeri və rolu haqqında bəhs edərkən Ümummilli Liderin siyasi fəaliyyətinin müxtəlif dövrlərinə nəzər salmaq lazımdır.

Gözlərimiz önündə şərəflə yaşanan ömrünün yaradıcılıq dövründə Azərbaycana rəhbərlik edən Ulu Öndər Heydər Əliyev bütövlükdə Azərbaycan ilə birlikdə həm də ölkəmizdə sahibkarlığın möhtəşəm memarı, yaradıcısı, qurucusu, dinamik inkişafın tənzimləyicisi kimi yaddaşlara əbədi həkk olunub. Ulu Öndərin adı xalqın simvoluna, əməlləri isə hünər rəmzinə çevrilmişdir, həyat və fəaliyyəti doğma xalqa və torpağa məhəbbət və sədaqət meyarı olmuşdur.

Dövlətçilik ənənələrinin və demokratik cəmiyyətin bərqərar olmasında şəxsiyyətin rolu böyükdür. Bütövlükdə bir sistem kimi yanaşıldıqda, cəmiyyətin digəri ilə əvəzlənməsi prosesi mürəkkəb və ziddiyyətli tərəfləri ilə seçilən sosial hadisədir.

Ümummilli Lider Heydər Əliyev özünün böyük həyat təcrübəsinə, nüfuzuna, iradəsinə, ən mürəkkəb situasiyalarda dəqiq qərarlar çıxarmaq bacarığına görə demokratik cəmiyyətə keçid mexanizmini müəyyənləşdirərək bu istiqamətdə ardıcıl və sistemli siyasət həyata keçirdi. Əslində, bu danılmaz həqiqət kiminsə istəyib-istəməməsindən, yaxud siyasi mənsubiyyətindən asılı deyil, Azərbaycan reallıqlarında gedən proseslərin məntiqindən irəli gəlir. Azərbaycanın ən yeni tarixinə nəzər salsaq bir daha aydın olar ki, onun hər bir məqamı Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti ilə qırılmaz şəkildə bağlıdır.

"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir!" - prinsipinə əsaslanan Ulu Öndərin fəaliyyətinin ən mühüm və strateji əhəmiyyət daşıyan istiqamətlərindən biri bazar münasibətlərinə keçidin tələblərinə uyğun iqtisadi siyasəti reallaşdırmaq, ölkə iqtisadiyyatını böhrandan qurtarıb dirçəliş, ardınca isə inkişaf yoluna çıxarmaq idi. Bu, Heydər Əliyevin yeni Azərbaycanın inkişaf modeli idi. Təsadüfi deyil ki, Azərbaycanın yeni neft strategiyası bu baxımdan atılmış ilk və həyati əhəmiyyətli addım olmuşdur.

Heydər Əliyevin tarixi nailiyyətlərindən biri də Azərbaycan dövləti və xalqı qarşısında duran strateji vəzifəni - bir ictimai-iqtisadi sistemdən digərinə, yəni iflasa uğramış sosializmdən bazar iqtisadiyyatı normalarına və çoxmülkiyyətçiliyə əsaslanan sistemə keçidi təmin etməsidir. Xüsusi mülkiyyətə geniş meydan açılması, sənaye və xidmət müəssisələrinin özəlləşdirilməsi, aqrar islahatlar, torpağın əvəzsiz olaraq kəndlilərə verilməsi və digər fundamental transformasiya proseslərini reallaşdırmaq kimi çətin vəzifələrin həlli Heydər Əliyevin adı ilə bağlıdır.

Onillik prezidentliyi dövründə Heydər Əliyev respublikada radikal islahatlar apardı və iqtisadiyyatı çökmüş ölkənin xarabalıqlarında dirçəltdiyi və inkişaf etdirdiyi qüdrətli dövləti millətinə bəxş etdi. Onun çoxşaxəli siyasəti ölkəyə tərəqqi və sabitlik gətirən dövlət strategiyasına çevrildi.

Azərbaycanda siyasi sabitlik yaratmaqla yanaşı, Heydər Əliyev ölkənin iqtisadi müstəqilliyinin də əsasını qoydu. O, bütün istehsal sahələrinin bərpası, habelə maliyyə vəziyyətinin yaxşılaşdırılması və xarici sərmayələrin cəlb olunması üzrə antiböhran proqramını işləyib hazırladı.

Azərbaycan neftinin dünyanın qabaqcıl neft şirkətləri ilə birlikdə hasil olunması və xarici bazarlara nəqli məqsədilə 1994-cü ildə Bakıda "Əsrin müqaviləsi" bağlandıqdan az sonra Xəzərin digər karbohidrogen yataqlarının işlənilməsi ilə əlaqədar 30-dan çox saziş imzalandı ki, bu da ölkəmizə böyük həcmdə xarici sərmayənin qoyuluşuna imkan yaratdı. Azərbaycanın dünya iqtisadi bazarına çıxışını təmin edən "Əsrin müqaviləsi"nin imzalanması həm də ölkə daxilində yeni istehsal sahələrinin artmasına, insanların həyat səviyyəsinin yaxşılaşdırılmasına şərait yaratdı.

Həyata keçirilən sistemli tədbirlər nəticəsində ölkəmizdə siyasi və makroiqtisadi sabitliyə nail olunmuş, iqtisadi inkişafın lokomotivi olan sahibkarlar sinfinin formalaşması üçün real hüquqi baza yaradılmış, dövlət tərəfindən özəl sektora hərtərəfli dəstək göstərilməsi tədbirlərinin həyata keçirilməsinə başlanmışdır.

Ulu Öndərin müəyyən etdiyi və onun rəhbərliyi ilə uğurla həyata keçirilən iqtisadi inkişafın əsasını təşkil edən sahibkarlığın inkişafı strategiyası özəl bölmənin inkişafına yönəlmiş tədbirlərin sistemliliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması, dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması ilə xarakterizə edilir. "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur", - deyən Heydər Əliyev ölkənin gələcək iqtisadi inkişafının məhz özəl sektorla bağlı olduğunu vurğulayırdı. Qəbul olunmuş dövlət proqramlarının bu sahənin inkişafında xüsusi rolu oldu, kiçik və orta sahibkarlığın inkişafını iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevirdi.

Bazar iqtisadiyyatı yolunu seçmiş istənilən dövlətin müstəqil yaşaması və inkişafı prosesində orta təbəqənin - iqtisadi inkişaf və sabitliyin təminatçısı sayılan sahibkarlar sinfinin rolu müstəsnadır. Bu reallığı böyük müdrikliklə nəzərə alan Heydər Əliyev milli iqtisadi inkişaf modelinin reallaşdırılmasında özəl sektorun həlledici rolunu daim önə çəkir, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışırdı. Ümummilli Liderin sahibkarlarla keçirilən görüşləri, üzləşdikləri problemlərin nədən ibarət olduğunu bilavasitə onların öz dilindən eşitməsi və bunların qısa müddət ərzində həlli üçün konkret tapşırıqlar, fərman və sərəncamlar verməsi özəl sektorun təmsilçilərinə yüksək diqqətin təzahürü idi. Təsadüfi deyil ki, Heydər Əliyevin rəhbərliyi dövründə iqtisadi sahələrin tənzimlənməsi ilə bağlı 70-dən artıq qanun qəbul edilmiş, 100-dən çox fərman və sərəncam imzalanmış, 30-a yaxın dövlət proqramı təsdiq edilmişdir.

Ulu Öndərin xalqımız və dövlətimiz qarşısında müstəsna xidmətlərindən biri də onun yolunu davam etdirməyə, ideyalarını daha da zənginləşdirib həyata keçirməyə qadir olan İlham Əliyev kimi yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar siyasi lider yetişdirməsidir. Heydər Əliyev inanırdı ki, İlham Əliyev xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcək, onun sona çatdıra bilmədiyi taleyüklü məsələləri, işləri başa çatdıra biləcək. Ulu Öndərin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 18 ildə respublikamız bütün sahələrdə özünün dinamik inkişafı ilə dünya birliyinin diqqət mərkəzində olmuşdur və bu şərəfli tarixin hər gün yeni, daha parlaq səhifələri yazılır. Bu illər ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmamışdır.

2003-cü ildən Heydər Əliyev siyasi və iqtisadi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev ötən dövr ərzində milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək ölkənin bütün potensialını, intellektual resurslarını, insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etmişdir.

Hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın hərtərəfli inkişafında yeni mərhələ yaşanır. Dövlət başçısının həyata keçirdiyi iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün problemlərin həllində iqtisadi aspektin mövcudluğunun ön plana çəkilməsidir. Dövlət proqramlarının, fərman və sərəncamların icrası ölkədə gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edir, tərəqqi prosesində özəl sektorun payını və rolunu artırmaqla, sahibkarlığın inkişafına güclü təkan verir.

Ölkənin iqtisadiyyatında sahibkarların artan rolunu, məşğulluğun təmin olunmasında sahibkarlığın inkişafının müstəsna əhəmiyyətini nəzərə alaraq, habelə cəmiyyətdə sahibkarlığa dəstək əhvali-ruhiyyəsinin artırılması məqsədi ilə Prezident İlham Əliyevin sərəncamına əsasən, aprelin 25-i Azərbaycanda "Sahibkarlar günü" kimi təsis edilmişdir.

Bu gün hər bir sahibkar dərk edir ki, qüdrətli və müasir Azərbaycanın qurulması üçün Prezident İlham Əliyevin liderliyi altında bizi hələ bir sıra mühüm vəzifələr gözləyir. Azərbaycan biznes mühitinin əlverişliliyi, sahibkarların rahat işləməsi üçün ən çox islahatlar aparan ölkələrdən biridir. Postneft iqtisadiyyatının qurulması, idxaldan asılılığın azaldılması, ölkənin ixrac potensialının yüksəldilməsi üçün rəqabətqabiliyyətli mal və məhsulların istehsal olunması məqsədilə hökumət sahibkarlar üçün böyük imkanlar yaradıb. Ölkədə qeyri-neft sektorunun, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində mühüm işlər görülür.

Dövlət başçısının rəhbərliyi ilə Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında öz layiqli yerini tutmuş, qəbul olunan dövlət proqramlarının icrası, həyata keçirilən kompleks islahatlar ölkəmizdə sabitliyi və davamlı inkişafı təmin etmişdir. Əhalinin həyat səviyyəsi yüksəlmiş, makroiqtisadi sabitlik qorunub saxlanılmış, regionların tarazlı inkişafına nail olunmuş, sahibkarlıq fəaliyyəti üçün geniş imkanlar açılmışdır.

Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş iqtisadi inkişaf strategiyası nəinki ölkəmizin inkişafında müstəsna rol oynayır, hətta bir model olaraq keçid iqtisadiyyatı ölkələrinin iqtisadi inkişafı baxımından nümunəyə çevrilməkdədir.

Məlum olduğu kimi, son ildə bütün bəşəriyyət görünməz bir "düşmən"ə - koronavirusa qarşı mübarizə aparır. Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün çevik və zəruri qabaqlayıcı addımlar atılmış, bu istiqamətdə ölkəmiz qlobal həmrəylik nümayiş etdirərək dünyada öz fəal rolunu oynamışdır. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin aprelin 10-da keçirilən Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü dövlət başçıları səviyyəsində koronavirus pandemiyasına həsr olunmuş ilk beynəlxalq tədbir kimi tarixə düşmüş və ölkəmiz pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilmişdir.

Keçən il mayın 4-də isə İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirilmişdir. Daha bir qlobal təşəbbüsünü reallaşdıran Prezident İlham Əliyev bu dəfə 120 üzv dövləti və 17 müşahidəçi ölkəni, eyni zamanda 10 müşahidəçi beynəlxalq təşkilatı birləşdirən Qoşulmama Hərəkatının Zirvə görüşündə koronavirus bəlasından çıxış yolunu göstərməklə yanaşı, bu istiqamətdə reallaşdırdığı proqramların effektiv nəticələrini də bölüşmüşdür. Zirvə görüşündən sonra 2022-ci ilədək Qoşulmama Hərəkatına rəhbərliyi Azərbaycan həyata keçirməklə bu dövrdə hərəkatın sədri Prezident İlham Əliyev olacaq.

Prezidentin təşəbbüsü ilə təsis edilmiş Azərbaycanda Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianələrin köçürülməsi və işçilərin ixtisar olunmaması ilə bağlı çağırışlara sahibkarlar da qoşularaq cəmiyyətdə yüksək həmrəylik nümayiş etdirmişlər.

2020-ci il Azərbaycan xalqı üçün çox əlamətdar olmuşdur. Bu gün nəinki milyonlarla azərbaycanlının, eləcə də bütün türk dünyasının görkəmli siyasi xadimi olan İlham Əliyev ötən 200 illik tariximizdə Azərbaycan torpaqlarını işğaldan azad edən ilk fateh dövlət başçısıdır. 44 günlük Vətən müharibəsində Prezident-Ordu-Xalq birliyi nəticəsində torpaqlarımız işğaldan azad olunmuş və Azərbaycanın ərazi bütövlüyü bərpa edilmişdir.

Əminik ki, birgə səylərimiz nəticəsində tez bir zamanda Qarabağımızı yenidən dirçəldəcək, insanların öz doğma yurdlarına dönməsinə nail olacağıq. Bu sahədə dövlətlə özəl sektor arasında dialoqun, əməkdaşlığın olması da xüsusi əhəmiyyət daşıyır. Azərbaycan Sahibkarlar Konfederasiyasının Rəyasət Heyətinin qərarı ilə Qarabağda iş qurmaq istəyən sahibkarların təkliflərini toplamaq məqsədilə işçi qrupu yaradılmış və sahibkarların təqdim etdiyi 68 təklif hökumətə təqdim edilmişdir. Bununla bağlı artıq bir çox layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Bunlar "Yeni memarlıq", "ağıllı" şəhər, "ağıllı" kənd, "Yeni iqtisadiyyat" və digər layihələrdir.

Heydər Əliyev irsinin uğurla davam etdirilməsində, qələbələr qazanmasında Mehriban xanım Əliyevanın da böyük fədakarlığı, layiqli xidmətləri vardır. Mehriban Əliyevanın dahi şəxsiyyətin adını daşıyan fondun rəhbəri kimi ölkə və dünya miqyasında həyata keçirdiyi mərhəmət aksiyaları, sosial layihələr Heydər Əliyevin əbədiyaşar ruhuna ən böyük ehtiram nümunələridir. Birinci vitse-prezident öz zəngin fəaliyyəti ilə təkcə ölkəmizdə deyil, bütün dünyada yüksək nüfuz, dərin ehtiram qazanmışdır.

Mehriban xanımın Birinci vitse-prezident kimi ölkə iqtisadiyyatının aktual problemlərinə olan həssas münasibəti Azərbaycan sahibkarları tərəfindən yüksək qiymətləndirilir.

Həyata keçirilən məqsədyönlü siyasət və struktur islahatları sayəsində əvvəlki illərdə olduğu kimi, 2020-ci ildə də ölkəmizdə makroiqtisadi sabitlik təmin edilmiş, iqtisadi artım prosesləri sürətlənmiş və iqtisadiyyatın dayanıqlı inkişafı yeni mərhələyə daxil olmuşdur. Sahibkarlığın inkişafı sahəsində həyata keçirilən sistemli tədbirlər nəticəsində 2020-ci ildə də nüfuzlu beynəlxalq qurumların reytinqlərində Azərbaycan iqtisadi göstəricilərinə görə ilk sıralarda yer almış, o cümlədən Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerdə qərarlaşmışdır. Həmçinin Dünya Bankı Azərbaycanı 10 ən islahatçı ölkə sırasına daxil etmişdir. Davos Ümumdünya İqtisadi Forumunun hesabatlarında da ölkəmiz bir sıra göstəricilər üzrə qabaqcıl yerlərdədir. Bundan əlavə, Heritic Fondunun 2020-ci ilin nəticələrinə əsasən, elan etdiyi İqtisadi Azadlıq İndeksinə görə Azərbaycan 38-ci pilləyə yüksəlmişdir.

Modernləşmə kursunu həyata keçirən Azərbaycanda iqtisadi və sosial tərəqqiyə yönəlmiş dövlət siyasəti öz bəhrəsini verməkdədir. Təsadüfi deyil ki, koronavirus pandemiyasının təsirindən yaranmış dərin maliyyə böhranı bir sıra ölkələrdə iqtisadiyyatın tənəzzülə uğramasına və sosial gərginliyin artmasına gətirib çıxardığı bir vaxtda, ölkəmiz qlobal böhranın təsirindən maksimum qorunmuş, sosial-iqtisadi inkişaf, vətəndaşlarımızın rifah halının yüksəldilməsi tədbirləri ardıcıl davam etmişdir. Keçən dövr ərzində dövlət fondları və digər maliyyə resursları səfərbər edilərək ümumi maliyyə dəstək paketi 3,5 milyard manatdan artıq olmuşdur.

Belə bir çətin şəraitdə Azərbaycan hökuməti ölkə sahibkarları üçün dəstək mexanizmlərini işə salmış, pandemiyadan zərərçəkən iqtisadi fəaliyyət sahələrinə vergi güzəştləri edilmişdir. Məsələn, mikrosahibkarlar xüsusi həssas kateqoriyaya aid olduğu üçün hansı sahədə fəaliyyət göstərməsindən asılı olmayaraq, onlar üçün Vergi Məcəlləsində mövcud olan 2 faizlik sadələşdirilmiş verginin dərəcəsi 1 faizə endirilmişdir. Bundan əlavə, sadələşdirilmiş verginin xüsusi növləri olan, məsələn, ictimai iaşə obyektləri üzrə sadələşdirilmiş vergi 8 faizdən 4, sərnişindaşıma sahəsində fəaliyyət göstərən sahibkar üçün isə nəqliyyat vasitəsində oturacaqların sayına görə müəyyən olunan sadələşdirilmiş verginin dərəcəsi 50, eləcə də bütün sahibkarlıq subyektlərində fiziki şəxslərdən icarəyə götürülən daşınmaz əmlaka görə mənbədən tutulan 14 faizlik vergi 7 faizə endirilmişdir.

Sahibkarlıq subyektlərinin sayının son 18 il ərzində artması nəticəsində özəl sektorda iş yerləri əsaslı şəkildə artmışdır. Belə ki, biznes mühitinin yaxşılaşdırılması və qeyri-neft sektorunda sahibkarlığın inkişaf etdirilməsi sahəsində görülən tədbirlərin nəticəsində sahibkarlıq subyektlərinin sayı 4,2, hüquqi şəxslərin sayı 2, kiçik müəssisələrin sayı 2, fərdi sahibkarların sayı 5 dəfə artmış, ümumilikdə isə, müstəqillik qazandıqdan sonra ölkə iqtisadiyyatına 250 milyard dollardan çox investisiya qoyulmuşdur.

Azərbaycanda sahibkarlığın inkişafı regional iqtisadi siyasətin ən mühüm elementlərindən birinə çevrilməkdədir. Azərbaycanda 2004-cü ildən uğurla icra olunan regionların sosial-iqtisadi inkişafı dövlət proqramları rayonların iqtisadi potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yüksəlməsinə, biznes və investisiya mühitinin, əhalinin rifahının yaxşılaşmasına səbəb olur, bununla da ölkənin strateji inkişaf hədəflərinə, müəyyən edilmiş məqsədlərə nail olunmasına əhəmiyyətli töhfəsini verir.

Azərbaycanda regionların tarazlı inkişafını təmin etmək üçün digər sahələrlə yanaşı, bölgələrdə aqrar-sənaye kompleksinin sürətli inkişafına nail olunmuşdur. Nəzərə almalıyıq ki, kənd təsərrüfatında ölkə üzrə ümumi daxili məhsulun 6 faizi istehsal edilir. Əhalinin 47 faizi kənd yerlərində yaşayır və məşğul əhalinin 36 faizi kənd təsərrüfatında çalışır. Bu baxımdan kənd təsərrüfatının inkişafı regionlardakı problemlərin aradan qaldırılmasında mühüm rol oynayır.

2021-ci ilin birinci rübündə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyərin 7,3 faiz azalması və əvəzində qeyri neft-qaz sektorunda əlavə dəyərin 2,1 faiz artması qeyri-neft sektorunda sahibkarlığın inkişafının real göstəricisidir.

Statistik məlumatlara görə, 2020-ci il ərzində Azərbaycanın ümumi ixracı 13,7 milyard, qeyri-neft sektoru üzrə isə 1, 9 milyard ABŞ dolları dəyərində olmuş, 2021-ci ilin yanvar-fevral aylarında isə ölkəfdə fəaliyyət göstərən sahibkarlar dünyanın 142 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişlər.

Sahibkarlığın inkişafına dövlət dəstəyi göstərilməsi sayəsində Sahibkarlığın İnkişafı Fondu tərəfindən güzəştli kreditlərin verilməsi davam edir. Qeyd olunmalıdır ki, bu prosesin dövlət büdcəsinə əlavə yük yaratmadan həyata keçirilməsi üçün kreditləşdirmədən geri qaytarılan vəsaitlər hesabına təmin olunur. İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu tərəfindən iqtisadiyyata güzəştli kredit dəstəyi çərçivəsində 2020-ci il ərzində 908 sahibkara 127 milyon manatadək güzəştli kredit verilib. Bu kreditlər hesabına 2700-dən çox yeni iş yerinin açılması imkanı yaranmışdır.

Son illərdə Sahibkarlığın İnkişafı Fondu tərəfindən verilmiş güzəştli kreditlərin 72 faizi aqrar sektorun, 28 faizi sənaye və digər sahələrin inkişafına yönəldilib. Bu kreditlərin 75 faizi regionların, 25 faizi Bakı qəsəbələrinin payına düşür.

Əldə edilmiş uğurların davamlılığının təmin olunması sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsini, sahibkarlara, xüsusilə də kiçik və orta sahibkarlara göstərilən texniki, maliyyə, hüquqi, metodiki və digər xidmətlərin əhatə dairəsinin genişləndirilməsini, keyfiyyət səviyyəsinin daha da artırılmasını zəruri edir, bu sahədə institusional yanaşmanı şərtləndirir. Azərbaycan Sahibkarlar Konfederasiyası bu tədbirlərin uğurla həyata keçirilməsi istiqamətində öz qüvvə və imkanlarını səfərbər etmişdir. Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası hazırda qeyri-neft sektorunun inkişafı istiqamətində ölkənin özəl sektorunda sağlam qüvvələrin birləşməsi əsasında öz işini qurur, sahibkarlara göstərilən xidmətlərin əhatə dairəsini genişləndirir, günün tələblərinə cavab verən mövzular üzrə treninqlər, seminar, konfranslar keçirir və sahibkarların hüquq, vəzifələrinin qorunması istiqamətində mütəmadi olaraq iş aparılır.

Sahibkarlarımız da öz müəssisələrini müasir tələblərə uyğun qurmalı, ixrac bazarlarında rəqabətqabiliyyətli məhsullar istehsal etməli, xarici bazarlarda mövcud olan geniş imkanlardan faydalanmaq üçün peşəkarlıqlarını artırmalı, ixrac menecerləri cəlb etməlidirlər.

Konfederasiya Baş Kollektiv Sazişin tərəfdaşı kimi sosial dialoq məsələlərinə önəm verir, yalnız sahibkarlara dəstək verməklə kifayətlənmir, müvafiq dövlət qurumları, həmkarlar ittifaqları ilə əməkdaşlıq çərçivəsində ölkədə əmək münasibətlərinin tənzimlənməsində fəal iştirak edir. Azərbaycan hökuməti, Həmkarlar Konfederasiyası və Sahibkarlar Konfederasiyası sosial dialoqun bərabərhüquqlu subyektləri kimi kollektiv müqavilə və sazişlərin bağlanması, onlara əlavə və dəyişikliklərin edilməsi və icrasının təmini, bir sıra əmək və sosial-iqtisadi məsələlərin həlli istiqamətində birgə iş aparır.

Yeri gəlmişkən, qeyd edək ki, keçən ilin mart ayında Nazirlər Kabineti, Həmkarlar İttifaqları Konfederasiyası və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında 2020-2022-ci illər üçün sosial əmək münasibətləri üzrə razılaşdırılmış mövqelərini və birgə fəaliyyətlərini müəyyən edən Baş Kollektiv Saziş imzalanmışdır.

Sahibkarlar Konfederasiyası ölkə sahibkarlarını təmsil edən bir təşkilat olaraq həm əldə etdiyimiz uğurları dəyərləndirir, həm də müasir çağırışları dərindən təhlil edir, bununla bağlı silsilə və ardıcıl tədbirlər həyata keçirir. Bu, istər qanunvericilik aktlarının təkmilləşdirilməsi, istər sahibkarlıq subyektlərinin problemlərinin öyrənilib əlaqədar təşkilatlar tərəfindən onların həllinə nail olunması, istərsə də sahibkarların maarifləndirilməsi işinin daha da dərinləşdirilməsi ilə bağlıdır.

Anadan olmasının 98-ci ildönümünü qeyd etdiyimiz Ümummilli Lider, müstəqil dövlətimizin qurucusu və memarı Heydər Əliyev Azərbaycan xalqının tarixində şanlı salnamələr açmışdır. Bu gün Heydər Əliyev dühası həyatının mənasını xalqa və dövlətə təmənnasız xidmətdə görən, bu müqəddəs amal uğrunda ən çətin maneələrə, problemlərə mərdliklə sinə gərən millət atası kimi hər bir azərbaycanlının qəlbində yaşayır və dərin rəğbətlə yad edilir. Bəli, Heydər Əliyev yolu müstəqil Azərbaycan dövlətinin və xalqımızın əbədiyyət yoludur. Prezident İlham Əliyev həmin parlaq yolun və böyük gələcəyin qüdrətli təminatçısı, mahir sükançısıdır. Aparılan məqsədyönlü siyasət müstəqil Azərbaycan dövlətini yeni və daha geniş magistrallara çıxarmağa uğurla xidmət edir.

Heydər Əliyevin zəngin irsinə nəzər salarkən məlum olur ki, onun ölkə üçün gördüyü nəhəng işləri, dəyərli və əzəmətli ideyalarının həyata keçirilməsini hər kəs öz sahəsində hiss edir, bunun təzahürünü daha aydın və dərindən anlayır. Hər kəs bir həqiqəti qəbul edir ki, Azərbaycanın müstəqillik illəri ərzində həyatımızın bütün sahələrində əldə olunmuş uğurlar məhz Heydər Əliyevin milli inkişaf strategiyasının həyata keçirilməsi nəticəsində mümkün olmuşdur.

Heydər Əliyevin gələcək üçün nəzərdə tutduğu iqtisadi ideyalar və arzular artıq gerçəkliyə çevrilmiş, bütün mənalı həyatını öz xalqına bəxş etmiş dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır.

Buna görə də əminliklə deyə bilərik ki, istər çağdaş Azərbaycan tarixində, istərsə də xalqın yaddaşında Heydər Əliyevin adı müstəqil və suveren dövlətin banisi, dahi siyasətçi, misilsiz şəxsiyyət, cəsur insan, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi və əbədiyaşarlıq hüququ qazanmış ən böyük vətəndaş - azərbaycanlı kimi əbədi həkk olunub.

*Heydər Əliyevin həmişəyaşar ideyalarına sadiqlik nümayiş etdirən sahibkarlarımız dövlətimizin yaratdığı imkanlardan istifadə edərək xalqımızın rifah halının daha da yüksəlməsi, rəqabətədavamlı istehsal potensialının artırılması üçün öhdələrinə düşən vəzifələri daha məsuliyyətlə yerinə yetirəcək, yaradılan əlverişli şəraitdən səmərəli və düzgün istifadə edərək ölkəmizin iqtisadi qüdrətinin artması üçün bütün qüvvələrini səfərbər edəcəklər.*

**Məmməd MUSAYEV,**
***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***

1923 Azərbaycanın özü qədər əbədi 2021

# Əbədiyaşar lider

**Dövlətlərin və xalqların tarixinin yazılmasından başlamış, dünya birliyində özünə layiqli yer tutmasının və tanınmasının zamanın süzgəcindən keçərək özünü doğruldan aydın şərtləri var. Tarix həmin şərtləri dönə-dönə sübut edərək göstərir ki, dövlətlərin və xalqların inkişafı, yüksəlişi üçün onun malik olduğu maddi və mənəvi zənginliklər vacib olsa da, yetərli sayıla bilməz. Bu baxımdan xalqların və dövlətlərin taleyində lider amilinin bütün şərtlərin fövqündə dayanması ən mühüm siyasi reallıqdır.**



## Xalq və dövlət üçün yaşanan ömür

Çox tarixi ənginlliklərə getmədən, Türkiyədə Atatürkün, Böyük Britaniyada Uinston Çörçilin, Fransada Şarl de Qollun fəaliyyəti göstərir ki, dövlətin dövlət olması, dünya səhnəsinə çıxması, müasir sivilizasiyanın parametrlərinə cavab verə bilməsi dövlət idarəçiliyini yüksək bacarıq və təşkilatçılıq qabiliyyəti ilə tənzimləyən fenomen şəxsiyyətlərdən asılıdır. XX əsr Azərbaycan tarixi isə Heydər Əliyevin timsalında hələ ötən əsrin 70-80-ci illərindən lider amilinin dövlətin və xalqın tarixində, onun gələcəyinin formalaşmasında, inkişafında, beynəlxalq aləmdə özünü təsdiq etməsində ən vacib faktor olduğunu təsdiq edir.

Anadan olmasının 98-ci ildönümü ərəfəsində Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edirik və ötən illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan uğurlar, əldə olunan inkişaf həm də Ulu Öndərin dövlətimiz və xalqımız qarşısındakı xidmətlərini daha dərindən anlamağa imkan verir. Tale elə gətirib ki, mənə Heydər Əliyevin rəhbərliyi altında uzun müddət fəaliyyət göstərmək xoşbəxtliyi, Ulu Öndərin yaratdığı Yeni Azərbaycan Partiyasının sıralarından seçilən deputat kimi qanun yaradıcılığı ilə məşğul olmaq nəsib olub. Bu dövrdə özüm üçün yəqin etdiyim ən böyük həqiqət odur ki, Heydər Əliyev sözün bütün mənalarında xalq üçün yaşayan, xalqla nəfəs alan böyük şəxsiyyət, əsl lider idi.

## Ulu Öndər mükəmməl konsepsiya müəyyənləşdirdi

Bütün mənalı həyatını, şərəfli ömrünü xalqa bağlayan Heydər Əliyev barədə həmişə danışmağa ehtiyac duyulur. Çünki Heydər Əliyev irsi bugünkü və gələcək nəsillər üçün mayak olduğundan necə var o cür də çatdırılmalı, təbliğ edilməlidir. Ancaq düşünürəm ki, insan daxilindən gələn səmimi bir istəklə Heydər Əliyevlə bağlı fikirlərini nə qədər bölüşsə də, Ulu Öndər şəxsiyyətinin ucalığını tam əhatə edə bilməz. Ona görə bu yazıda Heydər Əliyevin sosial siyasət konsepsiyası barədə bəzi məqamlara toxunmaq istəyirəm.

Azərbaycanın müstəqilliyinin ilk illərində respublikada səmərəli dövlət idarəçiliyinin olmaması bütün sahələrdə böhranın dərinləşməsini labüdləşdirmişdi. İqtisadi sahədə yaranmış çətinliklər, maliyyə çatışmazlığı ölkədə sosial-iqtisadi vəziyyətin sabitləşdirilməsi üçün real addımların atılmasını tamamilə məhdudlaşdırmış, sosial müdafiəni nəzərdə tutan proqramlar həyata keçirilməmiş, beləliklə də, sosial təbəqələr arasındakı uçurum getdikcə böyümüşdü. Bu isə sağlam, demokratik və inkişaf edən cəmiyyətin təməl prinsipi olan orta təbəqəni dağıtmışdı. Ona görə də, həmin ərəfədə siyasi səriştəsizliyini pərdələmək məqsədilə ozamankı hakimiyyət populist "sosial müdafiə siyasəti" həyata keçirməyə başlamışdı. Əlbəttə ki, bu fəaliyyət öz səmərəsini verməyəcəkdi və vermədi də.

Azərbaycanda bütün sahələrdə olduğu kimi, sosial sferada da vəziyyət Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra köklü şəkildə dəyişdi. Ulu Öndərin respublikaya yenidən rəhbərlik etməyə başlamasından sonra insanların sosial problemlərinin həlli prioritet elan olundu və bununla da, sosial müdafiənin gücləndirilməsi sahəsində ölkədə yeni səhifə açıldı.

## Bütün vətəndaşların sosial təminatı prioritet elan edildi

Öncə onu qeyd edim ki, yeni sosial siyasətin formalaşması dövlətin kompleks inkişafının və yeni iqtisadi sistemə keçidinin tərkib hissəsi kimi nəzərdən keçirildi. Bu zaman Azərbaycanın hansı modeldən faydalanmasına dair müxtəlif fikirlər irəli sürülsə də, Heydər Əliyev bazar münasibətləri əsasında formalaşan sosialyönümlü milli iqtisadiyyatın qurulmasını əsas strategiya kimi müəyyənləşdirdi və bunu əhalinin bütün təbəqələri üçün bərabər sosial təminatı fəaliyyətinin başlıca məqsədi kimi elan etdi. Ulu Öndərin ölkənin böyük perspektivlərinə hesablanmış strateji proqramının başlıca məqsədlərindən biri xalqın rifahının yüksəlməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi idi.

Heydər Əliyev güclü dövlət ideyasına sadiq qalaraq, ilk növbədə, sosial problemlərin həlli sahəsində dövlətin rolunun artırılmasına xüsusi əhəmiyyət verirdi. Bunu Ulu Öndərin 1994-cü ildə imzaladığı fərmanlar da göstərir. Bunlardan biri "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" 1994-cü il 15 iyun tarixli fərmandır. Bu sənədin əsas məqsədlərindən biri mövcud olan inflyasiyanın qarşısının alınmasına yönəlmişdi və bu, həmin dövr üçün olduqca vacib əhəmiyyət kəsb edirdi. Bu sənəddən gələn vəzifələrin daha effektiv yerinə yetirilməsinə nail olmaq və yol verilən bəzi qüsurları aradan qaldırmaq üçün Heydər Əliyev "Əhalinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" 1994-cü il 24 oktyabr tarixli növbəti sənəd imzaladı. Yeni fərman bilavasitə əhalinin sosial müdafiəsinin daha etibarlı şəkildə qorunmasına xidmət etdi.

Heydər Əliyevin müəllifi olduğu sosial siyasətin inkişaf tarixinə nəzər yetirsək görərik ki, ölkə iqtisadiyyatının tənəzzüldən çıxmasından, daxili sabitliyin təmin edilməsindən sonra sosial siyasət sahəsində əhəmiyyətli addımlar atıldı. Ayrı-ayrı kateqoriyaya aid olan şəxslərin sosial müdafiəsi üzrə müxtəlif qanunlar - "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında" və s. qanunlar qəbul edildi, şəhid ailələrinin, qaçqınların, məcburi köçkünlərin, müharibə və 20 Yanvar əlillərinin, veteranların sosial təminatının yaxşılaşdırılması istiqamətində çoxsaylı fərman və sərəncamlar imzalandı.

Ulu Öndər Heydər Əliyev tərəfindən ölkədə sosial sahədə inkişafın təmin olunmasına xidmət edən 60-dan artıq sənəd imzalanıb. Bu da ondan xəbər verir ki, Heydər Əliyevin həyata keçirdiyi sosial siyasət əhalinin rifahının yüksəldilməsinə, sosial müdafiəsinə xidmət etməklə Azərbaycanda dövlət quruculuğu prosesinin əsas istiqamətlərindən birini təşkil edib.

## Qaçqın və məcburi köçkünlər Heydər Əliyevin xüsusi diqqətində idi

Ulu Öndərin elan etdiyi sosial prioritetlər içərisində qaçqın və məcburi köçkünlərə yüksək dövlət qayğısının göstərilməsi xüsusi yer tuturdu. Doğma yurd-yuvalarından ayrı düşmüş soydaşlarımızın mənzil və sosial problemlərinin həlli, Ermənistanla aparılan müharibədə şəhid olanların ailələrinin, əlil olmuş vətəndaşlarımızın yüksək diqqət və qayğı ilə əhatə olunması Ulu Öndərin hər zaman həssaslıqla yanaşdığı sosial məsələlər idi.

1994-cü ildə Heydər Əliyev demişdi: "Çadırlarda yaşayan məcburi köçkünlərin üzərinə yağan yağış, qar belə hesab edirəm ki, mənim üzərimə yağır". Heydər Əliyevin ürək ağrısı ilə dediyi bu sözlər məcburi köçkünlər üçün sabaha inam yaradan bir stimul oldu, onların dözümlülüyünə dözüm qatdı. Heydər Əliyevin bu problemi ölkənin bir nömrəli problemi adlandırması təsadüfi deyildi. Məcburi köçkünlərin olduqca ağır vəziyyətdə yaşadıqları çadır düşərgələrinin ləğvi ideyası da Ümummilli Liderə məxsus idi. Ümummilli Liderin qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə verdiyi diqqətin nə dərəcədə böyük olduğunu sadə rəqəmlərlə də ifadə etmək olar. Belə ki, 1993-2003-cü illər arasında qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə yönəldilən vəsaitin həcmi 90 dəfə, yemək xərcləri üçün müavinət 60 dəfə, kommunal xidmət xərcləri 120 dəfə artırılmışdı.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər həm də zamanın çağırışlarına cavab verən pensiya islahatlarının həyata keçirilməsi ilə yadda qaldı. Həmin illərdə kommunal və nəqliyyat sahəsində mövcud olan güzəştlərin monetarizasiyası həyata keçirildi. Güzəştlərin müavinətlərlə əvəz olunması bazar iqtisadiyyatı şəraitində dövlət vəsaitlərinin xərclənməsinin səmərəliliyinin yüksəldilməsinə, enerjidaşıyıcılarından səmərəli və qənaətlə istifadənin təmin olunmasına, sosial müdafiənin ünvanlılığının artırılmasına şərait yaratdı.

## Sosial siyasətin mərkəzində insan amili dayanır

Azərbaycanın son 18 ildə qazandığı uğurlar fonunda bu reallığı bir daha təsdiq etmiş oluruq ki, möhkəm təmələ əsaslanan siyasət daim ölkəni inkişafa, tərəqqiyə aparır. Ulu Öndər Heydər Əliyevin düzgün müəyyənləşdirdiyi siyasətini hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi və yeni keyfiyyət göstəriciləri ilə zənginləşdirilməsi nəticəsində Azərbaycan bir-birindən əhəmiyyətli uğurlara imza ataraq regionun lider dövlətinə çevrilib. Milli inkişafda varisliyi təmin edən Prezdent İlham Əliyevin həyata keçirdiyi siyasət həm də novatorluğu və dinamizmi ilə fərqlənir.

Ötən ay möhtərəm İlham Əliyevin növbəti müddətə prezidentlik fəaliyyətinin 3 ili tamam oldu. Təkcə bu 3 ilin yekunlarına nəzər salmaqla sosial siyasət qarşısında dayanan priorietlərin inamla və sürətlə reallaşmasını görmək mümkündür. Bu 3 ili müstəqillik tariximizin ən sürətli islahatlar dövrü kimi də xarakterizə etmək olar. İlham Əliyevin cəmiyyət həyatının bütün sahələrində köklü dəyişikliklərə, yüksəlişə nail olmaq, Azərbaycanı inkişaf etmiş dövlətlərin cərgəsinə çıxarmaq üçün həyata keçirdiyi islahatlar məhdud sfera ilə yekunlaşmayaraq, kompleks xarakter daşıdı.

Son dövrlər Azərbaycan üçün bir sıra hadisələrlə əlamətdardır. Bunlardan biri qlobal pandemiya ilə əlaqədar respublikamızın müəyyən etdiyi uğurlu mübarizə modeli, digəri isə ikinci Qarabağ müharibəsində xalqımızın qazandığı möhtəşəm Qələbədir. Bu hadisələrin hər biri, ilk növbədə, İlham Əliyevin mütərəqqi idarəçiliyinin, lider kimi qətiyyətinin, siyasi müdrikliyinin təcəssümüdür. Eyni zamanda bu hadisələr həm də Azərbaycanın mükəmməl sosial siyasət konsepsiyasının təntənəsi oldu.

Vətən müharibəsindəki Qələbədən sonra isə şəhid ailələrinə, müharibə əlillərinə və qazilərinə göstərilən yüksək dövlət qayğısı sübut etdi ki, respublikamızın ərazi bütövlüyünün bərpası uğrunda canından keçən şəhidlərimizin ailə üzvləri, sağlamlığını itirən övladlarımız daim dövlətin diqqət mərkəzindədir. Cəmi bir neçə ay ərzində onların bir qisminin mənzillərlə təminatı, o cümlədən fiziki sağlamlıqlarını itirən əsgər və zabitlərin yüksək keyfiyyətli protezlərlə təminatı, onların müalicə məqsədilə xarici ölkələrə göndərilmələri, reabilitasiya kurslarına cəlb edilmələri, həmçinin xarici ölkələrdən həkimlərin respublikamıza dəvət olunması Prezident İlham Əliyevin vətəndaş maraqlarına xidmət edən sosial siyasətinin dərin məzmunundan xəbər verir.

## Mütərəqqi sosial siyasətin nümunəsi

Qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına qayıdış proqramları da ölkəmizdə sosial siyasətin ən ağrılı problemlərindən birinin uğurlu həllinə yönəlmişdir. Bir neçə gün əvvəl Prezident İlham Əliyev Zəngilan rayonuna səfəri zamanı rayonun 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı" kənd layihəsinin təməlini qoymasını hər birimiz qürur hissi ilə izlədik. Bu Vətən müharibəsindəki Qələbə nəticəsində işğaldan azad olunmuş rayonlarımızda kəndlərin yenidən qurulması istiqamətində həyata keçirilən ilk layihədir.

Ermənistanın işğal dövründə viran qoyduğu, dağıtdığı kənd və şəhərlərin, qəsəbələrin yenidən qurulması möhtərəm İlham Əliyevin çevik və mütərəqqi sosial siyasətinin növbəti nümunəsidir. Xüsusilə qeyd etməliyik ki, bərpa və yenidənqurma işləri yalnız sakinlər üçün mənzillərin tikintisi ilə kifayətlənməyəcək. Həmçinin öz doğma yerlərinə qayıdacaq insanların məşğuliyyətinin, təhsilinin və digər qayğılarının təmin edilməsi kimi sosial məsələlər kompleks şəkildə həll olunacaq.

Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş sosial-inkişaf strategiyası son 18 ildə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilib. Respublikamızın iqtisadi göstəricilərinin yüksəlməsi vətəndaşların sosial təminatının güclənməsi ilə müşayiət olunur. Azərbaycan dövlətinin bugünkü reallıqları onu göstərir ki, Heydər Əliyev siyasəti yaşayır, dövlətin inkişafına, xalqın rifahının yüksəldilməsinə xidmət edir. Azərbaycanın bugünkü və gələcək inkişafına, modernləşdirilməsinə hədəflənmiş bu siyasət Prezident İlham Əliyev tərəfindən ötən dövrdə daha da zənginləşib və dövlətimizin, xalqımızın maraqlarını layiqincə ifadə edib.

*Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf siyasətinin, islahatların, Qarabağın dirçəlişinin fonunda respublikamızın gələcəyə gedən yolunun konturları aydındır. Bugünkü uğurlarımız və gələcəyə doğru atılan hər bir addım bizə perspektivə daha inamla və daha nikbin baxmağa imkan verir.*

***Hadi RƏCƏBLİ,***
***siyasi elmlər doktoru, professor***

# Siyasətin dahisi, ədəbiyyatın hamisi

**Heydər Əliyev əvvəl milli məfkurəni, sonra müstəqil dövləti yaratdı. Bu baxımdan, minillik dövlətçilik tariximizə milli məfkurəyə istinad edən ilk və yeni Azərbaycan dövlətinin qurucusu kimi daxil oldu.**

Milli müstəqilliyi qazandığımız ötən əsrin 90-cı illərində deyil, eləcə də hakimiyyətdə olduğu sovet epoxası daxilində ədəbiyyatı nəinki iqtisadiyyatın, eləcə də siyasətin, gücün ayağına vermədi. Bütün fəaliyyəti dövründə ədəbiyyata, onun müxtəlif dövrlərində yaşayıb-yaratmış ədiblərinə qədirşünas mövqedən yanaşan Heydər Əliyevin rəhbər kimi özəlliyi bəlkə də elə buradan başlayır.

1970-ci illərdə ümumən respublikamızda klassik mədəni irsimizin öyrənilməsi baxımından tamamilə yeni mərhələ başladı. Həmin mərhələ bilavasitə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Adil Babayev yazır ki, "Şərqin ən böyük dastanı olan "Kitabi-Dədə Qorqud"u adi döyüş əsəri kimi qiymətləndirirdilər və onun araşdırılmasının qarşını alırdılar. Heydər Əliyev abidənin millətə qaytarılmasında böyük işlər gördü". Eləcə də böyük Azərbaycan şairi İmadəddin Nəsimi ilə bağlı Heydər Əliyevin gerçəkləşdirdiyi işlər bu şairin irsinin yeni təfəkkür qatına, milli şüur və yaddaşa bədii-estetik çalar qatmasını izləməyə imkan verir.

Heydər Əliyevin sərəncamı əsasında 1973-cü ilin 13 sentyabrında İmadəddin Nəsiminin 600 illik yubileyi keçirildi. Elə həmin il Həmid Araslının tərtibatı ilə Nəsiminin "Divan"ı çap olundu. Bütün ölkə Nəsimi əhvali-ruhiyyəsində oldu, şairin şəkli həmin dövrdə çap olunan ölkə qəzetlərinin loqosuna çevrildi. Şairin əsərləri ingilis və fransız dillərinə tərcümə edildi, haqqında xarici ölkələrin və beynəlxalq təşkilatların mətbuat orqanlarında bir neçə məqalə çap olundu. UNESCO-nun "Kuryer" jurnalında Nəsimi haqqında məqalə dərc edildi. Heydər Əliyev Nəsiminin yubileyinin təkcə Bakıda deyil, Moskvada da keçirilməsinə nail oldu. 1980-ci ilin fevral ayında Bakının mərkəzi parklarından birində Nəsiminin abidəsi qoyuldu və heykəlin açılış mərasimində şəxsən özü iştirak etdi. Beləcə, sovet ideologiyasının birbaşa marağında olduğu Nəsimini milli ədəbi-tarixi yaddaşdan çıxdaş etmək niyyətinin qarşısı böyük siyasətçi tərəfindən alındı.

Böyük Azərbaycan şairi Nizami Gəncəvinin irsinə də Heydər Əliyev münasibəti konseptual səciyyə daşıyırdı. 1981-ci ilin avqust ayında Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında qərar isə nizamişünaslıqda əsaslı dönüş yaratmışdır.

Yaxud 1982-ci ilin 15 yanvarında Şuşada M.P.Vaqif məqbərəsinin açılışı Heydər Əliyev üçün əbədiləşən tarixi yaddaş baxımından əhəmiyyətli idi.

Heydər Əliyevin üzərinə düşən missiya çətin idi. O, fəaliyyətinə güdaza verilmiş dəyərlərin, itirilən meyarların bərpası kontekstində başladı. Böyük liderin ədəbiyyatda gerçəkləşdiyi işlər, klassiklərə qayıdış, milli ədəbiyyata güvənc hissinin qabarıqlığı sistemin yaratdığı mif anlayışını yazıçı düşüncəsində heçə endirir, onun tənəzzülünü labüdləşdirirdi. İslahatlar ədəbi-mədəni həyatımızın bütün sferalarına sirayət etdikcə milli mənlik şüuru önə keçir, milli məfkurə işığı dalğalanmağa başlayırdı. Bu mənada ötən əsrin 90-cı illərində insanların öz azadlığını qazanması üçün meydana axışması, haqqını geri almaq təşnəsi birmənalı təfsirə gəlmir, onun kökləri bir qədər dərinlərə işləyib mövcudluğunu iki onillik əvvəldə, Heydər Əliyev dühasının imkan verdiyi azad söz zamanında, sovet ədəbiyyatı daxilində yaranmağa cəsarət etmiş hürr duyğulu, millət problematikalı poeziya mətnlərində tapır.

Bunu meydanda olan faktlar deyir: Nəriman Həsənzadə "Heydər Əliyevin şəxsində mən "Bütün Şərq bilsin" pyesinin qəhrəmanını, Nəriman Nərimanovun prototipini görürdüm", - yazır. Qabil qeydlərinin birində "Ömür həbləri" romanında Heydər Əliyevin də obrazını düşündüyünü bildirir. Mövlud Süleymanlı "Dəyirman" povestinin 70-ci illərin sağlam, duru, doğma ab-havanın məhsulu kimi meydana çıxdığını və üstəlik əsərlə bağlı "Azərbaycanı bürüyən" hücumdan onu Heydər Əliyevin qoruduğunu dilə gətirir. Bu məqam İsa Hüseynovun, Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın, Anarın, Elçinin mətbu etiraflarında da yer alır.

Önəmli bir faktın - 1978-ci ildə Heydər Əliyevin səyi nəticəsində dəyişdirilmiş Azərbaycan Sovet Sosialist Respublikasının Dövlət Himni məsələsi üzərində dayanmaq istəyirəm. 1945-ci ildə Səməd Vurğun və Süleyman Rüstəmin müəllifliyilə yaradılmış Azərbaycan Sovet Sosialist Respublikasının Dövlət Himninin sözlərinin müəlliflər cərgəsinə Hüseyn Arifin də qoşulmasıyla 1978-ci ildə yeni redaksiyada işlənildi. Qəribədir, Stalinin adı Azərbaycan himnindən məhz 1978-ci ildə çıxarıldı.

Heydər Əliyev içindən çıxdığı xalqın öz dəyərlərinin nədə ehtiva olunduğunu yaxşı bilirdi. Şəxsiyyətlərini tanıyırdı, dövləti güclü edən amillərin söykəndiyi bütün çıxış nöqtələri ona məlum idi. Eləcə də bilirdi ki, bir xalqın müstəqilliyinin qazanılması, öz mövcudluğunu sürdürə bilməsi bir tarixi, ideoloji və siyasi fakt olaraq yalnız tarixi şəraitin məhsulu ola bilməz, o həm də milli siyasi, ədəbi və fəlsəfi düşüncənin nəticəsi kimi hasilə gəlməlidir, milli mənlik şüurunun yaranmasının aspektləri bədii düşüncəyə söykənməlidir. Digər tərəfdən, Heydər Əliyev dünya mədəni sferasına inteqrasiyanın da zəruriliyini duyurdu. Ona görə milli varlığın idrakı məsələsinə bu qədər həssas yanaşırdı, fəaliyyətinin əsas istiqamətini milli ruhun oyanışı və ona qayıdış əzminin qorunub saxlanması təşkil edirdi.

Bu məqamda bir məsələni də vurğulamağa ehtiyac var. Heydər Əliyev yalnız qorumurdu, yalnız himayə etmirdi, yalnız cəsarət aşılamırdı. O, həm də sahib çıxmağı bacarırdı. Gücünün yetdiyi qədər milli-mənəvi dəyərlərin qorunmasına çaba göstərirdi. Bu barədə əlbəttə, kifayət qədər təcrübə və bacarıq sahibi idi, amma onlarla bahəm (və daha əsas!) millətinə və xalqına can yanğısı vardı. Böyük şairimiz Məhəmməd Füzuli ilə bağlı Heydər Əliyevin qatlaşdığı çətinliklər və onun bu istiqamətdə əzmkar fəaliyyəti fikirlərimizə əyani sübutdur. Heydər Əliyevin Füzulinin qəbrinin qorunması və məqbərəsinin tikilməsi ilə bağlı gördüyü çöxyönlü işlər - SSRİ XİN qarşısında qaldırdığı məsələ, Bağdaddakı səfirlik ilə yazışmaları, ölkə ziyalıları ilə danışıqları və s. bu kimi yorulmaz, inadlı və əzmkar mübarizələri bu siyasi liderdən hər cür yüksək məzmunda danışmağa əsas verir.

Heydər Əliyev siyasətinin dissident ruhu 1982-ci ildə daha bir müdhiş hadisə ilə nəhayətsiz miqyas aldı. Böyük Azərbaycan şairi Hüseyn Cavidin nəşinin Sibir çöllərindən vətənə gətirilməsi haqda sərəncam verdi. Bu hadisəni Heydər Əliyevin siyasi fəaliyyətinin şah əsəri saymaq olar. Axı söhbət 1937-ci ilin repressiya dalğasının güdaza verdiyi faciə qəhrəmanından gedirdi. 1982-ci il. Sovet dövrü hələ bitməmişdi, heç buna işarələr belə yox idi. Rəsmi sənədlər üzərində bəraətlər verilib, amma düşüncədə hələ də repressiya havası, qorxu və ürpərtisi davam edirdi. Dildə repressiyaya məruz qalanlar haqda gerçəklər tüğyan edirdi, amma kağız üzərində yanlış elmi-ədəbi yalanlar meydan sulayırdı. Çünki xof hələ çəkilməmişdi, ideoloji yanlışlığa uğrama qorxusu gerçəklərdən daha öndə idi. Heydər Əliyev bu addımı ilə gerçəyi qorxulardan önə çıxartdı, Cavidin nəşini vətənə qaytarmaqla elə, ilk növbədə, qorxunun üzərindəki örtüyü götürüb atmağa müvəffəq oldu.

1982-ci ildə Cavidin qayıdışı ilə milli mədəniyyətin türkçülük istiqamətində yeni epoxası başlayır. Bu həm də Heydər Əliyev siyasətinin 1969-cu ildən bəri xalqın mənəvi dirçəlişinə, ictimai özünüdərk və milli təfəkkür oyanışına doğru addım-addım gəldiyi yolun qanunauyğun sonucu kimi meydana çıxır.

Cavidin nəşinin niyə məhz Naxçıvanda basdırılması da ayrı özəlliyi ilə diqqət çəkir. Nəriman Həsənzadənin xatirələrində buna əmin oluruq: "Bir də Təbriz nisgili var idi Heydər Əliyevin. Hüseyn Cavidin nəşini uzaq Sibirdən vətənə gətirmişdi. Cavidi niyə Naxçıvanda basdırmaq istədi, burda yox? Söhbət gedirdi bu barədə həmin ərəfələr. Mən yanında durmuşdum, kimlərləsə söhbət edəndə dedi elə Naxçıvan yaxşıdı ki, Təbrizdən gələndə onu ziyarət eləyib gələcəklər. Bura qədər dərin düşünürdü Heydər Əliyev".

❖ ❖ ❖

1970-1980-ci illər Azərbaycan ədəbiyyatı Heydər Əliyevin müəyyənləşdirdiyi əxlaqi-milli-mədəni aktın ilhamçısı və icraçısıdır. Cari prosesin, yazılan əsərlərin, bütöv ədəbi hərəkatın ideya zəmini rolunda çıxış edən aparıcı simadır Heydər Əliyev. Sovet epoxası daxilində bütün ölkə miqyasında sosial-tarixi, ədəbi-estetik qanunauyğunluqlarla müasir ədəbiyyatın özünün bədii-fəlsəfi ənənəsi arasında əlaqə, körpü rolunu Heydər Əliyev icra etmişdir.

1980-ci illərin sonlarından etibarən ölkə əvvəlcə yenidənqurma adı ilə göstərilən bir absurdun tamaşaçısı olmaq məcburiyyətini yaşadı, ardınca bu ümidlərin də fiaskoya uğraması prosesi başladı. Öz haqqının sahibi olmaq zamanı çatmışdı. Nəhayət, 1991-ci ilin oktyabrında Azərbaycanda milli müstəqillik elan olundu. Amma bu o qədər də asan başa gəlmədi. Bunun üçün millət 1990-cı ilin 20 Yanvarında sınaq imtahanı verdi. Sonra Xocalı soyqırımı, ard-arda itirilən ərazilər, ölkə daxilində başlanan xaos, siyasi çəkişmələr, hərc-mərclik, şəxsi ambisiyaların tüğyan etməsi... Yeni liderin gəlişinə, xalqın nicat yerinə çevrilməsinə ehtiyac vardı, zəmanə öz qəhrəmanını gözləməkdə idi. Milli-mənəvi həyatımızda hökm sürmüş xaos və stixiyadan sonra dahi işinə ehtiyacın növbəsi gəlmişdi və zamanın sükanını kosmik ahəngə xidməti ilə seçilənlərin öhdəsinə verməyin vaxtı idi. İbrətlidir ki, tarix bu şansı digərinə deyil, elə istiqlal yollarında can qoymuş, məsləkini tərcümeyi-halına çevirmiş seçilmişinə həvalə etdi.

Heydər Əliyev əvvəlki inadla millətin yaddaş kultuna həssas yanaşmaqda davam etdi. 1990-cı illərdə dahi şairimiz Məhəmməd Füzulinin 500, Mirzə Cəlilin 128, ilk möhtəşəm söz abidəmiz olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin elmi ictimaiyyət tərəfindən beynəlxalq səviyyədə keçirilməsi ədəbi irsə layiqli münasibətin izharına ən yaxşı nümunə olmaqla yanaşı, dövlət başçısının hansı məsələlərdə dəstək aradığını, mənəvi ülfət tapdığını bəlli etdi. Daha sonra bu missiya klassik sənətkarlarımızın taleyinə münasibətdə davamını tapmağa başladı. Heydər Əliyev qeyd edirdi ki, "Respublikamızın bu ağır dövründə böyük yubileylər keçirilməsi, şübhəsiz ki, müəyyən qədər çətinliklərlə üzləşəcək. Ancaq çətinliklər nə qədər çox olsa da, mədəniyyətə, mədəni irsimizə, mənəviyyata daim xüsusi diqqət yetirməli və bu sahələrin geri qalmasına yol verməməliyik".

Məhəmməd Füzulinin külliyyatı altı clddə nəşr edildi. Haqqında sanballı elmi monoqrafiyalar, tədqiqat əsərləri ortaya qoyuldu. Yubileyi həm Azərbaycanda, həm bütün türk-islam aləmində, həm də Rusiya və Avropada böyük təntənə ilə keçirildi.

Heydər Əliyevin müasir ədəbiyyat kontekstində yerinə yetirdiyi "yaradıcılıq" missiyasının realizəsi bir tərəfdən klassik ədəbiyyatı yaşatmaqla bağlı idisə, digər tərəfdən çağdaş ədəbi prosesi gəlişdirmək məqsədilə atılan bir sıra addımlarla əlamətdar oldu. Yaradıcılıq aləminə yeni istedadlı müəlliflərin gəlməsində rol oynayan, sonradan maddi çatışmazlıqlar ucbatından uzun fasilələrlə işıq üzü görən, hətta bağlanmaq təhlükəsi ilə üz-üzə duran ədəbi orqanların: "Azərbaycan", "Literaturnıy Azerbaydjan", "Ulduz", "Qobustan" jurnallarının və "Ədəbiyyat qəzeti"nin ölkə prezidentinin xüsusi qərarı ilə müntəzəm surətdə ölkənin dövlət büdcəsindən maliyyələşdirilməsi ədəbi prosesin gəlişməsində əsaslı rol oynadı.

Heydər Əliyev - milli ədəbiyyatımızın şərəfli tarixidir, faktıdır, əhəmiyyətli və gərəkli məxəzidir. Bu məxəz bütün estetik ruh halı ilə fərqli duyumun, fərqli yaşamın şəklidi. Heydər Əliyev ruhunun ədəbiyyatda gerçəkləşən şəkli...

Və siyasətdə göründüyü qədər həm də ədəbiyyatın obrazıdır.

Heydər Əliyev sözümüzün "yaddaş sirri"dir. O, dövlətin rəmzinə çevrilmiş ilk siyasi lider oldu və kifayət qədər ibrətamizdir ki, belə bir hadisə Azərbaycan tarixində ilk dəfəydi ki, baş verirdi. Belə hadisələri isə tarix sonradan təshih etmir. Çünki yüzillər keçəndən sonra tarix daha çox həqiqətin dilində danışır. Heydər Əliyev Azərbaycanın siyasət dilini dünyaya təlim edən ilk azərbaycanlı oldu. Bu mənada, yüzillər keçəndən sonra da tarix Azərbaycan barədə qurucunun, baninin, Ümummilli Liderin, yəni Heydər Əliyevin üslubunda danışacaq.

Biz Ümumilli Liderin vətən, yurd, xalq adına gördüyü nəhayətsiz əməllərin bir qismindən bəhs etdik. Amma Heydər Əliyevin ən dəyərli əsərlərindən biri Azərbaycan Prezidenti İlham Əliyevin şəxsində layiqincə davam edən möhtəşəm irsdir. Bu gün Heydər Əliyev həm də İlham Əliyevin fəaliyyətində, missiyasında yaşayır, əbədi davam edən tarixə çevrilir.

Ümummilli Lider Heydər Əliyevin onun haqqında söylədiyi gözəl bir fikir var: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bunlar tarix yaradan bir şəxsiyyətin, milli məfkurəli dövlət qurucusunun yalnız inamından hasilə gələn fikirlər deyildi, bu inamın kökündə İlham Əliyevdə ehtiva olunan dövlətçilik şüuruna, dövləti sağlam düşüncə və əzmlə idarə etmək, irəli aparmaq gücünə əminlik dayanırdı.

Zaman bu müdrik şəxsiyyətin qənaətlərində yanılmadığını sübut etdi.

***Elnarə AKİMOVA,***
***YAP İdarə Heyətinin üzvü, filologiya elmləri doktoru, dosent***

# YAP Veteranlar Şurasının üzvləri ilə Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının nümayəndələrinin görüşü keçirilib

Mayın 5-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında 9 May - Qələbə Günü münasibətilə YAP Veteranlar Şurasının üzvləri ilə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının nümayəndələrinin görüşü keçirilib.



YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə bildirib ki, Azərbaycanın sovet dövründəki həyatında 1941-1945-ci illərin ən ağır və dəhşətli dövrlərdən biri olduğunu desək, yəqin səhv etmərik. Ölkəmizdən müharibəyə 600 min nəfərə yaxın həmyerlimiz çağırıldı və onların 350 min nəfəri geri qayıtmayıb. Arxa cəbhədə isə 250 min nəfərə yaxın insan ordunun tələbatını təmin etməsi ilə əlaqədar çalışırdı.

Arif Rəhimzadənin sözlərinə görə, İkinci Dünya müharibəsi, bu müharibəyə cəlb olunan ölkələrin əhalisi üçün ən dəhşətli dövr oldu və hamıda fikir formalaşdırdı ki, faşizm ifrat dərəcədə milliyyətçiliyə, irqçiliyə yönəlib. "Azərbaycan xalqı erməni faşizmindən də əziyyət çəkib. Elə sovetlər dövründə də ermənilərin Azərbaycan torpaqlarına qarşı iddiaları var idi. Bu məsələ ilə dövlət səviyyəsində ilk dəfə Ulu Öndər Heydər Əliyev məşğul oldu. Onun gördüyü tədbirlər nəticəsində Ermənistanın rəhbərləri anladı ki, Azərbaycana olan iddialarını həyata keçirə bilməyəcəklər. Ulu Öndərimiz böyük uzaqgörənliklə sovetlər dönəmində Bakıda hərbi məktəbin açılmasına nail oldu. Bu da milli hərbi mütəxəssislərimizin hazırlanmasında böyük rol oynadı", - deyə YAP Veteranlar Şurasının sədri bildirib.

Arif Rəhimzadə qeyd edib ki, Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verdikdən sonra Ermənistan Azərbaycana qarşı açıq şəkildə ərazi iddiaları ilə çıxış etdi. Beləliklə, Qarabağ müharibəsi başlandı. O dövrdə ölkə iflic vəziyyətdə idi. Nə silah var idi, nə ordu, nə də ki, ölkəyə rəhbərlik edənlərdə bacarıq, səriştə, iradə. Buna baxmayaraq, minlərlə Azərbaycan vətəndaşı ölkənin müdafiəsinə qalxdı. Birinci Qarabağ müharibəsində ərazilərimizin bir hissəsini itirsək də, bu müvəqqəti idi. Bu gün isə biz hamımız İkinci Qarabağ müharibəsində qazanılmış möhtəşəm qələbənin təsiri altındayıq və anlayırıq ki, bu tarixi hadisə Azərbaycan xalqının birliyi, Silahlı Qüvvələrinin yüksək peşəkarlığı və qəhrəmanlığı, Prezident, Ali Baş Komandan İlham Əliyevin ardıcıl, məqsədyönlü və məhsuldar fəaliyyətinin nəticəsidir. Eyni zamanda biz yaxşı anlayırıq ki, Azərbaycan xalqında vətənə məhəbbət, ağır anlarında bir yumruq kimi birləşib doğma yurdumuzu müdafiə etmək, hətta canımızdan keçməyi siz veteranlar gənclərimizə aşılayırsınız.

YAP Veteranlar Şurasının sədri söyləyib ki, azərbaycanlıların 1941-1945-ci illərdə müharibə zamanı qəhrəmanlıqları hər zaman yaddaşlardadır. İkinci Dünya müharibəsində yüksək şücaət göstərdiyinə görə 127 həmyerlimiz "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülüb. Bütövlükdə isə, orden və medallarla 170 minə yaxın vətəndaşımız təltif olunub.

A.Rəhimzadə deyib ki, müharibə və əmək veteranlarının Vətənə, dövlətə xidməti gənc nəsil üçün nümunədir.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının sədri Fatma Səttarova İkinci Dünya müharibəsində Azərbaycanın oğul və qızlarının qəhrəmanlığından, özünün də müharibə xatirələrindən bəhs edib. Fatma Səttarova ölkəmizdə müharibə, əmək və Silahlı Qüvvələr veteranlarına göstərilən dövlət qayğısını yüksək qiymətləndirib və bütün bunlara görə Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını ifadə edib.

O, 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm qələbədən qürur duyduğunu, şanlı Azərbaycan Ordusu ilə fəxr etdiyini qeyd edib.

Görüşdə həmçinin Azərbaycan Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov və təşkilatın üzvləri İmran Əbilov və Tamleyxa Həsənov çıxış edərək ölkəmizin uğurlu inkişafından, Vətən müharibəsində qazanılan Zəfərdən, eləcə də ölkəmizdə veteranlara göstərilən diqqət və qayğıdan danışıblar. Eyni zamanda hər iki təşkilat arasında əməkdaşlığın gələcəkdə də davam etdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

# AQUPDK ilə UNICEF arasında 2021-2022-ci illərə dair Fəaliyyət Planı imzalanıb

Mayın 5-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova ilə BMT Uşaq Fondunun (UNICEF) Azərbaycan nümayəndəliyinin rəhbəri Edvard Karvardin arasında görüş keçirilib.



AZƏRTAC xəbər verir ki, görüşdə ötən il ərzində uşaq hüquqlarının müdafiəsi istiqamətində reallaşdırılan tədbirlər və növbəti illər üçün nəzərdə tutulan layihələr müzakirə edilib.

Dövlət Komitəsinin sədri Bahar Muradova pandemiya, müharibə və postmüharibə dövrləri ərzində həyata keçirilən layihələrə verdiyi dəstəyə görə BMT Uşaq Fonduna təşəkkürünü bildirib. Qeyd edib ki, ötən görüşlərdən ötən müddət ərzində qazanılan nəticələr onu deməyə əsas verir ki, keçirilən görüşlər mühüm layihələrin reallaşması, əlaqələrin daha da möhkəmlənməsi baxımından əhəmiyyətli olub. Komitənin fəaliyyət sahəsinə aid olan məsələlər istiqamətində UNICEF ilə əməkdaşlıq səmərəli şəkildə həyata keçirilib. Ötən ilin çətinliklər yaratmasına baxmayaraq, komitənin mühüm nailiyyətlər əldə etdiyini vurğulayan B.Muradova bir sıra milli inkişaf prioritetlərini özündə əks etdirən sənədlərin qəbul olunduğunu diqqətə çatdırıb.

UNICEF-in ölkə proqramına diqqət çəkən komitə sədri bildirib ki, bu proqram Azərbaycanda uşaqların inkişafının bütün parametrlərini nəzərə alan və əlaqələndirilmiş sektorlararası prinsipləri əks etdirən mexanizmlərə dəstək verən ciddi sənəddir. Bu sənəddə nəzərdə tutulan məsələlər Dayanıqlı İnkişaf Məqsədlərini, eləcə də milli inkişaf prioritetlərini özündə əks etdirən sənədlərin yerinə yetirilməsi, monitorinq və hesabatvermə mexanizmlərinin təkmilləşdirilməsinə töhfə verməsi baxımından əhəmiyyətlidir. "Regionlarda fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək mərkəzləri və qeyri-hökumət təşkilatlarının da layihələrin həyata keçirilməsinə cəlb edilməsi də diqqətəlayiqdir. Çünki bu yerli kadrların indiki halda yaranmış çağırışlara cavab vermək istiqamətində işlərinin səmərəliliyinin artırılmasına imkan verəcəkdir", - deyə o qeyd edib.

"Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nda nəzərdə tutulan məsələlərin bu gün haqqında danışılan sənəddə də əks olunduğunu qeyd edən B.Muradova ümumilikdə Fəaliyyət Planını yüksək qiymətləndirib.

Edvard Karvardin BMT Uşaq Fondunun komitə ilə gələcək əməkdaşlıqda maraqlı olduğunu ifadə edərək, birgə tədbirlərin mühüm əhəmiyyətini vurğulayıb. O, ötən ilin insanlar üçün müəyyən qədər təhdidlər, çağırışlar yaratdığını bildirərək, xüsusilə də pandemiyanın istər uşaqlara, istərsə də ailələrə böyük təsiri olduğunu və bu təsirin fəsadlarının bu gün də davam etdiyini vurğulayaraq deyib: "Baş vermiş hadisələr ailələrin sosial-iqtisadi vəziyyəti ilə yanaşı, onların sağlamlığına da təsir göstərib. Ötən il nə qədər ağır olsa da, bir daha göstərdi ki, əgər biz ailənin istər uşaqların psixososial inkişafı, istər müsbət valideynlik, istər erkən uşaqlıq dövrünün inkişafı, istərsə də erkən təhsil imkanları ilə bağlı ailələrin gücləndirilməsinə lazımi qədər investisiya qoyuluşuna nail ola bilsək, bunların hamısı uşaqların inkişafına böyük töhfə verəcəkdir".

Müvafiq siyasətin işlənib hazırlanması, tətbiqi, yeni qanunvericilik aktlarının hazırlanması istiqamətində dövlət tərəfindən lazımi işlərin görüldüyünü vurğulayan Edvard Karvardin göstərilən dəstək və yardımlardan faydalanaraq, ailənin inkişafına diqqətin daha da artırılmasının mühüm olduğunu bildirib.

2021-2022-ci illərə dair Fəaliyyət Planına diqqət çəkən E.Karvardin bu sənədin müxtəlif istiqamətləri əhatə etdiyini, əməkdaşlıq çərçivəsində birgə işlərin daha da yüksək səviyyədə aparmağa imkan yaradacağını vurğulayıb.

Sonda Dövlət Komitəsi ilə UNICEF arasında 2021-2022-ci illərə dair Fəaliyyət Planı imzalanıb. Sənədi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova və BMT Uşaq Fondunun (UNICEF) Azərbaycan nümayəndəliyinin rəhbəri Edvard Karvardin imzalayıblar.

# Rusiyalı politoloq viran qoyulmuş Ağdama dair fotoşəkilləri paylaşıb

**Qarabağ. Ağdam. Çörək muzeyi. Ağdam bütünlüklə dağıdılıb.**





AZƏRTAC xəbər verir ki, bu barədə politoloq, Rusiyanın Siyasi Araşdırmalar İnstitutunun baş direktoru Sergey Markov Ağdama səfərdən sonra özünün "Facebook"səhifəsində yazıb. "Fikrimcə, gözəl freskalara görə məhz bu bina Ağdamın tam bərpasından sonra belə vəziyyətdə vandalizm və vəhşilik abidəsi qismində qalacaq. Xirosimada dağıdılmış bir bina qaldığı kimi", - deyə rusiyalı politoloq Ağdamda ermənilər tərəfindən viran qoyulan Çörək muzeyinin binasının şəklini paylaşıb.

S.Markov heyrətlə bildirib ki, bəzi insanlar ermənilərin Qarabağda vəhşi hərəkətlərini ört-basdır edərək, onları müdafiə etməyə çalışırlar. O yazıb: "Bəziləri məni bu vəhşilik barədə yazmaqda və fotolar paylamaqda qınayırlar. Mənə isə elə gəlir ki, məhz susmaq yolu ilə barbarlığın müdafiə edilməsi - millətlərarası ədavətin qızışdırılması və gələcəkdə baş verəcək qarşılıqlı cinayətlərə yol açılmasıdır. Sülhə aparan yol törədilmiş cinayətin etiraf edilməsindən keçir".

S.Markov həmçinin Ağdamdakı Mədəniyyət sarayının xarabalıqlarının fotoşəkillərini bölüşüb. "Əhalisinin ümumi sayı təqribən 200 min, o cümlədən şəhər əhalisi 65 min olan, vaxtilə çiçəklənən Ağdam yerləyeksan edilərək 25 ildən artıq boş vəziyyətdə qalıb. Kütləvi qırğın və etnik təmizləmə təhlükəsi ilə üzləşən sakinlər hamı bir nəfər kimi buranı tərk ediblər. 25 ildən artıq müddətdə Ağdamda heç kəs məskunlaşmayıb. İşğalçı ermənilər şəhəri boş saxlayıb. Burada törədilmiş vəhşilik insanı çox sarsıdır. İnsanlığa ümidsiz baxmağa başlayırsan. Ümidvarıq ki, sivilizasiya tezliklə Ağdama qayıdacaq", - deyə politoloq təəssüratları ilə bölüşüb.

S.Markov izləyicilərinə erməni işğalçıların Qarabağ torpağında qoyub getdikləri minalanmış ərazilərdən söhbət açıb: "Neytral zolaqda isə qeyri-adi gözəllikdə çiçəklər bitir. Vladimir Vısotski bir mahnısında oxuduğu kimi. Bu çiçəklər isə Ağdam yaxınlığında, Qarabağda keçmiş neytral zolaqdakı minalanmış ərazilərdə bitir. Bu çiçəklərə baxıb zövq ala bilərsiniz. Lakin onları dərmək olmaz. Çünki minada partlamaq təhlükəsi var".

# Rusiyalı deputat Dmitri Savelyev Ağdamda erməni vəhşiliklərinin şahidi olub





Mayın 5-də Rusiya Federasiyası Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev Ermənistanın işğalından azad edilmiş Ağdam şəhərində olub. Qonağı Milli Məclisin deputatı Nizami Səfərov müşayiət edib.

AZƏRTAC xəbər verir ki, Dmitri Savelyev əvvəlcə Ağdam Cümə məscidində ermənilərin törətdikləri barbarlıqla tanış olub. Ağdam rayon ziyalısı Zülfü Qasımov ona ermənilərin müharibə cinayətləri, mədəni, tarixi, dini abidələrimizi məhv etmələri barədə ətraflı məlumat verib. Bildirilib ki, Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib. Bu məscid "Qarabağ məscid memarlığı" məktəbinə aiddir. Ermənilər tərəfindən dağıntılara məruz qalan Ağdam məscidinin minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb.

Viran qoyulmuş Ağdam şəhəri ilə tanış olan qonağa məlumat verilib ki, Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. İşğala qədər Ağdam rayonunda 153 min nəfər, Ağdam şəhərində isə 42 min nəfərdən çox sakin yaşayırdı. Ağdamda 17 sənaye müəssisəsi fəaliyyət göstərirdi. Ermənilər işğal etdikləri Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, uşaq bağçalarını, xəstəxanaları, istehsal müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdamın yerində indi xarabalıqlar qalıb.

Dmitri Savelyev sonra Ağdam şəhərindəki Şəhidlər xiyabanına gəlib. Burada I Qarabağ müharibəsində şəhid olan qəhrəman Vətən övladları, o cümlədən Xocalı soyqırımında öldürülən şəhər sakinlərinin bir hissəsi dəfn edilib. Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun qəbri də buradadır. Ağdamda hər şeyi məhv edən erməni vandalları Şəhidlər xiyabanındakı qəbirləri də qazaraq dağıdıblar.

Rusiyalı deputat Ağdam şəhərinə səfər çərçivəsində Çörək Muzeyinin binasının dağıntıları ilə də tanış olub. Bildirilib ki, dünyada ikinci hesab edilən bu muzeydə nadir eksponatlar - taxılçılıqla bağlı arxeoloji tapıntılar toplanmışdı. Eksponatlar arasında daşa dönmüş dənlər, əl dəyirmanları, qab-qacaq, qədim kitablar, əlyazmalar, əkinçilik alətlərinə (oraq, xış, taxıldöyən vərdənə və s.) aid müxtəlif dəyərli nümunələr olub.

Dmitri Savelyev sonra Ağdam şəhərindəki İmarət qəbiristanlığına gəlib. Məlumat verilib ki, burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar - İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarları olub. Qarabağ xanlarının nəslindən olmuş digər görkəmli şəxslər də bu qəbiristanlıqda dəfn edilib. Lakin Ağdam şəhəri işğal olunduqdan sonra Pənahəli xanın buradakı sarayı və qəbiristanlıq erməni vandalizminə məruz qalıb. Erməni vandalları İbrahimxəlil xanın türbəsini və Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsini də dağıdıblar. Bu ərazilərdəki məscidlər, məzarlıqlar kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib. Tövlə kimi istifadə edilən xan sarayında inək və donuz saxlanılıb.

# Dəmir iradə ilə Zəngəzura doğru...

*Əvvəli 1-ci səh.*

Ermənistan Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrini təmin edir.

Bəyanatın bu bəndi Zəngəzur dəhlizinin reallaşması istiqamətində Azərbaycan üçün hüquqi zəmin yaradır. Lakin Ermənistan rəhbərləri regionda kommunikasiyaların bərpası, quru yolla dəhliz açılması kimi məsələlərdən bəhs edərkən ritorikanı sərtləşdirməyə cəhd edirlər. Ermənistanın baş naziri Nikol Paşinyan öz çıxışlarının birində 10 noyabr Bəyanatı haqqında danışarkən bu razılaşmada hər hansı "Zəngəzur dəhlizi"nin nəzərdə tutulmadığını, yalnız bölgənin blokadadan çıxarılmasının göstərildiyini iddia edib.

Ermənistanın bu iddiasına cavab olaraq İlham Əliyev YAP-ın VII qurultayında bəyan etdi ki, üçtərəfli Bəyanatda xüsusilə bu məsələnin əks olunması Azərbaycanın böyük siyasi qələbəsidir. Zəngəzur dəhlizi tarixi nailiyyətdir. Hazırda Zəngəzur dəhlizinin fəaliyyəti istiqamətində fəal işlər aparılır, bir çox təkliflər var, artıq bir çox nəqliyyat-kommunikasiya layihələri masa üzərindədir. Amma bu gün Ermənistan əməkdaşlıqdan boyun qaçırır: "İndi Ermənistan Zəngəzur dəhlizinin icrasına əngəl törətmək istəyir. Lakin onları məcbur edəcəyik. Necə ki, qovmuşuq torpaqlarımızdan, bütün istədiyimizə nail olacağıq. Beləliklə də Ermənistanın Azərbaycanın siyasi iradəsini qəbul etməkdən başqa yolu qalmayacaq. Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik".

### Ermənistan Azərbaycanla hesablaşmalıdır, əks təqdirdə...

İlham Əliyevin Zəngəzur dəhlizinin açılması ilə bağlı çıxışında əsas vurğu heç də yükdaşımalarla bağlı rəqabət üzərində deyil. Qalib Sərkərdə öz nitqində bəyan edir ki, Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir və Azərbaycan xalqı 101 il bundan əvvəl əlimizdən alınmış Zəngəzura qayıdacaq.

Bu, ilk növbədə lider qətiyyətinin nümayişi idi. Artıq hər kəs əmindir ki, bu proses də tezliklə reallığa çevriləcək. Çünki İlham Əliyev indiyədək səsləndirdiyi bütün bəyanatları gerçəkləşdirib. Ermənistanda da yaxşı başa düşürlər ki, Azərbaycanın lideri bu dəhlizin açılacağını qətiyyətlə vurğulayırsa, demək, tezliklə bu prosesə start veriləcək.

Bütün bunlar isə onu deməyə əsas verir ki, Ermənistanda yaranmış vəziyyətə baxmayaraq, noyabrın 10-da imzalanmış Bəyanatın bütün bəndləri icra ediləcək. Əks təqdirdə, müharibədə ağır zərbə almış ölkə daha da acınacaqlı duruma düşəcək. Seçim imkanları o qədər də böyük deyil. Ona görə də Ermənistan yeni reallıqlarla barışmalı, Azərbaycanın irəli sürdüyü təkliflərlə hesablaşmalıdır.

İlham Əliyev də bu prosesdə Ermənistanın seçim imkanlarının olmadığını bildirir: "Biz yeni reallıqlar yaratmışıq. Bu reallıqla Ermənistan və eyni zamanda bütün başqa ölkələr barışmalıdırlar, hesablaşmalıdırlar. Ermənistan qarşısında indi bir neçə seçim var. Və onların arasında Ermənistan üçün ən məqbul seçim 10 noyabr Bəyanatının müddəalarını icra etməkdir. Əks təqdirdə onlar üçün daha da böyük problemlər yarana bilər".

Bu gün baş verən proseslər göstərir ki, Azərbaycan Qarabağda nəqliyyat-kommunikasiya sisteminin qurulması istiqamətində çox önəmli addımlar atmaqdadır. Hazırda yeni avtomobil və dəmir yollarının, hava limanlarının tikintisi davam etdir. Bu proseslər yekunlaşdıqdan sonra Zəngəzur dəhlizinin bərpasına start veriləcək. Çünki xarici ölkələrlə logistik əlaqələrin daha da şaxələndirilməsi Zəngəzur dəhlizindən asılıdır. Bu, həm də Ermənistanın düşdüyü acınacaqlı iqtisadi durumdan qurtuluşuna da təsir göstərə bilər.

Zəngəzur dəhlizi nəqliyyat dəhlizi funksiyası rolunu oynayacaq. Azərbaycan imzalanan bəyanata əsasən, yaradılacaq bu dəhlizdən dəmir yolu və avtomobil yolu məqsədilə istifadə edəcək. Bu yol həm Azərbaycanın əsas hissəsini Naxçıvanla əlaqələndirəcək, həm də Naxçıvan üzərindən Azərbaycan Türkiyə ilə birbaşa dəmir yolu və avtomobil yolu ilə əlaqə quracaq.

Göründüyü kimi, Azərbaycan İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə mütəşəkkil və düşünülmüş qaydada addımlar atır və 10 noyabr Bəyanatının bütün bəndlərinin reallaşması istiqamətində qətiyyət nümayiş etdirir. Bu da Azərbaycanın dünya düzənindəki siyasi çəkisini gündən-günə daha da gücləndirir.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# *Rusiyalı deputat:* "Ağdamda gördüklərim hərbi cinayətdir"

**Biz Ağdamda keçmiş sovet məkanında məşhur olan Çörək muzeyinin qalıqlarını, həmçinin xəstəxanaların, mədəniyyət evlərinin, teatr binasının dağıntılarını gördük.**



Bu, vəhşilikdir. Bu, nifrət və ağılsızlığın təzahürüdür. Mən bu dərəcədə dəhşətli səhnələr görəcəyimi gözləmirdim. Adama elə gəlir ki, burada nüvə partlayışı olub. Burada gördüklərim hərbi cinayətdir. Bu, çox da uzaq olmayan bir tarixi əhatə edir və minlərlə insanın ölümünə səbəb olub.

Bu sözləri mayın 5-də Ağdamda səfərdə olan Rusiya Federasiyası Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında deyib.

D.Savelyev deyib ki, insanlar burada nə baş verdiyini görməlidirlər: "Tarixi abidələr dağıdılıb, biz indi bunları görürük. Bütün bunlar çox dəhşətlidir. Mənə həmkarlarım bu barədə danışmışdılar, ilk dəfə fotoşəkillərdə bu dəhşətli mənzərəni görmüşdüm. Ancaq həmin mənzərəni canlı görəndə, hisslərini ifadə edə bilmirsən. Bu, talançılıqdır, kanalizasiya borularını belə çıxarıblar".

Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri qeyd edib ki, hər yerdə minalanmış sahə nişanları qoyulub. "Ermənistan rəhbərliyi minalanmış ərazilərin xəritələrini Azərbaycana verməkdən imtina edir. Aydındır ki, onlar bu hərəkətləri ilə vaxtilə bu ərazini tərk etməyə məcbur olmuş insanların geri qayıtmasına mane olmağa çalışırlar. Bu addım açıq formada Ermənistanın siyasi rəhbərliyinin mövqeyini göstərir. Bu, tamamilə qeyri-konstruktiv addımdır", - deyə o bildirib.

D.Savelyev deyib ki, artıq sülh yolu ilə irəliləmək lazımdır: "Müharibə qurtarıb, əraziləri bərpa etmək, sülh şəraitində yaşamaq lazımdır. Ermənistanın iqtisadiyyatına baxın, insanlar ölkəni tərk edirlər. İşğalla əlaqədar Ermənistan blokada vəziyyətindədir. İndi iqtisadi əməkdaşlığı inkişaf etdirmək, bu ərazilərdə həyatı yenidən dirçəltmək lazımdır. Buna görə də Ermənistandan konstruktiv, sağlam addımlar gözləyirik. Bu ərazilərin hamısı minalardan təmizlənməlidir".

O, Ağdamın yenidən abad şəhərə çevriləcəyinə əminliyini ifadə edib: "İnanırıq ki, qarşıdakı illərdə burada yeni müasir şəhər salınacaq, didərgin düşmüş əhali öz yerlərinə dönəcək. Burada yenə də həyat qaynayacaq, küçələrdə uşaqların gülüş səsləri eşidiləcək".

# İŞİMİZ, GÜZƏRANIMIZ

# Kim inanardı ki, vaxt gələcək Hacıqabulda yük avtomobilləri istehsal olunacaq

## İlham Əliyevin regional inkişaf proqramları bunu da reallaşdırdı

**Prezident Hacıqabul rayonuna növbəti 7-ci səfərini etdi. Məlumdur ki, dövlət başçısının rayonlara hər bir səfəri həmişə əlamətdar hadisələrlə yadda qalır. İlham Əliyev müxtəliftəyinatlı yeni obyektlərin açılışını edir, yenilərinin təməlini qoyur. Həyata keçirilən hər bir layihə isə bu və ya digər rayonun, bölgənin, bütövlükdə ölkənin iqtisadi inkişafına, insanların rifahının yaxşılaşmasına təkan verir.**














Hacıqabula səfəri çərçivəsində dövlət başçısı ilk olaraq rayonda istifadəyə verilən Sənaye Məhəlləsinin açılışını etdi. Sənaye Məhəlləsində yerləşən "Azərmaş" zavodunda hər il 1500 yük və müxtəlif təyinatlı avtomobil istehsal olunacaq. Ölkəmizdə fəaliyyət göstərən fermerlər, iş adamları bu zavodun təməli qoyulanda hədsiz sevindilər, əmin oldular ki, nəqliyyat sarıdan yaranan müəyyən çətinliklər tezliklə aradan götürüləcək, hər kəs Hacıqabulda yığılacaq "QAZ" markalı yük maşını almaq imkanı əldə edəcək. Məhz buna görə hamı zavodun işə düşəcəyi günü səbirsizliklə gözləyirdi. Nəhayət, həmin gün gəlib çatdı. Prezident zavodun açılışını etdi. Bu isə o deməkdir ki, kənd təsərrüfatı ilə məşğul olan hər kəs yaxın zamanda yeni avtomobillə məhsulunu istədiyi ünvana rahat çatdıra biləcək.

Azərbaycan sürətlə inkişaf etməkdədir. Bu inkişaf bütün sahələri əhatə edir. Ona görə də yerli və xarici investorlar sənayedə, kənd təsərrüfatında, tikinti-quruculuqda, sosial sahələrdə yeni, müasir texnika və texnologiyaların respublikamızda tətbiqi sahəsində fəallıqlarını artırırlar. Hacıqabul Sənaye Məhəlləsindəki "Uyusal Ambalaj" plastik su qabları istehsalı müəssisəsini də bu sıraya aid etmək olar. Burada ildə müxtəlif ölçülü 350 min su qabı istehsal ediləcək. Sahibkar Cengiz Aygör dövlət başçısına məlumat vermişdir ki, bundan sonra Azərbaycanda su istehsalı ilə məşğul olan müəssisələrin xarici bazarlardan belə qabları almasına ehtiyac olmayacaq.

Ancaq ölkəmizdə istehsal olunan təkcə bunlar da deyil. Artıq bir çox kənd təsərrüfatı maşınları, habelə mineral gübrələr də Azərbaycanda istehsal olunur. Gəncədə yığılan "MTZ-80" markalı traktorlar əkinçilərin qayğılarını xeyli dərəcədə azaltmışdır. Sumqayıt şəhərində bir neçə il bundan öncə İtaliyadan gətirilən avadanlıqlarla qurulmuş mineral gübrələr zavodunun məhsulları isə xarici ölkələrə də ixrac olunur.

Prezident Hacıqabula səfəri zamanı Sənaye Məhəlləsində daha bir istehsal obyektinin - "AzAgromila" müəssisəsinin işə düşməsinə start verdi. Burada il ərzində 600 min ton gübrə istehsal ediləcək. Ümumiyyətlə, Hacıqabul Sənaye Məhəlləsində 10 müəssisə qurulub və sahibkarlar tərəfindən bu layihələrin icrasına 45,44 milyon manat investisiya cəlb olunub. Sənaye Məhəlləsindəki mövcud layihələr üzrə 364 iş yeri yaradılacaq.

Sözügedən sənaye kompleksi tikilərkən sahibkarların ən çox diqqət yetirdiyi məsələ - onun yerləşdiyi coğrafi ərazi başlıca şərt kimi götürülmüşdür. Belə ki, Sənaye Məhəlləsi Ələt Ticarət Limanına yaxın məsafədə yerləşir. Bu da öz növbəsində istehsal olunan məhsulların dünyanın müxtəlif ölkələrinə yola salınmasına əlverişli imkan yaradır.

Yoldan söz düşmüşkən. Son 17 ildə ölkəmizdə 16 min kilometrdən çox avtomobil yolu çəkilmiş və yenidən qurulmuşdur. Bu yollarla daşınan yüklərlə şəhərlərimiz, qəsəbə və kəndlərimiz abadlaşaraq simalarını dəyişmişdir. Yol infrastrukturunun yenilənməsi Hacıqabulda da özünü aydın göstərir. Yolların qovşağında yerləşdiyi üçün istər avtomobil, istərsə də dəmir yolu xətləri rayonun ərazisindən keçib gedir.

Dövlət başçısı Hacıqabulda daha bir yolun - uzunluğu 11,5 kilometr olan Hacıqabul-Muğan avtomobil yolunun açılışını etdi. Bu yol 32 min nəfərin yaşadığı 2 yaşayış məntəqəsi arasında əlaqəni yaxşılaşdırır. Eyni zamanda əhalinin həm Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi yoluna, həm də Bakı-Şirvan yolu vasitəsilə digər şəhər və rayonlara rahat gediş-gəlişini təmin edir.

Bu gün pambıqçılıq prioritet sahə kimi Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Xam pambığın satınalma qiymətinin artırılması, pambıqçılara əlavə subsidiyaların verilməsi sahəyə marağı artırmışdır. Ötən il ölkə üzrə hər hektardan orta hesabla 33,6 sentner məhsul əldə edilmişdir. Hacıqabulda isə 2020-ci ilədək pambıqçılıqdakı göstəricilər ürəkaçan deyildi. Rayona yeni rəhbər təyin olunmuş Rüstəm Xəlilov yaranmış geriliyin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər gördü. Onu da qeyd edək ki, pambıqçılıq R.Xəlilov üçün yad sahə deyil. O, Sabirabad rayonunda Azərbaycanda adlı-sanlı təsərrüfat rəhbəri kimi tanınan Sosialist Əməyi Qəhrəmanı Gülabba Xəlilovun ocağında dünyaya göz açıb, onun məktəbini keçib, müxtəlif vəzifələrdə çalışıb, Milli Məclisə deputat seçilib. Rayonda işlərin vəziyyəti ilə tanış olan R.Xəlilov öncə fermerlərin müşavirəsini keçirdi, kadrların məsuliyyət hissinin artırılmasını önə çəkdi. Eyni zamanda mövcud çətinlik və çatışmazlıqları aradan qaldırmaq üçün əlaqədar nazirliklər və qurumlar qarşısında məsələlər qaldırdı. Nəticə özünü çox gözlətmədi. Keçən il rayon üzrə pambıq əkilən 260 hektardan 791 ton məhsul yığıldı. Məhsuldarlıq isə əvvəlki illərlə müqayisədə xeyli çox - hər hektardan 30,04 sentner oldu. Rayon pambıqçıları cari ildə daha yüksək göstəricilərə nail olmaq niyyətindədirlər. Artıq çiyid səpini başa çatıb.

Aqroparkların yaradılması kənd təsərrüfatının ixtisaslaşmasına, yeni texnika və texnologiyaların tətbiqinə geniş imkanlar açmışdır. Son illər ayrı-ayrı rayonlarda onlarca belə təsərrüfatlar yaradılmışdır. Onlardan biri də "Agro Dairy" MMC-dir. Aqroparkda növbəli əkin sistemi, intensiv aqrotexnologiyalar tətbiq edilir, təkrar əkin həyata keçirilir. Nəticədə eyni sahədən bir ildə iki dəfə məhsul alınır. Burada yeni toxum sortları da yaradılır.

Məlumdur ki, elektrik enerjisi sənaye ilə yanaşı, kənd təsərrüfatı üçün də vacib sahədir. Əkinçilikdə, heyvandarlıqda müasir texnika və innovasiyaların tətbiqini elektrik enerjisiz təsəvvür etmək çətindir. Son illər bölgələrimizdə müxtəlif gücdə elektrik stansiyalarının, yarımstansiyaların tikilməsi, yenidən qurulması gözlərimiz qarşısında baş vermişdir. Bu yaxınlarda onların sırasına biri də əlavə edilmişdir. Bu, Hacıqabul rayonu ərazisində inşa edilmiş və dövlət başçısının açılışını etdiyi 110/35/10 kilovoltluq Qarasu yarımstansiyasıdır. Yarımstansiya 10 mindən çox əhalinin elektrik enerjisinə olan tələbatının daha keyfiyyətli və dayanıqlı ödənilməsinə imkan verir. Onun sayəsində eyni zamanda Hacıqabul rayonu ərazisində yerləşən sənaye obyektlərinin, ən əsası, 250 min hektar əkin sahəsinin suvarma sistemlərinin enerji təchizatı günün tələblərinə cavab verir.

Hacıqabulda yeni istifadəyə verilən istehsal sahələrindən biri də "Azərsun Şamaxı Aqroparkı"dır. Müəssisə 2 hissədən - əkin sahələri və heyvandarlıq komplekslərindən ibarətdir. Heyvandarlıq kompleksində 2 mini südçülük istiqamətində olmaqla 5 min baş qaramal saxlanılır. Gündəlik süd istehsalı 50 tondur. Müəssisə gələn ildən etibarən 1000 baş damazlıq düyə yetişdirməyi hədəfləyir.

Aqroparkın istifadə etdiyi 4 min 200 hektar əkin sahəsində isə buğda, arpa, şəkər çuğunduru, qarğıdalı, yonca və müxtəlif növ tərəvəz bitkiləri əkilir. 77 milyon manat sərmayənin yaratdığı aqroparkda 200 nəfər daimi işlə təmin olunmuşdur.

Sahib Aslanov, Hacıqabul Rayon Ağsaqqallar Şurasının sədri:

- Həmişə olduğu kimi, Prezidentin rayona budəfəki səfəri də əhali tərəfindən böyük sevinc və fərəh hissi ilə qarşılandı. Hər kəs qalib ölkənin qalib Prezidentini görmək, 30 ilə yaxın mənfur erməni vandallarının tapdağı altında qalan Qarabağ torpaqlarımızı 44 gün ərzində işğaldan azad etdiyi üçün ona "Çox sağ olun, mənim Prezidentim, Siz yaşı qədimdən də qədim olan Azərbaycan tarixinin ən şanlı, şərəfli səhifəsini yazdınız, bizim və dövlətimizin başını uca etdiniz!" - demək istəyirdi. Bəli, dəmir yumruq düşmənin başını əzdi. İndi torpaqlarımız azaddır. Qarabağda görüləsi işlər çoxdur. Bununla əlaqədar dövlət başçısı ardıcıl olaraq Şuşaya, Ağdama, Füzuliyə, Cəbrayıla - bir sözlə, işğaldan azad edilmiş rayonlarımıza səfər edir, orada aparılan quruculuq işlərinin gedişini istiqamətləndirir, tapşırıq və tövsiyələrini, göstərişlərini verir. İşinin belə gərgin vaxtında cənab Prezident digər rayonlarımızın inkişafını da yaddan çıxarmır. Rayonumuza səfəri bu baxımdan böyük əhəmiyyət kəsb edir. O, bir sıra sənaye və kənd təsərrüfatı obyektlərinin lentini kəsdi. Bu gün həmin müəssisələr rayonumuzun iqtisadiyyatını daha da gücləndirir, yeni iş yerlərinin açılmasına şərait yaradır. Bütün bunlar isə rayon əhalisinin həyat səviyyəsinin yaxşılaşması deməkdir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# "SOCAR Turkey"in 3 müəssisəsi "Sıfır tullantı sertifikatı" alıb

Türkiyənin ən böyük birbaşa xarici investoru "SOCAR Turkey"in İzmirin Əliağa bölgəsində Emal və Neft-Kimya bölməsi tərkibində fəaliyyət göstərən törəmə müəssisələri "Petkim", "Star" NEZ və SOCAR Türkiyə Akaryakıt Depolama A.Ş. "Sıfır tullantı tənzimlənməsi" çərçivəsində bütün tələbləri yerinə yetirərək Ətraf Mühit və Şəhərsalma Nazirliyi tərəfindən "Sıfır tullantı sertifikatı"na layiq görülüb.

SOCAR-dan AZƏRTAC-a bildirilib ki, beləliklə, hər 3 müəssisə tullantı tənzimlənməsi sahəsində müvafiq avadanlıq və sistem infrastrukturunu tamamlayaraq qanunvericilikdə göstərilən tələblərə riayət etdiklərini və tullantıları mənbəyində ayıraraq onların təkrar emaldan sonra iqtisadiyyata geri qazandırıldığını rəsmiləşdirmiş oldu.

Davamlılıq siyasəti çərçivəsində "Petkim", "Star" NEZ və SOCAR Depolama müəssisələrinin istehsal bölmələri üçün tullantıların birgə idarə olunması sisteminin qurulduğunu bildirən SOCAR Türkiyə Emal və Neft-Kimya bölməsinin rəhbəri Anar Məmmədov deyib: "Üç şirkətimizdə başlatdığımız Sıfır Tullantı Layihəsi ilə mənbələrin daha səmərəli istifadəsini və tullantıların yerində toplanaraq iqtisadiyyata geri qazandırılmasını hədəfləyirik. Bu istiqamətdə bütün istehsal sahələrimizdə tullantıların idarəolunması sistemlərini və tullantı toplayan maşınlarımızı yenilədik. Tullantıların müvəqqəti saxlandığı sahələri yaxşılaşdırdıq. İl ərzində bütün əməkdaşlarımız üçün təlimlər və maarifləndirmə tədbirləri həyata keçirdik. Görülən işlər nəticəsində SOCAR Türkiyə Emal və Neft-Kimya bölməsi tərkibində fəaliyyət göstərən istehsal müəssisələrində təkrar emal həcmini 32 faizə qədər artırdıq. Fəaliyyətlərimiz nəticəsində aldığımız "Sıfır tullantı sertifikatı" gələcək işlərimizdə bizə stimul olacaq".

Prezident Rəcəb Tayyib Ərdoğanın xanımı Əminə Ərdoğanın himayəsi ilə 2017-ci ildə həyata keçirilən Sıfır Tullantı Layihəsi dayanıqlı inkişaf prinsipləri çərçivəsində tullantıların nəzarətə alınması və gələcək nəsillərə təmiz bir Türkiyənin, yararlı bir dünyanın ötürülməsi məqsədini daşıyır. Ətraf Mühit və Şəhərsalma Nazirliyi tərəfindən həyata keçirilən layihə çərçivəsində Sıfır Tullantı Tənzimlənməsi meyarlarına əməl edən şirkət və qurumlara 5 il müddətinə qüvvədə olan "Sıfır tullantı sertifikatı" verilir. Bu sertifikatın alınmasından sonra növbəti 12 ay ərzində gümüş, qızıl və platin sıfır tullantı sertifikatı üçün müraciət etmək olar. SOCAR Türkiyə Emal və Neft-Kimya bölməsinə daxil olan istehsal müəssisələri növbəti il ərzində gümüş, qızıl və ya platin sıfır tullantı sertifikatı üçün müraciət etməyi planlaşdırır.

# Düzgün hesablanmayan pensiyalara yenidən baxılır

## Keçən il və bu ilin ilk rübündə 12,8 mindən çox şəxsin pensiyası artırılıb

**Dövlət Sosial Müdafiə Fondu ötən illərdə təyin olunmuş pensiyaların məbləğlərinin qanunvericiliyin tələblərinə uyğunluğunun araşdırılmasını davam etdirir.**

Araşdırmalar nəticəsində 12809 şəxsin pensiya məbləğlərinin qanunvericilikdə nəzərdə tutulandan aşağı məbləğdə hesablandığı müəyyən edilib. Beləliklə, sosial ədalətin təmin edilməsi məqsədilə həmin şəxslərin pensiya məbləğləri qanunauyğun şəkildə yenidən hesablanaraq artırılıb. Artımlar onlara pensiya hüquqlarının yarandığı tarixdən və ya qanunvericiliyin tələbinə uyğun hallarda əvvəlki üç il üçün hesablanaraq verilib.

Həmin artımların təmin edilməsi üçün əlavə olaraq illik 8 milyon manat vəsait ayrılıb. Bundan başqa, keçmiş dövr üzrə ödənilməli olan 14,5 milyon manat fərq hesablanaraq aylıq pensiya məbləğlərinin üzərinə əlavə edilməklə hissə-hissə ödənilir.

Beləliklə, həmin şəxslərə pensiya ödənişi müddətində əlavə olaraq 80 milyon manatdan çox vəsait ödənəcək.

Hazırda da bu tipli araşdırmalar davam etdirilir.

# Paytaxt sənayesində qeyri-dövlət sektorunun payı 84,5 faiz olub

**Cari ilin yanvar-mart aylarında paytaxt sənayesində istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz artaraq 8,8 milyard manat təşkil edib.**



AZƏRTAC Bakı Şəhər Statistika İdarəsinin yaydığı məlumata istinadla xəbər verir ki, sənaye məhsulunun 77,6 faizi mədənçıxarma, 18,6 faizi emal, 3,1 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub.

Sənayedə qeyri-dövlət sektorunun payı 84,5 faiz təşkil edib. İstehsalın ümumi həcmində sənaye məhsulunun payı 89,9 faiz, sənaye xarakterli xidmətlərin göstərilməsi isə 10,1 faiz olub. İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilib, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 340,6 milyon manatlıq hazır məhsul ehtiyatı olub. Sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 84,3 milyon manat məbləğində digər məhsullar da mövcud olub.




## Pandemiya dövründə layihə üzrə işlər vəziyyətə uyğunlaşdırılmaqla fasiləsiz aparılır

***Əvvəli 1-ci səh.***

2017-ci ilin sentyabr ayında AÇG-nin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş sazişin imzalanması da bu amilə əsaslanır. Yeni saziş 2050-ci ilin əvvəlinədək davam edəcək.

Hazırda bu müqaviləyə əsasən, "Azəri Mərkəzi Şərqi" (ACE) layihəsi çərçivəsində quruda və dənizdə bir sıra tikinti-quraşdırma işləri həyata keçirilir. Koronavirus pandemiyasının yaratdığı çətinliklərə və məhdudiyyətlərə baxmayaraq, digər neft-qaz layihələrində olduğu kimi, ACE-də də işlər vəziyyətə uyğunlaşdırılmaqla fasiləsiz aparılır.

bp Azərbaycan şirkətinin məlumatına görə, bu ilin birinci rübünün sonuna layihə üzrə müfəssəl mühəndis-layihələndirmə işləri ümumilikdə başa çatıb. İri avadanlıq yüklərinin və irihəcmli materialların Bakıya daşınması da tikinti-quraşdırma işlərinin qrafikinə uyğun həyata keçirilib. Belə ki, hazırda "Azəri Mərkəzi Şərqi" layihəsi çərçivəsində eyni adlı platforma inşa edilir. Platformanın üst modullarının və qazma avadanlıqlarının istehsal-quraşdırma işləri Bibiheybətdəki tikinti sahəsində aparılır. Çoxsaylı əməliyyatların daxil olduğu ağır yüklərin qaldırılması proqramı indiyədək uğurla irəliləyib. Eləcə də mexaniki avadanlıq dəstlərinin quraşdırılması davam edib, boru xətlərinin quraşdırılması, dikəldilməsi və kabellərin çəkilməsi işlərinə başlanıb. Plan üzrə nəzərdə tutulan mexaniki avadanlıq dəstlərinin yoxlanılması və bəzi digər avadanlıqların çatdırılması işləri yerinə yetirilib. Yaşayış modullarının və əsas gəmi yüklərinin çatdırılması işləri də plan üzrə gedib. Belə ki, yaşayış modulları İsveçdən artıq yola salınıb və onların yaxın vaxtda Bakıya çatacağı gözlənilir.

Birinci rübdə Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda dayaq blokunun tikintisi həm quraşdırma sexlərində, həm də stapelin üzərində olmaqla bütün sahələrdə davam edib. Sualtı qurğuların və birləşdirici dirsəklərin istehsal-quraşdırma işləri də qrafiklə irəliləyib.

Bu müddət ərzində layihənin dəniz işlərinin həmçinin bir sıra digər hissələri yerinə yetirilib. Bunlara lay sularının idarə olunması ilə bağlı "Mərkəzi Azəri" platformasında aparılan işlər və növbəti əməliyyatlara hazırlıq daxildir.

Adətən hər yeni platformadan hasilatı qəbul etmək üçün Səngəçal terminalında müəyyən avadanlıqlar quraşdırılır və s. Bu baxımdan ACE də istisna təşkil etmir. Belə ki, terminalda yerləşəcək ACE nəzarət otağının layihələndirilməsi tamamlanıb və planlaşdırılmış modifikasiya işlərinə bu ilin dördüncü rübündə başlanacaq.

Ümumilikdə 2023-cü ildə ACE layihəsindən ilk hasilatı əldə etmək üçün həyata keçirilən mühəndis-layihə, tədarük və istehsal-quraşdırma işləri qrafikə uyğun davam edir.

"Azəri Mərkəzi Şərqi" AÇG-nin 9-cu platforması olacaq. Hazırda yataqda 8 platforma fəaliyyət göstərir. Bunlardan 6-sı hasilat, 2-si isə emal, qazın kompressiyası, suvurma və texnoloji təchizat qurğusudur.

İlin ilk üç ayında AÇG-dən, ümumilikdə təxminən 44 milyon barel, yəni 6 milyon ton neft hasil edilib. Gündə orta hesabla "Çıraq"dan 30 min, "Mərkəzi Azəri"dən 112 min, "Qərbi Azəri"dən 130 min, "Şərqi Azəri" 79 min, "Dərinsulu Günəşli"dən 89 min və "Qərbi Çıraq"dan 44 min barel neft alınıb. Beləliklə, AÇG-nin gündəlik orta hasilatı 484 min barel təşkil edib.

Xatırladaq ki, AÇG-də iştirak payları belədir: bp (30,37 faiz), SOCAR (25 faiz), MOL (9,57 faiz), İNPEKS (9,31 faiz), "Ekvinor" (7,27 faiz), "EksonMobil" (6,79 faiz), TPAO (5,73 faiz), İTOÇU (3,65 faiz), ONGC Videş Limited (2,31 faiz). AÇG üzrə Hasilatın Pay Bölgüsü Sazişinin podratçı tərəfləri adından "BP Exploration (Caspian Sea) Limited" şirkəti operatordur.

Qeyd edək ki, Azərbaycanın qaz potensialının da önəmli hissəsi AÇG yataqları hesabına formalaşır. Buradan çıxarılan səmt qazının bir hissəsi layların təzyiqini saxlamaq üçün yenidən kollektora vurulur. Mavi yanacağın xeyli hissəsi isə Azərbaycanın daxili istifadəsi üçün Səngəçal terminalından SOCAR-a məxsus kəmərlə "Azəriqaz" şəbəkəsinə ötürülür. Məsələn, cari ilin ilk rübü ərzində AÇG-dən SOCAR-a əsasən Səngəçal terminalı, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 11,6 milyon kubmetr, ümumilikdə isə 1 milyard kubmetr səmt qazı verilib. Hasil edilən səmt qazının qalan hissəsi adəti üzrə yenidən laylara vurulub.

Beləliklə, AÇG 27 ilə yaxındır etibarlı tərəfdaşlıq, ekoloji baxımdan zərərsiz əməliyyatlar sayəsində təhlükəsiz işlənir və 23 ildən çoxdur ahəngdar şəkildə neft-qaz verir. Hazırda bu yataqlar blokundan hasil edilən neft və səmt qazı platformalardan sualtı xətlər vasitəsilə Səngəçal terminalına çatdırılır və karbohidrogenlər istehlakçılara buradakı ixrac marşrutları ilə yola salınır.

Prezident İlham Əliyev "Azəri-Çıraq-Günəşli"də hasilatın sabit saxlanılmasının vacib məsələ olduğunu qeyd edərək dəfələrlə vurğulamışdır ki, bu yataqlar bizim əsas gəlir mənbəyimizdir və bunu hər kəs bilməlidir.

Qeyd edək ki, AÇG yataqlar blokunun işlənməsi layihəsinin reallaşdırılması çərçivəsində cari ilin ilk üç ayında 953 milyon 498 min dollar gəlir əldə olunub. Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) İctimaiyyətlə əlaqələr departamentinin bu məlumatında həmçinin bildirilir ki, AÇG layihəsi üzrə keçən ildəki gəlir 3 milyard 522,7 milyon dollar təşkil edib. Beləliklə, AÇG Azərbaycan iqtisadiyyatının dayaq sütunlarından biri olaraq qalır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycan və Türkiyə nizamişünasları şairin 880 illiyinə həsr edilən konfransda bir araya gəldilər

**2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsi ölkəmizdə klassik ədəbi irsimizin, milli ədəbiyyatımız və mədəniyyətimizin görkəmli simalarının təbliği sahəsində atılan növbəti addımdır.**



Öz yaradıcılığı ilə bütün dünyada şöhrət qazanan, poetik aləmin dühası hesab edilən Nizami Gəncəviyə dövlət səviyyəsində verilən dəyər, söz yox ki, onun zəngin irsinin yenidən araşdırılması və təbliği istiqamətində yeni imkanlar açır.

"Nizami Gəncəvi və ədəbi mirası" mövzusunda keçirilən beynəlxalq videokonfransda bütün bunlar barəsində ətraflı söhbət getmişdir. Gəncə Dövlət Universiteti ilə Türkiyənin Kastamonu Universitetinin birgə təşkil etdikləri videokonfransda dahi şairin bəşəri ideyalarla zəngin olan bədii irsi ətrafında maraqlı fikirlər səslənmişdir.

Konfransı giriş sözü ilə Kastamonu Universitetinin professoru Orhan Söylemez açaraq iki qardaş ölkənin birgə ədəbi əlaqələrindən, eləcə də Nizami Gəncəvinin yaratdığı ölməz əsərlərdən danışmışdır. Diqqətə çatdırmışdır ki, Nizami Gəncəvi dünya ədəbiyyatının və mədəniyyətinin nadir şəxsiyyətlərindən biridir. Nizami dühasının bu gün də dünya ədəbi-mədəni və ictimai-fəlsəfi fikrində təsiri qalır. Buna görədir ki, dünya ədəbi-elmi fikrində Nizami sənətinə olan maraq heç vaxt azalmır. Şairin ölməz əsərləri zaman-zaman istər Qərb, istərsə də Şərq dillərinə tərcümə edilərək bəşəriyyətin mənəvi kamilləşməsi prosesində öz rolunu oynayır.

Sonra Türkiyənin Giresun Universitetinin professoru Beyhan Kesik "Klassik türk ədəbiyyatında Leyli və Məcnun hekayələri", Kastamonu Universitetinin professorları Abdullah Aydın "Osmanlı şairlərinə görə Nizami Gəncəvi" və professor Vüsalə Musalı "Osmanlı ədəbiyyatı", Gəncə Dövlət Univrsitetinin professorları Mübariz Yusifov "Nizami şəxsiyyəti və Nizamidə obrazlaşdırma haqqında" və nizamişünas alim Xəlil Yusifli "Nizami Gəncəvinin həyatı ilə bağlı mülahizələr" mövzusunda məruzələrlə çıxış etmişlər.

Məruzəçilər qeyd etmişlər ki, Nizami Gəncəvi yaradıcılığı səkkiz əsrdən artıqdır ki, Azərbaycan xalqının ayrılmaz hissəsinə çevrilmişdir. Böyük sənətkarın bütün həyatı və zəngin ədəbi fəaliyyəti Yaxın və Orta Şərqin mühüm mədəniyyət mərkəzi kimi tanınmış Gəncə ilə bağlıdır. Şair ömrü boyu burada yaşayıb-yaratmış və dünya poeziyasına bir-birindən dəyərli söz sənəti inciləri bəxş etmişdir. Mütəfəkkir şairin məşhur "Xəmsə"si insanlığın mənəvi sərvətlər axtarışının zirvəsində dayanaraq, dünya ədəbiyyatının şah əsərləri sırasında layiqli yer tutur. Qüdrətli söz ustasının bəşəriyyətin bədii fikir salnaməsində parlaq səhifə açmış ölməz əsərləri bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsinə xidmət edir.

Videokonfrans iştirakçıların arzu və təklifləri ilə başa çatmışdır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Tolerantlıq nümunəsi

## Ermənilər Qarabağda məscidləri dağıtdılar, amma Azərbaycan kilsəni də bərpa edir

**Tolerantlıq da, multikulturalizm də hələ leksikonumuza daxil olmadan, bu sözlərin mənasına varmadan Azərbaycan xalqı tolerantlıq şəraitində yaşayırdı və multikultural idi. Prezident İlham Əliyevin dediyi kimi, bu, bizim həyat tərzimizdir.**

Keçmişdə də belə olub, bu gün də belədir, sabah da belə olacaq. Çünki başqa xalqları, millətləri, dinləri, adət-ənənələri sevmək, onlara hörmətlə yanaşmaq, şad günlərini, bəd günlərini özümüzünkü kimi qeyd etmək, amma heç bir vəchlə onların olana sahiblənməmək bizim mənəviyyatımızdadır.

Bu gün Şuşada erməni işğalından zərərgörmüş kilsə də təmir edilir. Bakının mərkəzində qorunub-saxlanan kilsəyə gəldikdə isə, necə vardısa, eləcə də qorunub saxlanılır. Bununla öyünməyə ehtiyacımız da yoxdur. Çünki biz dədə-babadan belə görmüşük. Tarixi və dini abidələr, məzarlıqlar mədəni irsdir. Onlara toxunmaq, onları dəyişmək olmaz, yalnız zamanla sıradan çıxarsa, bərpa edib qorumaq lazımdır. Onları dağıtmaq dilimizdə işlək olmayan, vəhşi qonşudan eşitdiyimiz söz birləşməsidir. Dəyərdirsə, demək, bizim dəyərlərimiz əziz olduğu kimi, başqa millətlərin də ərazimizdə olan dəyərlərinə hörmətlə yanaşmalıyıq.

Xalqımızın başqasının nə torpağında, nə dilində, nə tarixində, nə də mədəniyyətində gözü yoxdur. Azərbaycan hər cəhətdən zəngin ölkədir, heç nədən kasadlığı yoxdur ki başqasının dəyərlərinə, tarixinə göz diksin.

Amma 30 ilə yaxın işğal dövründə Ermənistan Qarabağda daş üstə daş qoymayıb. Həm də milli-mədəni dəyərlərimizə qarşı cinayət törədib, mədəni irsimizi yerləyeksan edib. Tarixi-dini abidələri, muzeyləri soyqırımına məruz qoyub. Ədiblərimizin, korifeylərimizin büstlərini güllələyəcək qədər mənəviyyatsızlıq nümunəsi yaradıblar. Dahi Üzeyir bəyin, Natəvanın, Bülbülün heykəlləri güllələnmiş vəziyyətdə Bakıya gətirilməsəydi, bu gün onlar da məhv edilənlərin sırasında idi. Natəvanın məzarı belə qazılıb.

Şuşada Gövhər ağa, Ağdamda Cümə, Zəngilanda "İmam Hüseyn", ümumiyyətlə Qarabağın hər yerində məscidləri erməniləşdirmək istəyiblər. Buna nail ola bilmədikləri halda dağıdıblar, təhqir ediblər, divarlarına təhqiramiz ifadələr yazıblar, mal-qara saxlayıblar.

Düşmən Qarabağın tarixini yazan, Şuşanın özülünü qoyan şəxsiyyətlərin bütün izini silib o torpaqlardan. Saxladığı tarixi binaları isə yalnız məkrli məqsədlə ediblər. Ağdamdakı Şahbulaq qalası kimi tarixini, tarixiliyini saxtalaşdırmağa çalışıblar. Azərbaycan Respublikasının işğal olunmuş Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonunda, eləcə də Ermənistanla sərhəddə yerləşən Qazax rayonunun yeddi kəndində və Naxçıvanın Kərki kəndində 22 muzey, 927 kitabxana, 808 klub, 4 teatr və 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, 4 rəsm qalereyası və 85 musiqi məktəbi talan edilib.

Azərbaycanın işğal edilmiş ərazilərində dünya əhəmiyyətli abidələrə Cəbrayılda orta əsrlərə aid 11 və 15 tağlı Xudafərin körpüləri, Tunc dövrünə aid Niftalı kurqanları, Kəlbəcərdə orta əsrlərə aid Gəncəsər və Xudavəng monastırları, Ağdamda XIV əsrə aid Qutlu Musa oğlu türbəsi və Tunc dövrünə aid Üzərliktəpə yaşayış massivi, Xocavənddə Paleolit dövrünə aid Azıx və Tağlar mağarası, Xocalıda Tunc və Dəmir dövrünə aid kurqanlar daxildir.

Bunları saymaqla bitməz...

Bu gün Azərbaycan Qarabağda dağıdılmış bütün milli-mənəvi dəyərlərini bərpa edir. Azərbaycan həm də digər millətlərin dəyərlərini öz ərazilərində bərpa edəcək qədər ləyaqətlidir. Dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları eyni hüquqlara malikdirlər və bu hüquqlar qorunur. Çünki məmləkətimizdə hökm sürən ictimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə ölkəmiz dözümlülük, tolerantlıq məkanı olub. Bu gün müstəqil Azərbaycan öz siyasətini bu möhkəm təməl üzərində qurur. Təsadüfi deyil ki, bu siyasətə töhfə verən Heydər Əliyev Fondu mənəvi dəyərlərin qorunmasına xidmət edən nəcib missiyasını yalnız Azərbaycan daxilində deyil, ondan kənarda da həyata keçirir. Mədəni irsin qorunması, bərpası üçün çalışır, həm də yalnız Azərbaycanın yox, başqa millətlərin də. Prezident İlham Əliyev deyib: "Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə, bütün xalqları birləşdirir. Eyni zamanda hər bir ölkənin öz qaydaları, öz ənənələri vardır".

İndi Qarabağda tarixi, mədəni irsin bərpası üçün işlərə başlanılıb. Və mədəni irsinə, tarixi, memarlıq, dini abidələrinə bu qədər vandalcasına qəsd edilən Azərbaycan bu gün Qarabağda bütün mənəvi dəyərləri, o cümlədən Şuşada ermənilərin dağıtdıqları kilsəni də bərpa edir...

*Ramilə QURBANLI,*
*"Azərbaycan"*

# Koronavirusun uşaqların həyatına təsir etdiyi vaxtda onları qorumaq vacibdir

Pandemiya kimi dünyanı bürüyən COVID-19 insanlara bir sıra qayda-qanunlara əməl etmək vərdişlərini də aşıladı. Tibb mütəxəssisləri xüsusi olaraq bunun uşaqların həyatında daha çox hiss olunduğu qənaətindədirlər.

Məsələn, ailə koronavirus xəstəliyinin tüğyan etdiyi bir vaxtda evdə qalmağa məcburdur. Bu zaman çox güman ki, uşaqlar vaxtlarının böyük hissəsini internetdə keçirirlər. Məktəb, dostlar, nənələr və babalarla ünsiyyət, hətta musiqi dərsləri - axı bir çox şeylər internet məkanına köçüb.

Bir-biri ilə əlaqə saxlamaq uşaqlara və yeniyetmələrə bu yeni həyat normasının təsirini azaltmağa kömək edir. Bu da normal olmasa belə, həyatın davamı deməkdir. Lakin bu həmçinin hər bir valideyn üçün bəzi çətinliklər də yaradır. Bəs potensial zərəri minimuma endirməklə internetin təklif etdiyindən maksimum necə bəhrələnmək olar? Bu tarazlığı təmin etmək heç normal həyatda da asan məsələ deyil, o ki qaldı COVID-19 kimi səhiyyə böhranı ilə qarşılaşdığımız zaman.

Uşaqlar özlərini pandemiyadan qorumaq üçün qəbul edilən qanunlara əsasən, evdə qalmağa məcburdurlar. Əlbəttə, onların evdə məşğuliyyəti əsasən internet resursları ilə olur. Bu zaman onların mənfi hallarla qarşılaşması, təəssüf ki, qaçılmaz olur. Bunun da qarşısının alınması mütəxəssislər tərəfindən araşdırılmaqda və tövsiyələr şəklində valideynlərə çatdırılmaqdadır. Bu baxımdan beynəlxalq təcrübə daha çox diqqət çəkməkdədir. UNICEF-in "Uşaq Hüquqları & Biznes" üzrə mütəxəssisi Sara Yakobsenin bu məsələdə fikirləri maraqlıdır. O, uşaqların internetdə təhlükəsizliyini təmin etmək üçün valideynlərə kömək edə biləcək bir neçə üsulun olduğunu qeyd edir: "Əvvəla, onları açıq ünsiyyət vasitəsilə qoruyun. Uşaqlarınızla, onların kiminlə və necə ünsiyyət qurmaqları barədə dürüst dialoq aparın. Onların qarşılıqlı mehriban əlaqələrin dəyərini dərk etdiklərinə əmin olun. Belə əlaqələrdə ayrı-seçkilik və ya qeyri-etik ünsiyyət heç vaxt məqbul sayıla bilməz. Belə hallarla üzləşdiyi təqdirdə onları bu barədə dərhal sizə və ya etibar etdikləri böyüyə məlumat verməyə öyrədin.

Uşağınız internetdəki fəaliyyətləri nəticəsində məyus və özünə qapalı görünürsə, yaxud kiberbullinq ilə üzləşirsə, ayıq-sayıq olmalısınız. Cihazlardan necə, nə vaxt və harada istifadə edə biləcəkləri barədə qaydaları müəyyən etmək üçün uşağınızla birlikdə iş aparın..."

Uşaqları qorumaq üçün texnologiyadan istifadə olunmalıdır. Uşağın kompüterində ən son proqram təminatından və antivirus proqramlarının quraşdırıldığından, məxfilik parametrlərinin düzgün nizamlandığından əminlik yaranmalıdır. Veb-kameralardan istifadə etmədikdə onları qapalı saxlamaq lazımdır. Kiçikyaşlı uşaqlar üçün, təhlükəsiz axtarış daxil olmaqla, valideyn nəzarəti kimi alətlər internetdən istifadə təcrübəsinin müsbət olmasına kömək edə bilər. Pulsuz internet təhsil resursları ilə ehtiyatlı olmaq laziımdır. Uşaq bu resurslardan istifadə etmək üçün heç vaxt öz şəklini, tam ad və soyadını təqdim etməməlidir. Məlumatların toplanmasını minimuma endirmək məqsədilə məxfilik parametrlərini də yoxlamaq vacibdir. Valideynlər uşağa, xüsusilə tanımadığı yad insanlara şəxsi məlumatları açıqlamamağı öyrənməyə kömək etməlidir.

Göründüyü kimi, Sara Yakobsenin gəldiyi qənaətlərdən biri valideynlərin uşaqlarla birlikdə internetdə vaxt keçirmələrinin vacibliyidir. Mütəxəssis deyir ki, uşağın dostları, ailəsi və sizinlə qarşılıqlı təhlükəsiz və müsbət onlayn əlaqəsi üçün imkanlar yaradın. Çünki digər insanlarla ünsiyyət həmişəkindən daha vacibdir və bu sizin "qarşılıqlı virtual əlaqələrinizdə" xeyirxahlığı modelləşdirmək üçün əla fürsət ola bilər: "Uşağınızın COVID-19 virusu ilə əlaqədar narahatlıqlarını gücləndirə biləcək dezinformasiyanı və uyğun olmayan məzmunu tanımasına və ondan kənar durmasına yardımçı olmağı unutmayın. UNICEF və Ümumdünya Səhiyyə Təşkilatı kimi nüfuzlu beynəlxalq qurumların bir çox rəqəmsal resursları uşağınızla birlikdə virus haqqında məlumatlar əldə etməyiniz üçün istifadəyə verilib. Övladınızın yaşına uyğun proqram tətbiqlərini, oyunları və digər internet əyləncə vasitələrini müəyyən etmək də vacib məsələlərdəndir.

Koronavirus haqqında uşaqla danışmağın yolları da müxtəlifdir. Onları internetdə sağlam vərdişlərə alışdırmaq isə əsas şərtlərdəndir. İnternetdə və videozənglər zamanı uşağınızı yaxşı davranışa təşviq edin və onu nəzarətsiz buraxmayın. Onları sinif yoldaşları ilə münasibətlərdə nəzakətli və ehtiramlı olmağa, eləcə də geyindikləri paltarlara fikir verməyə, yataq otaqlarından görüntülü videozənglərə qoşulmaqdan çəkinməyə vərdiş yaratmaq lazımdır. Kiberbullinq və ya qeyri-etik internet məzmunla rastlaşdıqda, bu barədə məlumat vermək üçün məktəb siyasəti, habelə çağrı və dəstək mərkəzlərinin telefon xətləri ilə tanış olun".

Onu da deyək ki, uşaqlar internetdə daha çox vaxt keçirdiyi üçün onlar reklamlara məruz qala bilərlər ki, bunlar da qeyri-sağlam qidanı, qender stereotiplərini və ya yaşa uyğun olmayan materialları təbliğ edə bilər. Valideynlər onlara internet reklamlarını tanımaqda kömək etməyi unutmamalı, bəzi mənfi mesajların xətalı tərəflərini uşaqlarla birlikdə araşdırmalıdırlar.

Bəs kiberbullinqin öhdəsindən necə gəlmək olar? Bu sualın cavabını verərkən mütəxəssislər qeyd edirlər ki, onlara əylənmək və özlərini ifadə etmək imkanı verilməlidir.

Uşaqlarınızın vaxtlarını evdə qalaraq keçirməyi, onlara internetdə öz fikirlərini paylaşmaq və bu böhranda ehtiyacı olanları dəstəkləmək üçün gözəl fürsət ola bilər. Övladınızı, uşaqlar üçün internetdə idman təmrinlərinə dair və fiziki hərəkət tələb edən videooyunlar kimi rəqəmsal vasitələrdən faydalanmağa həvəsləndirin. Mümkünsə, evdən kənar vaxt daxil olmaqla, onlayn istirahətinizi internetdən kənar fəaliyyətlə tarazlaşdırmağı da unutmayın.







*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

**Abdulla Şaiq-140**

# Dövrünün görkəmli maarifçi ziyalısı

**XX əsr Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Abdulla Şaiq ömrünün yarıdan çoxunu xalq maarifinin inkişafına sərf etmişdi. O, şair, nasir, dramaturq, tərcüməçi, qayğıkeş pedaqoq olmaqla yanaşı, həm də bir çox dərs kitablarının müəllifidir. Abdulla Axund Mustafa oğlu Talıbzadə-Abdulla Şaiq 1881-ci il fefral ayının 21-də Tiflisin Şeytanbazar deyilən məhəlləsində anadan olmuşdu.**



Abdulla Şaiq doğulmamışdan öncə gənc ailədə Abdulla adlı bir oğlan uşağı dünyaya gəlmişdi. Onun gəlişi böyük sevincə səbəb olsa da bu, uzun sürməmişdi. O, körpə ikən dünyasını dəyişmişdi. Bir müddət gənc ata-ana uşağın yoxluğu ilə barışa bilmir. Lakin çox keçmir ki, ailənin qurduğu ocağa yeni sevinc gəlir. Allah-təalanın hökmü ilə Abdullanı əvəz edəcək körpə dünyaya göz açır. Uzun "səfərdən" gələn oğlan uşağı özü ilə bacı da "gətirir". Bu da ailənin ikiqat sevincinə səbəb olur. Ata əvvəlinci oğlunun adını yaşatmaq üçün yeni doğulmuş övladına Abdulla, qızına Raziyə (qayıdan) adını verir. Lakin təəssüflər olsun ki, Raziyə də çox yaşamır. Üçaylığında o da dünyasını dəyişir.

Abdullanın atası Axund Mustafa Süleyman oğlu dövrünün məşhur din və maarif xadimlərindən idi. Axund Mustafa ali dini təhsilini Təbrizdə məşhur olan Hacı Səfərəli mədrəsəsində bitirmişdi. Təbrizdən Tiflisə qayıtdıqdan iki il sonra Şiə Ruhani İdarəsində yüksəkrütbəli din xadimlərinin qarşısında imtahan verərək "Axund" rütbəsinə layiq görülmüşdür. O, Tiflis-Kutaisi Şiə Quberniya məclisinə üzv seçilmiş, məktəb və dərsliklərin yaradılması işinə nəzarət etmiş, Tiflis şəhəri üzrə Qazının, sonra isə Zaqafqaziya üzrə Şeyxülislamın müavini olmuşdur. Balaca Abdulla atasının 1888-ci ildə Tiflisin azərbaycanlılar yaşayan hissəsində ərəb və fars dillərindən dərs dediyi 6 sinifli Azərbaycan məktəbində oxumuşdu.

Bir müddət burada təhsil aldıqdan sonra anası Mehri xanım Abdullanı və qardaşı Yusifi Xorasan ziyarətinə aparmaq üçün əri axund Mustafadan icazə istəyir. Lakin Axund onların bu səfərə getməsinə etiraz edir. Buna da uşaqlarının kiçik, arvadının cavan olmasını səbəb gətirirdi. Əsl səbəb isə ailədə yaranmış umu-küsülük idi. Mehri xanım isə bu müqəddəs səfərə getmək üçün ərindən icazə almaqda təkidli idi. Axund Mustafa naəlac qalıb ailəsinin qonşu qadın ilə səfərə getməyinə razılıq verir.

1893-cü ildə Abdulla qardaşı Yusif və anası ilə Xorasana, indiki Məşhəd şəhərinə səfər edir. Onlar Axund Mustafanın hər ay göndərdiyi kifayətedici pulla dolanırlar. Abdulla əvvəlcə mollaxanada oxuyur. Burada Çərəkə, Quran, "Cameyi-Abbas", "Gülüstan" kimi kitablar tədris edilirdi. Lakin mollanın bir dəfə onu çubuqla vurması Abdullanın buradan qaçmasına səbəb olur. Bir qədər sonra isə İmam Rzanın ziyarətgahı yaxınlığında Mirzə Yusif adlı bir ziyalının açdığı şəxsi məktəbdə təhsilini davam etdirir. Qardaşlar burada fars və ərəb ədəbiyyatını öyrənməkdən savayı, tarix, məntiq, psixologiya və başqa fənləri də dərindən mənimsəməyə başlayırlar.

1899-cu ildə ailə Tiflisə qayıdır, Abdulla isə Xorasanda qalıb təhsilini davam etdirir.

1900-cü ildə anası Abdullanı vətənə gətirmək üçün Xorasana gəlir. Abdullanın etirazlarına baxmayaraq Mehri xanım onu Tiflisə gətirir.

Bir müddət sonra Abdulla müəllimlik şəhadətnaməsi almaq üçün Bakıya gəlir. O, ilk növbədə, Tiflisdən tanıdığı Nəriman Nərimanovla görüşür.

N.Nərimanov bu ailə ilə həmişə isti münasibətdə olmuşdu. O, Qori Müəllimlər Seminariyasında təhsilini başa vurduqdan sonra da axundla tez-tez görüşərdi. Mehri xanım uşaqlarını vaxtaşırı götürüb N.Nərimanovun anası Həlimə xanıma baş çəkərmiş.

Abdulla Talıbzadə 22 aprel 1901-ci ildə Bakıda Aleksandr gimnaziyasında səkkiz nəfərdən ibarət olan xüsusi komissiya qarşısında imtahan verərək orta məktəblərdə Azərbaycan dili dərsinin tədrisi üçün müəllimlik şəhadətnaməsi alır. Arxivdə diqqətçəkən sənədlərdən biri də 10 may 1901-ci ildə Abdulla Talıbzadəyə verilən başqa bir şəhadətnamədir. Bu dini biliyi haqqında Tiflis Müsəlman Məktəbinin ştatlı nəzarətçisi, Zaqafqaziya Şeyxülislamı Axundzadənin imzası və möhürü ilə xüsusi təlim üzrə ilk iki sinfi bitirərək III sinfin birinci bölməsinə daxil olması haqqında Abdulla Talıbzadəyə verilən şəhadətnamə idi.

Abdulla Şaiqin müəllimlik şəhadətnaməsi aldığını bilən N.Nərimanov onun işlə təmin olunması üçün Bakı Dumasının maarif şöbəsinin müdirinə aşağıdakı məzmunda müraciət edir.

"Mixail Aqanoviç!

Qulluğum Sizinlə görüşməyimə mane olur, ancaq alicənablığınıza və xeyirxahlığınıza güvənərək Sizə məktub yazmağa cəsarət edirəm. Sizdən xahiş edirəm ki, Mirzə Abdulla Talıbzadəni rus-tatar (Azərbaycan) məktəblərinə tatar (Azərbaycan) dili müəllimi vəzifəsinə təyin edəsiniz, onun bu fənni tədris etməyə səlahiyyəti vardır və rus dilini də kifayət qədər yaxşı bilir. Əgər Siz onun sənədlərini başqalarının sənədləri ilə müqayisə etsəniz, onun başqalarından fərqlənən ləyaqəti aydınlaşar.

Narahat etdiyim üçün bağışlayın. Xidmətinizdə həmişə hazıram, Sizə hörmət edən N.Nərimanov Bakı, 17 sentyabr 1901-ci il".

Bununla onu işə götürmək istəyirlər. Lakin təəssüf ki, yer olmadığından gənc Abdulla "ehtiyat müəllim" qalmağa razılıq verir.

Abdulla Şaiq 1902-ci ildə Bakıda Azərbaycan maarifçisi Həbib bəy Mahmudbəyovun müdir olduğu 6 sinifli şəhər məktəbinə müəllim təyin olunur. Məktəbdə dərs yükünün azlığı Abdullanı qane etmir. Maddi vəziyyətini yaxşılaşdırmaqdan ötrü başqa bir məktəbdə də dərs demək üçün yollar arayır və H.Z.Tağıyevin "Lifli Maddələrin Emalı Səhmdar Cəmiyyəti"nin nəzdində açılacaq məktəbdə işləmək üçün həmin cəmiyyətin sahibi, milyonçu-xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevə 20 noyabr 1903-cü ildə məktubla müraciət edir. Müraciətdə Mirzə Abdulla Talıbzadə xahiş edir ki, Bakı şəhər rus-tatar məktəbinin ehtiyatda olan şəriət və yerli dil müəllimi kimi "Lifli Maddələrin Emalı Səhmdar Cəmiyyəti" nəzdində yeni açılacaq məktəbə təyin edilməsinə icazə verilsin.

H.Z.Tağıyev Abdullanın məktubu ilə tanış olduqdan sonra Bakı quberniyası və Dağıstan vilayətinin xalq məktəblərinin direktoru A.S.Tixoryevskiyə aşağıdakı məzmunda məktub göndərir.

"Bu il ( il yazılmayıb) 23 avqust tarixdə, H.Z.Tağıyevin "Lifli Maddələrin Emalı üzrə Qafqaz Səhmdar Cəmiyyətinin İdarə Heyəti"nə zati-alinizin adıçəkilən səhmdar cəmiyyətində məktəbin açılması ilə əlaqədar müsəlman etiqadı üzrə şəriət və tatar (Azərbaycan) dili müəllimi Mirzə Abdulla Talıbovun ora təyin olunması xahiş edilir.

Hazırda Talıbov Sabunçu üçsinifli məktəbə eyni vəzifəyə dəvət olunub. Səhmdar Cəmiyyətinin İdarə Heyəti zati-alinizə bildirməkdən şərəf duyur ki, Talıbov Sabunçu məktəbinə təyin olunarsa, idarə heyəti öz tərəfindən fabrik məktəbinə başqa bir müəllim təyin olunması üçün xüsusi müraciət etsin".

Abdulla Şaiq həmin illərdə bir neçə məktəbdə pedaqoji fəaliyyətini davam etdirir. Bundan əlavə, o, Bakıda 3 sinifli kişilər məktəbində və Ramana məktəblərində ayrı-ayrı illərdə müəllim işləmişdi.

Abdulla Şaiq müəllimlik fəaliyyəti ilə bərabər, körpə balalarımızın da qayğısına qalırdı. Buna görə də o, uşaq bağçası açmaq qərarına gəlir və Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəbləri direktoru A.S.Tixoryevskiyə aşağıdakı məzmunda ərizə ilə müraciət edir.

"Zati-aliləri Sizdən xahiş edirəm Bakı şəhərində müsəlman uşaqları üçün uşaq bağçası açılmasına icazə verəsiniz. Uşaq bağçası həmişə mənim nəzarətim altında olacaq. İllik ödəniş 140 (yüz qırx) rubldır. Uşaq bağçası Verxnaya-Priyutskaya küçəsi (indiki Şamil Əzizbəyov -- A.K.), ev №80-də olacaq.

Mirzə Abdulla Tağızadə, 29 sentyabr 1916-cı il, Bakı şəhəri."

6 oktyabr 1916-cı ildə Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəbləri direktoru tərəfindən Bakı Realni Məktəbi müdirinin adına aşağıdakı məzmunlu məktubda A.Talıbzadə tərəfindən uşaq bağçası açılmasına onun tərəfindən etirazın olub-olmadığını bilmək üçün müraciət olunur. Həmin realni məktəbin direktorunun 11 oktyabr 1916-cı ildə yazdığı cavab məktubunda Mirzə Abdulla Talıbzadə tərəfindən uşaq bağçasının açılmasına heç bir etiraz olmadığı bildirilir.

Maraqlıdır ki, Abdulla Şaiqə bağçanın açılmasına icazənin hələ iki il əvvəl olmasına baxmayaraq, bəzi dairələr tərəfindən süründürməçiliyə yol verilmişdir.

Abdulla Şaiq həm də ilk dərs kitablarının müəllifidir. O, Azərbaycan ədəbiyyatı və dildən xüsusi proqramlar, ibtidai, orta və ali məktəblər üçün dərsliklər hazırlamışdı.

1906-cı ilin avqustunda və 1907-ci ildə Azərbaycan müəllimlərinin birinci və ikinci qurultayları çağırılır. Abdulla Şaiq gənc müəllim kimi birinci qurultayda çıxış edərək ana dili və ədəbiyyatın tədrisi, yeni dərsliklər yaratmaq haqqında öz təkliflərini verir. Bu təklifindən irəli gələrək A.Şaiq 1907-ci ildə birinci siniflər üçün yazdığı "Uşaq gözlüyü", "Gülzar" kitablarını nəşr etdirir. Onun dərslikləri yüksək qiymətləndirilmiş, "Gülzar", "Uşaq gözlüyü", "Türk çələngi", H.Cavidlə birgə yazdığı "Ədəbiyyat dərsləri" kitabları Maarif Komissarlığı tərəfindən bəyənilmiş və onlar (xüsusilə "Uşaq gözlüyü" və "Gülzar") dəfələrlə çapdan çıxmış və məktəblərdə dərslik kimi istifadə olunmuşdur.

Abdulla Şaiqin bir şair və nasir kimi yaradıcılığı XX əsrin əvvəllərində inkişaf etməyə başladı. Həmin illərdə o, öz dərs kitabları üçün bir sıra ibrətli, nəsihətamiz hekayələr yazır və bunlar da zəmanəsinin ziyalıları tərəfindən, xüsusilə də gənclər arasında rəğbətlə qarşılanırdı.

*Aslan KƏNAN (Qasımlı),*
*Dövlət Tarix Arxivinin direktoru*

*Əvvəli 1-ci səh.*

# Ermənistan müxalifəti seçkiyə parçalanmış halda gedir

Məqalədə qeyd edilir ki, Levon Ter-Petrosyanın Nikol Paşinyana dair çağırışları cavabsız qalıb və onun adı yalnız hazırkı baş nazirə müəyyən əxlaqi prinsiplər barədə xatırlatmalar etməklə bağlı çəkilir. Nikolu atalıq və ya mənəvi tövsiyələri ilə yetişdirməyə çalışan sabiq prezident bir çoxunun hesab etdiyi kimi Erməni Milli Konqresi ilə birgə keçmişdə qalıb. Seçkilər baxımından rəhbərlik etdiyi konqresin iştirak etmək üçün ərizə təqdim edəcəyi dəqiqləşdirilsə də, partiya qurultayının son qərarı hələ məlum deyil.

Qəzet yazır ki, tərəfdarları ilə görüşən və suallarını cavablandıran ikinci prezident Robert Koçaryan ölkəni uçurumdan çıxarmaqla bağlı mövqeyini təqdim edib. O, 2018-ci ildə Paşinyanın hakimiyyətə gətirilməsi ilə ölkəni saldıqları uçurumdan çıxartmaq yollarından bəhs edir. Görüşün videosunun hissə-hissə yayımlanması təbliğat təzahürünə işarə edir: "Neytral müşahidə vəziyyətində Koçaryan özünü nə istədiyini və istədiyinə necə nail olacağını bilən güclü, özünə güvənən bir siyasətçi kimi təqdim edir. Yeri gəlmişkən, "Daşnaksütyun" və Sünikin sabiq qubernatoru Vahe Hakobyanın "Dirçələn Ermənistan" partiyası Koçaryana Paşinyan hökumətinə qarşı siyasi mübarizədə yardım göstərəcək. Koçaryan blokunun yeganə və ən ağır ciddi problemi isə tamamilə "keçmiş" olmasıdır".

Ermənistanın üçüncü prezidenti kinorejissor Mher Mkrtçyana müsahibə verərək həmvətənləri ilə səmimi söhbət etməyə çalışmışdı. Ancaq müsahibənin mövzusu keçmiş olduğu üçün və məqsəd yalnız natamam cavabları tamamlamaq olduğundan gələcəyə heç bir şəkildə təsir edə bilməz. Sarkisyanın rəhbərlik etdiyi blokla Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru Artur Vanetsyanın Vətən Partiyası Ermənistan siyasətində yeni bir anlayışdır. Ancaq köhnə rejimin və yenilərin bu birləşməsi çox şey verə bilməz. Qeyd edək ki, Paşinyan hüquq mühafizə sistemi daxil olmaqla güclü inzibati nəzarət mexanizminə sahibdir. Düzdür, müharibədəki məğlubiyyət və Sünikdəki hadisələr adıçəkilən mexanizmi bir qədər zəiflədib, amma bununla belə, Paşinyanın təzyiq imkanları böyükdür. Paşinyanın müxalifətə təzyiq imkanlarından biri də seçki qanunvericiliyidir. Bunu nəzərə alan baş nazir zəifləmiş imkanlarını daha da artırmaq, o cümlədən müxalifəti neytrallaşdırmaq üçün Seçki Məcəlləsində yeni dəyişikliklərin edilməsinə çalışır. Paşinyan düşünür ki, seçki qanunvericiliyinə dəyişiklik edilməzsə, ona bağlı qüvvələr ağır daxili siyasi mübarizədə çətinliklərlə üzləşəcəklər.

Lakin istənilən halda müxalifətin parçalanmış vəziyyətdə olması Paşinyanın digərləri ilə müqayisədə seçkilərdə daha çox səs toplamasına səbəb olacaq. Bu halda onun rəqiblərinə qarşı postseçki dövründə daha amansız təqib siyasəti yürütməsi gözlənilir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Qarabağ müharibəsində Ermənistan ordusunun tərkibində döyüşən livanlı terrorçu ilə bağlı cinayət işi məhkəməyə göndərilib

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpası naminə 44 günlük Vətən müharibəsi zamanı xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən Zəfər qazanılıb.

Silahlı Qüvvələrimizin qarşısında duruş gətirə bilməyəcəyini anlayan Ermənistan Respublikasının hərbi-siyasi rəhbərliyi hər cür cinayətkar əməllər törətməklə yanaşı, beynəlxalq hüququn əsas norma və prinsiplərini kobud şəkildə pozaraq muzdlulardan silahlı qüvvələrin tərkibində istifadə etməklə ordumuza və dinc əhalimizə qarşı çoxsaylı təxribatlara əl atıb.

Baş Prokurorluğun və Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, Livan Respublikasının vətəndaşı Eulcekcian Viken Abraham və qeyrilərinin maddi mükafat müqabilində muzdlu kimi mütəşəkkil dəstə halında birləşib Ermənistan Silahlı Qüvvələri tərkibində Azərbaycan Respublikası vətəndaşlarına qarşı terrorçuluq fəaliyyətində iştirak etmələri faktları əsasında Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işi üzrə istintaq yekunlaşdırılıb.

İstintaqla müəyyən olunub ki, Livan Respublikasının vətəndaşı, Beyrut şəhər sakini, 1979-cu il təvəllüdlü Eulcekcian Viken Abraham 2020-ci il sentyabrın 29-da Livan Respublikasının vətəndaşı Hovak Kikiyanın ilkin olaraq 2500 ABŞ dolları məbləğində maddi mükafat müqabilində muzdlu kimi Azərbaycan Respublikasının işğal altında olmuş ərazilərində hərbi əməliyyatlarda iştirak etmək təklifini qəbul edib. O, bu məqsədlə həmin gün digər şəxslərlə mütəşəkkil dəstə halında qəsdən Ermənistan ərazisindən Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini nəzarət-buraxılış məntəqələrindən kənar keçib və digər muzdluların da olduğu ərazilərə gəlib. Həmçinin Viken Eulcekcian və maddi mükafat müqabilində muzdlu kimi döyüşən digər şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin tərkibində qanunsuz olaraq əldə etdikləri odlu silahlardan, döyüş sursatlarından və komplekt hissələrindən istifadə etməklə Azərbaycan Respublikası vətəndaşlarına və Ordusuna qarşı terrorçuluq fəaliyyətində iştirak ediblər.

Törətdiyi cinayət əməllərinə görə Viken Eulcekciana Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 114.3-cü (muzdlunun hərbi münaqişədə və ya hərbi əməliyyatlarda iştirakı), 214.2.1-ci (terrorçuluq qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə), 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələrində nəzərdə tutulan ittiham elan edilərək, barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Mayın 5-də cinayət işi üzrə ittiham aktı təsdiq edilərək baxılması üçün məhkəməyə göndərilib.

# Bağça uşaqlarının Nərimanov Rayon Dövlət Yanğından Mühafizə Hissəsinə ekskursiyası təşkil edilib

Nərimanov rayonundakı akademik Zərifə Əliyeva adına uşaq bağçasının balaca sakinləri üçün Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğından Mühafizə Xidmətinin Nərimanov Rayon Dövlət Yanğından Mühafizə Hissəsinə ekskursiya təşkil olunub.





FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ekskursiya zamanı uşaqlara yanğınsöndürmə texnika və avadanlığı ilə işləmə qaydaları nümayiş etdirilib. Yanğın avtomobilləri və avadanlıq uşaqların böyük marağına səbəb olub.

Uşaqlara həmçinin odla ehtiyatsız davranmağın fəsadları izah edilib, yanğın baş verdiyi zaman tələb olunan zəruri davranış qaydaları barədə məlumat verilib.

# "Azərbaycanda vətəndaşsızlıq: nailiyyətlər və hədəflər" jurnalı nəşr olunub

**"Azərbaycanda vətəndaşsızlıq: nailiyyətlər və hədəflər" jurnalı nəşr olunub.**

Dövlət Miqrasiya Xidmətindən (DMX) AZƏRTAC-a bildiriblər ki, DMX-nin və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının birgə nəşri vətəndaşsızlıq halları ilə bağlı bir sıra məsələlərə həsr edilib. Azərbaycan və ingilis dillərində dərc edilən jurnalda xidmətin Vətəndaşlıq məsələləri baş idarəsinin rəisi Rza Talıbovun DMX-nin vətəndaşlıq məsələləri üzrə həyata keçirdiyi fəaliyyət, vətəndaşlıq hüququnun mahiyyəti, vətəndaşsızlıqla bağlı ölkə qanunvericiliyinin vətəndaşsızlıq hallarının həllində hüquqi təminatı ilə əlaqədar müsahibəsi yer alıb.




Nəşrdə "Vətəndaşsızlığa son qlobal fəaliyyət planı: 2014-2024", vətəndaşsızlıq məsələləri ilə əlaqədar işçi qrupunun fəaliyyəti, Azərbaycanda "Vətəndaşsızlığa son" kampaniyası çərçivəsində görülən işlər və digər mövzular barədə məqalələr də oxuculara təqdim olunur.

Jurnalda əvvəllər vətəndaşsızlıq halında olan və son zamanlar Azərbaycan Respublikasının vətəndaşlığını əldə edən şəxslərlə müsahibələr də əksini tapıb.

# Dövlət sərhədlərimizin etibarlı mühafizəsi təmin edilir

Dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri davam etdirilir.







Dövlət Sərhəd Xidmətinin Mətbuat mərkəzinin məlumatına görə, son günlərdə Dövlət Sərhəd Xidmətinin əməkdaşlarının sayıqlığı nəticəsində təxmini çəkisi 17 kiloqram narkotik vasitənin və 17715 ədəd güclü təsirli maddənin qaçaqmalçılıq yolu ilə Azərbaycan Respublikasına keçirilməsinin qarşısı alınmışdır.

Aprelin 25-də Xəzər dənizinin cənub istiqamətində dövlət sərhədinin mühafizəsində olan sərhəd gözətçi gəmisi tərəfindən dəniz istiqamətləndirici nişanına bağlanılmış 1 ədəd torbanın içərisində ümumi çəkisi 1540 qram qurudulmuş marixuanaya bənzər maddə aşkarlanaraq götürülmüşdür.

Mayın 4-də Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində Yardımlı rayonunun Ostair kəndinin yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində 3 nəfər naməlum şəxsin İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozmasının qarşısı alınmış, sərhəd naryadının "Dayan" əmrinə tabe olmayan sərhəd pozucuları əllərindəki əşyanı əraziyə ataraq havanın qaranlıq, relyefin mürəkkəb olmasından istifadə edərək geriyə qaçmışlar. Ərazi dərhal qapadılaraq keçirilmiş axtarış tədbirləri nəticəsində 1 ədəd qara rəngli çantanın içərisində 11 550 qram narkotik vasitəyə (3415 qram "marixuana", 5085 qram "heroin", 2030 qram "tiryək" və 1020 qram "metamfetamin") bənzər maddələr aşkarlanaraq götürülmüşdür. Həmin gün Yardımlı rayonunun Abbaslı kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikasının ərazisinə hərəkət edən 2 nəfər naməlum şəxsin dövlət sərhədini pozması sərhəd naryadı tərəfindən müşahidə edilmişdir. Sərhəd zastavası "Silaha" komandası üzrə qaldırılmış, xidməti ərazi qapadılmışdır. Sərhəd naryadının "Dayan" əmrinə tabe olmayaraq ərazidən uzaqlaşmağa cəhd göstərən sərhəd pozucuları saxlanılmışlar. Saxlama zamanı sərhəd pozucularından biri sərhəd naryadına qarşı bıçaqla müqavimət göstərmiş, cinayətkar tərksilah olunarkən üz nahiyəsindən yüngül xəsarət almış, hadisə yerində ona ilkin tibbi yardım göstərilmişdir.

Saxlanılan şəxslərin İran vətəndaşları 1973-cü il təvəllüdlü Səidi Zeğəm Səyyad və 1983-cü il təvəllüdlü İbrahim Seyiddi Ağabala olmaları müəyyənləşdirilmişdir. Hadisə yerinə baxış zamanı sərhəd pozucularının qanunsuz yolla Azərbaycan Respublikasının ərazisinə gətirdikləri ümumi çəkisi 3935 qram narkotik vasitəyə (3840 qram "marixuana" və 95 qram "metamfetamin") bənzər maddələr və 17715 ədəd "Preqabalin" həbi aşkar olunaraq götürülmüşdür.

Faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.


## "Azərişıq" ASC 0,4 kV ÖİN xətlərinin daşınması üçün müxtəlif birləşmə və saxlayıcı aksesuarların satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqavilәni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız "ASAN ödəniş" vasitəsilə həyata keçirə bilərlər. Müsabiqəyə daxil olduqdan sonra "ASAN ödəniş"lə "ödə" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

**LOT-1:** 0,4 kV ÖİN xətlərinin daşınması üçün müxtəlif birləşmə və saxlayıcı aksesuarların satın alınması

**İştirak haqqı - 300 manat**
**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - **Emil Əliyev** (telefon: 440-39-93, daxili (29-18))
**emil.aliyev@azerishiq.az**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *malgöndərənin VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsindən mikro, kiçik və ya orta sahibkarlıq subyektləri olduğunu təsdiq edən arayış (təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir (İri sahibkarlıq subyektləri qanuna əsasən elektron Portal vasitəsilə keçirilən tenderdə iştirak edə bilməz));*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən ən azı 30 bank günü çox olmalıdır);*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *iddiaçı şirkətin rəhbərinin, habelə işlərini idarə edənlərin satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində məhkum olunması haqqında arayış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *təklif edilən malların yerli və ya beynəlxalq sertifikatları (tələb olunduğu halda təqdim olunmalıdır).*

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **03 iyun 2021-ci il saat 11:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini **11 iyun 2021-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **14 iyun 2021-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***


# İtkin düşmüş daha bir hərbi qulluqçunun meyiti tapılaraq aidiyyəti üzrə təhvil verilib

**Azərbaycan Respublikası Silahlı Qüvvələrinin itkin düşmüş hərbi qulluqçularının tapılaraq, şəxsiyyətinin müəyyən edilib doğmalarına təhvil verilməsi istiqamətində Azərbaycan Respublikası Baş Prokurorluğunun və Respublika Hərbi Prokurorluğunun rəhbərliyinin nəzarəti ilə intensiv əməliyyat-istintaq hərəkətləri həyata keçirilir.**

Respublika Hərbi Prokurorluğunun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi prokurorluq orqanlarının və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarının iştirakı ilə Silahlı Qüvvələrin hərbi qulluqçularından ibarət axtarış qrupları itkin düşmüş hərbi qulluqçularımızın axtarılması istiqamətində müntəzəm iş aparırlar.

Qeyd olunub ki, itkin düşmüş daha bir hərbi qulluqçunun - kiçik çavuş Tağıyev Pərviz Hafiz oğlunun meyiti Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları ilə birgə həyata keçirilmiş əməliyyat-istintaq tədbirlərinin nəticəsində tapılaraq, şəxsiyyəti müəyyən edilib. Hərbi qulluqçunun nəşinin aidiyyəti üzrə verilməsi üçün zəruri tədbirlər görülüb.

İtkin düşmüş digər hərbi qulluqçuların olduqları yerlərin müəyyənləşdirilməsi məqsədilə əməliyyat-istintaq tədbirlərinin icrası davam etdirilir, eləcə də axtarış qrupları tərəfindən hazırda intensiv işlər həyata keçirilir.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!


## BİLDİRİŞ

"Azərenerji" ASC tərəfindən 23 fevral 2021-ci il tarixdə elan edilmiş **Müxtəlif növ sənaye və məişət avadanlıqlarının servis xidmətlərinin satın alınması** üzrə dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə keçirilən açıq tenderdə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və Tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən **"MİX PRO" MMC** tenderin qalibi müəyyən edilmişdir.

Qalib gəlmiş təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası tərəfindən 30 aprel 2021-ci il tarixdə "2021-ci il üçün akademiyanın tibb məntəqəsinə dərman və sarğı ləvazimatlarının satın alınması"na dair keçirilən kotirovka sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 11.1-ci maddəsinə uyğun olaraq ləğv edilir.

***Tender komissiyası***

## BİLDİRİŞ

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" Publik Hüquqi Şəxs tərəfindən icbari tibbi sığortaya, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə və onun fəaliyyətinə aid məlumatların mediada monitorinqi, toplanılması, emalı, təhlili və arxivləşdirilməsi xidmətlərinin satın alınması üzrə elektron satınalma vasitəsilə keçirilən açıq tender prosedurunun qalibi **"Press-Revyu İnformasiya, Monitor Agentliyi" Məhdud Məsuliyyətli Cəmiyyəti** müəyyən edilmişdir.

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" Publik Hüquqi Şəxs ilə "Press-Revyu İnformasiya, Monitor Agentliyi" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 30.04.2021-ci il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" Publik Hüquqi Şəxs *açıq tender elan edir*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" Publik Hüquqi Şəxs agentliyin Aparatı üçün vebsaytın yaradılması xidmətinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə sistemdə asan pay vasitəsilə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə və müsabiqə üçün təkliflərini təqdim edə bilərlər.

**İştirak haqqı : 50 (əlli) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" Publik Hüquqi Şəxs**
**VÖEN: 1003853391**
**Bank : "Kapital Bank" ASC 28 May filialı**
**KOD: 200123**
**MÜXBİR HESABI: AZ37NABZ01350100000000001944**
**VÖEN: 9900003611**
**SWIFT BIK AIIBAZ2X**
**H/HESABI: AZ29AIIB38060019440816558112**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (sənədlər notarial qaydada təsdiq edilməli və PDF formatında yerləşdirilməlidir);
- tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış (malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır, 06.05.2021-ci ildən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir, sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir, əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir);
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2020-ci il üzrə, vergi orqanları tərəfindən təsdiq olunmalıdır, əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir);
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir, əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir. 06.05.2021-ci ildən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);
- satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (malgöndərən (podratçı) tərəfindən hazırlanır);
- satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışının və vergi uçotunda olduğunu təsdiq edən sənədin notarial qaydada təsdiq olunmuş surəti);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması (uçotda olduğu vergi orqanından yüklülük barədə arayış, əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir);
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" Mərkəzlərindən məhkumluq ilə bağlı arayış alınır);
- mikro, kiçik, və ya orta sahibkarlıq subyektinə aid olmasına dair məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir).

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **01.06.2021-ci il saat 15:00-a,** tender təklifi ilə bank təminatını **09.06.2021-ci il saat 15:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **10.06.2021-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

Xidmətlər 01.09.2021-ci il tarixədək təhvil verilməlidir.

***QEYD:*** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

*Təkrar*

## “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” Publik Hüquqi Şəxs
## *açıq tender elan edir*

Malgöndərənlərə (podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanından (əlaqələndirici şəxs: Əhmədağa Salayev, telefon: (+99412) 310-07-70 (daxili 2011), e-mail: **asalayev@its.gov.az**) ala bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

**LOT-1.** “İmtiyazlı qrupa daxil olan xəstələr”in təminatı üçün dərman vasitələrinin satın alınması

**İştirak haqqı:**

**LOT-1 üzrə 600.00 (altı yüz manat 00 qəpik) manat.**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**

**Təşkilat: “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” Publik Hüquqi Şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: Kapital Bank ASC Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK -AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış;*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır;*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat;*
- *tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat (malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya “ASAN xidmət” mərkəzlərindən məhkumluq ilə bağlı arayış alır).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib edilməlidir (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Malgöndərənlər tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təkliflərinin açılışına 7 bank günü qalana qədər) **02.06.2021-ci il saat 18:00-a** qədər, tender təklifi və tender təklifinin bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **10.06.2021-ci il saat 15:00-a** qədər Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy, 170 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçının təklifləri **11.06.2021-ci il saat 15:00-da** Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanında yerləşən “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” Publik Hüquqi Şəxsində açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” Publik Hüquqi Şəxs
## *açıq tender elan edir*

Malgöndərənlərə (podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanından (əlaqələndirici şəxs: Əhmədağa Salayev, telefon: (+99412) 310-07-70 (daxili 2011), e-mail: **asalayev@its.gov.az**) ala bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

**LOT-1. “Ümumprofilli müalicə müəssisələrinin fəaliyyətində istifadə olunan tibbi ləvazimatlar.**

**İştirak haqqı:**

**LOT-1 üzrə 800.00 (səkkiz yüz manat 00 qəpik) manat.**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**

**Təşkilat: “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” Publik Hüquqi Şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: Kapital Bank ASC Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK -AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış;*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır;*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat;*
- *tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat (malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya “ASAN xidmət” mərkəzlərindən məhkumluq ilə bağlı arayış alır).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib edilməlidir (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Malgöndərənlər tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təkliflərinin açılışına 7 bank günü qalana qədər) **02.06.2021-ci il saat 18:00-a** qədər, tender təklifi və tender təklifinin bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **10.06.2021-ci il saat 15:00-a** qədər Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy, 170 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçının təklifləri **11.06.2021-ci il saat 15:00-da** Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanında yerləşən “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” Publik Hüquqi Şəxsində açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan İnvestisiya Holdinqi
## *təkliflər sorğusu elan edir*

Azərbaycan İnvestisiya Holdinqi kompüterlərin və printerlərin satın alınması məqsədilə təkliflər sorğusu elan edir.

Təkliflər sorğusunda kompüterlərin və printerlərin təchizatı və istehsalı sahəsində ixtisaslaşan peşəkar rezident və qeyri-rezident mikro, kiçik və orta sahibkarlıq subyektləri, yaxud yeni hüquqi şəxs yaratmadan hüquqi şəxslər birliyi (konsorsium da daxil olmaqla) iştirak edə bilərlər.

Təkliflər sorğusunda iştirak etmək istəyənlər 300 (üç yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən bank hesabına köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Azərbaycan prospekti, 6, ünvanından (telefon: (012) 599-87-80, daxili nömrə 2008, otaq № 311) əldə edə bilərlər.

**Emitent**
**Kapital Bank ASC Mərkəz filialı**
**Bank kodu: 200026**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T. bik: AIIBAZ2X**
**Alan**
**Azərbaycan İnvestisiya Holdinqi**
**VÖEN: 1702893761**
**H/H- AZ13AIIB38060019440818786102**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar təkliflər sorğusunda iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *təkliflər sorğusunda iştirak etmək üçün yazılı müraciət;*
- *təklif (qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 bank günü təşkil etməlidir);*
- *təklif dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (qiymət təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı).*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin və onlara edilmiş əlavə və düzəlişlərin müvafiq qaydada təsdiqlənmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə) və rekvizitləri;*
- *təkliflər sorğusuna dair təklifi və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *iddiaçının son 3 (üç) il ərzində oxşar müqavilələr üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *digər sənədlər (təkliflər sorğusunun Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər).*

İddiaçılar konsorsium yaratmaqla təkliflər sorğusunda iştirak etmək istəyirlərsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

Təkliflər sorğusunun predmeti üzrə kompüterlər və printerlər (3 adda, 66 ədəd) satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 1 (bir) gün müddətində Bakı şəhəri, Səbail rayonu, Azərbaycan prospekti, 6 ünvanına təqdim olunmalıdır.

Təkliflər sorğusu üzrə təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- *təqdim ediləcək malların dəyəri;*
- *malların çatdırılması müddəti.*

İddiaçılar təkliflər sorğusuna dair təkliflərini qapalı, möhürlənib imzalanmış ikiqat zərflərdə iki nüsxədə (üzərində “əsli” və “surəti” yazılmış) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin əsli və surəti arasında fərqlər olduqda üstünlük üzərində “əsli” sözü yazılmış nüsxəyə veriləcəkdir.

Azərbaycan Respublikasından olan iddiaçıların təkliflər sorğusu üzrə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil etdikləri dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş nüsxəsini əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, ayrı-ayrı möhürlənib imzalanmış ikiqat zərflərdə **18 may 2021-ci il saat 17:00-dək** Bakı şəhəri, Azərbaycan prospekti, 6 ünvanına (əlaqələndirici şəxs - Babək Amaşov, telefon: (012) 599-87-80, daxili nömrə: 2008. babek.amashov@aih.az) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **19 may 2021-ci il saat 11:00-da** Bakı şəhəri, Azərbaycan prospekti, 6 ünvanında (otaq: 209) açılacaqdır.

***Tender komissiyası***

# OXUCULARIN NƏZƏRİNƏ!
# “AZƏRBAYCAN”
## *qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *“Azərpoçt” ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Kaspi” MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun “Elektrik təsərrüfat malları və alətlər dəstinin” satın alınması məqsədilə 18.02.2021-ci il tarixdə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmiş, qiymətləndirmənin nəticəsində **“GLOBAL BUSINESS PARTNER” MMC** qalib müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Bakı Metropoliteni” QSC tərəfindən 16.04.2021-ci il tarixdə keçirilmiş “Bakı Metropoliteni” QSC üçün müxtəlif növ armaturların satın alınması üzrə təkliflər sorğusunun nəticələri “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11.2. bəndinə əsasən, Əsas şərtlər toplusuna uyğun olmadığı səbəbindən ləğv edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Boz Dağ Qış Otlaqlarının Su Təminatının Sistemlərinin İstismarı İdarəsi tərəfindən 09.02.2021-ci il tarixdə elan edilmiş “Yüksək təzyiqli boru kəmərlərinin cari təmiri üçün polietilen boruların, tikinti materiallarının və avtomobil-traktor ehtiyat hissələrinin satın alınması” üzrə açıq tender (elektron satınalma) prosedurunun nəticələri Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin 03 may 2021-ci il tarixli AİBNDX 15/01-5/2285p saylı məktubu əsasında ləğv edilmiş və açıq tenderin (elektron satınalmanın) yenidən keçirilməsi məqsədəmüvafiq hesab edilmişdir.

Əlaqələndirici şəxs: İbrahimov Elmir. Tel.: 024 274 59 27

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

“Azərbaycan” qəzeti redaksiyasının kollektivi Xalq şairi

**FİKRƏT QOCANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Yazıçılar Birliyinin birinci katibi, Xalq şairi

**FİKRƏT QOCANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi Qulu Novruzov və akademiyanın kollektivi Azərbaycan Respublikasının gənclər və idman naziri

**AZAD RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Ənvər Seyidov Xalq şairi

**FİKRƏT QOCANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Baş Prokurorluğun İstintaq idarəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqi Teymur Qarayevə atası

**FƏXRƏDDİN MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Azərkontrakt” Səhmdar Cəmiyyətinin kollektivi Azərbaycan Respublikasının gənclər və idman naziri

**AZAD RƏHİMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Lənkəran Ağır Cinayətlər Məhkəməsinin sədri və kollektivi məhkəmənin hakimi Nizami Quliyevə həyat yoldaşı

**İRADƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Azərbaycan” nəşriyyatının kollektivi Azərbaycan Respublikasının gənclər və idman naziri

**AZAD RƏHİMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Müdafiə Sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi Azərbaycan Yazıçılar Birliyinin birinci katibi, Xalq şairi

**FİKRƏT QOCANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Yazıçılar Birliyinin birinci katibi, Xalq şairi

**FİKRƏT QOCANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Akademik Mehdi Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbin 1980-ci il buraxılış X[A] sinfinin məzunları sinif yoldaşları Bəkir Əhmədova anası

**MƏLEYKƏ XANLAR QIZI ƏHMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5244
Sifariş 830
Qiyməti 40 qəpik